14 noyabr 2016-cı il

# BMT QAK-ın İraqa qayıdışlarla əlaqədar mövqeyi


| | |
|---|---|
| *Giriş* | 1 |
| *İnsan hüquqlarına dair beynəlxalq normaların və beynəlxalq humanitar hüququn pozuntuları və sui-istifadə halları* | 5 |
| *İŞİD-in əlində olan ərazilərdən İraqın digər ərazilərinə qaçan mülki şəxslərlə rəftar* | 11 |
| *Əvvəllər İŞİD-in nəzarəti altında olmuş ərazilərdə mülki şəxslərlə rəftar* | 16 |
| *Əvvəllər İŞİD-in nəzarətində olmuş və ya hazırda nəzarət etdiyi ərazilərdən olan mülki şəxslərlə hazırda mərkəzi hökumətin və ya KRH-nin nəzarətində olan ərazilərdə rəftar* | 19 |
| *Mülki şəxslər arasında itkilər* | 26 |
| *Ölkədaxili və ölkəxarici didərginlik* | 27 |
| *Məcburi köçkünlərin qayıdışları və xaricdən qayıdışlar* | 29 |
| *Humanitar vəziyyət* | 32 |
| *BMT QAK-ın İraqa qayıdışlarla əlaqədar mövqeyi* | 35 |


## *Giriş*

1. Bu mövqe sənədi "BMT QAK-ın İraqa qayıdışlarla əlaqədar mövqeyi"nə dair 2014-cü ildə tərtib edilmiş sənədi[1] əvəzləyir.

2. Bu mövqe sənədində bir tərəfdən İraq Təhlükəsizlik Qüvvələri (İTQ) və onlarla əlaqəli qüvvələr,[2] digər tərəfdən isə "İraq və Şam İslam Dövləti" (İŞİD) adlandırılan qruplaşma[3] arasında davam etməkdə olan silahlı qeyri-beynəlxalq münaqişə nəticəsində mülki şəxslərin üzləşdiyi risklər ön plana çəkilir.

3. 2014-cü ildə şimali və mərkəzi İraqda münaqişənin və zorakılıqların yenidən şiddətlənməsi ilə nəticələnən İŞİD-in geniş işğalı baş verdi.[4] 2015-ci ildən etibarən geniş beynəlxalq koalisiyanın dəstəyi ilə İTQ və onunla əlaqəli qüvvələr Əl-Ənbar, Babil, Diyala, Ərbil, Neynəva və Səlahəddin vilayətlərində ərazilərin İŞİD-dən geri alınmasında xeyli uğura nail oldular.[5] 17

---

[1] BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMT QAK), *BMT QAK-ın İraqa qayıdışlarla əlaqədar mövqeyi*, 27 oktyabr 2014-cü il, http://www.refworld.org/docid/544e4b3c4.html.

[2] "Əlaqəli qüvvələr" sırasına bunlar daxildir: silahlı könüllülər və tayfa qüvvələri (şiələr, sünnilər və digərləri), xalq səfərbərlik bölmələri (XSB-lər) və İraqın Kürdüstan bölgəsinin hərbi qüvvələri (*peşmərgələr*).

[3] Özünü "İraq və Şam İslam Dövləti" (İŞİD) adı ilə (ərəbcə: "*Əd-Dövlə əl-İslamiyyə fi əl-İraq və əl-Şam*") elan edən qrup həmçinin (əvvəllər) "İraq İslam Dövləti" (İİD) və ya "İraq və Levant İslam Dövləti" (İLİD) adı ilə tanınıb, ona həmçinin "İslam Dövləti" (İD) və ya ərəb abbreviaturası ilə DAİŞ də deyirlər.

[4] 2016-cı ildə "Qlobal sülh indeksi"ndə İraq Suriya və Cənubi Sudanı qabaqlamaqla aşağıdan üçüncü pillədə qərarlaşan ölkə olub; İqtisadiyyat və Sülh İnstitutu, "*Qlobal sülh indeksi-2016*", iyun 2016-cı il, http://bit.ly/1UCZDV1, səh. 11.

[5] BMT-nin Təhlükəsizlik Şurası (BMTTŞ), *Baş katibin 2299 (2016) saylı qətnaməyə uyğun olaraq təqdim edilmiş məruzəsi*, 25 oktyabr 2016-cı il, S/2016/897, http://www.refworld.org/docid/5821ca0f4.html (bundan sonra belə

oktyabr 2016-cı ildə İraqın Baş naziri Əl-Abadi 2014-cü ilin iyunundan bəri İŞİD-in nəzarəti altında olan İraqın ikinci böyük şəhəri Mosulun geri alınması üçün hərbi hücum əməliyyatına başlanıldığını rəsmən elan etdi.[6]

4. Yenidən qızışan münaqişə və zorakılıqlar nəticəsində on minlərlə mülki şəxs öldürüldü və ya yaralandı, məlumatlara görə 3,18 milyondan artıq insan ölkə daxilində köçkünə çevrilib və 10 milyondan artıq insanın humanitar yardıma ehtiyacı var.[7] İŞİD-in 2014-2015-ci illərdəki irəliləyişləri və sonradan İŞİD-ə qarşı aparılmış hərbi əməliyyatlar geniş miqyaslı didərginlik hallarına səbəb oldu və Mosula hücumun davam etməsi nəticəsində çoxlu sayda iraqlılar didərgin düşmə riski altındadırlar.[8]

5. Mərkəzi və şimali İraqın bir çox hissələrində davamlı hərbi hücum və əks-hücum əməliyyatları nəticəsində təhlükəsizlik sahəsində olduqca dəyişkən və proqnozlaşdırıla bilməyən vəziyyət davam etməkdədir.[9] Şimali və mərkəzi İraqın müəyyən hissələri faktiki olaraq İŞİD-in nəzarəti altındadır və məlumatlara əsasən, o, bu ərazilərdəki əhaliyə qarşı insan hüquqlarının ağır və geniş yayılmış pozuntularını törətməkdə davam edir.[10] Hərbi əməliyyatlar zamanı mülki şəxslər İŞİD tərəfindən "canlı sipər" kimi istifadə olunur; həmçinin onların çarpaz atəşlərin, snayper güllələrinin və bombardmanların qurbanı olması riski böyükdür.[11] Qaçıb qurtulmağa çalışanlar İŞİD tərəfindən cəzalandırılmaq riski altındadırlar.[12] Həm də onlar üz tutduqları təhlükəli yollarda risklərlə üzləşirlər, buraya çarpaz atəşlərin, müharibədən qalma partlayıcı sursatların (MQPS) və əldəqayırma partlayıcı qurğuların (ƏPQ) qurbanı olmaq riski də daxildir.[13] Məlumatlara əsasən digərləri İŞİD-in əlində olan ərazilərdən qaçmaq üçün çətin səfərə çıxmağa məcbur olarkən susuzluqdan tələf olurlar.[14] Şimali və mərkəzi İraqda İŞİD-in əlində

---

adlandırılacaq: *Baş katibin 2299 (2016) saylı qətnaməyə uyğun olaraq təqdim edilmiş məruzəsi*, 25 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5821ca0f4.html), 14-cü bənd; BBC, *İŞİD Suriyada və İraqda ərazilərinin dörddə birindən çoxunu itirib*; 9 oktyabr 2016-cı il, http://bbc.in/2e45mdP; "*IHS Conflict Monitor*" analitik mərkəzi, *IHS-in bildirdiyinə görə, İslam xilafət dövlətinin ərazisi 2016-cı ildə 12 faiz kiçilib*, 10 iyul 2016-cı il, http://bit.ly/2e5abTt.

6 "Əl-Cəzirə" telekanalı, *İraq: Heydər əl-Abadi Mosul əməliyyatına başlayır*, 17 oktyabr 2016-cı il, http://aje.io/3jy9.

7 Həmçinin aşağıda "*Ölkədaxili və ölkəxarici didərginlik*" və "*Humanitar vəziyyət*" bölmələrinə bax.

8 Aşağıda "*Ölkədaxili və ölkəxarici didərginlik*" bölməsinə bax.

9 BMTTŞ, *Baş katibin 2299 (2016) saylı qətnaməyə uyğun olaraq təqdim edilmiş məruzəsi*, 25 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5821ca0f4.html, 15-ci bənd.

10 BMTTŞ, Müharibələrin Öyrənilməsi İnstitutu (*ISW*), *İraqın əraziyə nəzarəti: 7 oktyabr 2016-cı il,* 7 oktyabr 2016-cı il, http://bit.ly/2dhYCZd. Aşağıda "*İnsan hüquqlarına dair beynəlxalq normaların və beynəlxalq humanitar hüququn pozuntuları və sui-istifadə halları*" bölməsinə bax.

11 Beynəlxalq Amnistiya Təşkilatı (*Amnesty International*), *İraq: Çarpaz atəşlər altında qalan və "İslam Dövləti" qruplaşması tərəfindən canlı sipər kimi istifadə olunan mülki şəxslərin təhlükəsizliyi ilə bağlı qorxu*, 27 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/581c92474.html; Humanitar məsələlərin koordinasiyası idarəsi (*OCHA*), *Mosul əməliyyatı zamanı mülki şəxslərin müdafiəsindən daha önəmli olan heç nə yoxdur*, 21 sentyabr 2016-cı il, http://bit.ly/2duw3sO; Himayə məsuliyyəti üzrə Qlobal Mərkəz (*Global Centre R2P*), "*R2P Monitor*" bülleteni, 29-cu buraxılış, 15 sentyabr 2016-cı il, http://bit.ly/2cJaAK4, səh. 4; Human Rayts Votç (*Human Rights Watch*) təşkilatı (*HRW*), *İraq: İŞİD-in hökmranlığı edamlarla, qəddarlıqla əlamətdar oldu*, 10 iyul 2016-cı il, http://www.refworld.org/docid/57836a324.html; Beynəlxalq Amnistiya Təşkilatı, *Fəllucədən qaçış*, 28 may 2016-cı il, http://bit.ly/2ejzLoT; Atlantika Şurası, *Mosulun geri alınması*: *İŞİD və insan sipərləri*, 16 mart 2016-cı il, http://bit.ly/1PonMMa; BMT-nin İraqa Yardım Missiyası (*UNAMI*), *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin himayəsinə dair hesabat: 1 may – 31 oktyabr 2015-ci il,* 11 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a09a304.html (bundan sonra belə adlandırılacaq: UNAMI, *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin himayəsinə dair hesabat: 1 may – 31 oktyabr 2015-ci il,* 11 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a09a304.html), səh. 14, 23.

12 Aşağıda "*İŞİD-in əlində olan ərazilərdən İraqın digər ərazilərinə qaçan mülki şəxslərlə rəftar*" bölməsinə bax.

13 OCHA, *Humanitar bülleten: İraq, iyul – avqust 2016-cı il,* 29 avqust 2016-cı il, http://bit.ly/2duUdAQ, səh. 2; BMT QAK, *İraq: Yenilənən xəbərlər*, 27 avqust 2016-cı il, http://bit.ly/2dUNwdp, səh. 2; BMT QAK, *Mosul ətrafında döyüşlərin şiddətlənməsi ucbatından daha minlərlə iraqlı didərgin düşüb*, 14 iyun 2016-cı il, http://bit.ly/2enylbW.

14 "Uşaqların Xilası" (*Save The Children*) təşkilatı, *Mosuldakı hücum əməliyyatından qaçıb qurtularkən uşaqlar susuzluqdan ölür, yerdə quraşdırılmış minalardan həlak olurlar*, 13 oktyabr 2016-cı il, http://bit.ly/2dkB3d7;

olan ərazilərdən qaçıb qurtulanlar üçün ölkənin digər hissələrindəki nisbətən təhlükəsiz ərazilərin dairəsi məhduddur və bu da həmin yerlərdə giriş-çıxışa və məskunlaşmaya ciddi məhdudiyyətlər qoyulmasının, o cümlədən maddi himayədarın olması tələbinin nəticəsidir; belə tələblər çox vaxt ayrı-seçkilik xarakterli meyarlara əsaslanır, məsələn, şəxs etnik, dini və (və ya) tayfa mənsubiyyəti və ya doğulduğu ərazi ilə əlaqədar olaraq İŞİD-lə əlaqəli hesab edilə bilər.[15]

6. İŞİD-in nəzarəti altında olan ərazilərdə qalan əhali mütəmadi olaraq İŞİD-i dəstəkləyən insanlar kimi qəbul edilir və məlumatlara görə bunun nəticəsində müxtəlif qüvvələrin qisas aktlarının hədəfinə çevrilirlər.[16] Məlumatlara əsasən İTQ tərəfindən İŞİD-in və onunla əlaqəli qüvvələrin sıxışdırılıb çıxarıldığı ərazilərə İŞİD dəstələrinin daxil olması, əks-hücumlar keçirməsi və terror aktları törətməsi riski qalmaqdadır.[17] Məlumatlarda deyilir ki, İraq hökuməti tam və real hakimiyyətini bərqərar etməkdə çətinliklərlə üzləşir və dövlətin və onun təsisatlarının qanunları tətbiq etmək və mülki şəxsləri himayə etmək imkanları zəif olaraq qalır.[18] Həmçinin gərginlik və zorakılıqların olduğu barədə məlumat verilir, belə ki, İŞİD-dən geri alınmış ərazilərdə, xüsusən mərkəzi hökumətlə Kürdüstan regional hökuməti (KRH) arasında mübahisə predmeti olan və statusu İraq Konstitusiyasının 140-cı maddəsinə uyğun olaraq həll edilməli olan ərazilərdə ("mübahisəli daxili sərhəd" əraziləri) müxtəlif qüvvələr hakimiyyət uğrunda mübarizə

---

BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş dördüncü məruzəsi*, 5 iyul 2016-cı il, S/2016/592, http://www.refworld.org/docid/5784de404.html (bundan sonra belə adlandırılacaq: BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 4-cü məruzəsi*, 5 iyul 2016-cı il, http://www.refworld.org/docid/5784de404.html), 37-ci bənd; BMT-nin İnsan Hüquqları Şurası, *Məcburi köçkünlərin insan hüquqları üzrə xüsusi məruzəçinin İraqa missiyasına dair məruzəsi,* 5 aprel 2016-cı il, A/HRC/32/35/Add.1, http://www.refworld.org/docid/575fb7e14.html (bundan sonra belə adlandırılacaq: BMT-nin İnsan Hüquqları Şurası, *Məcburi köçkünlərin insan hüquqları üzrə xüsusi məruzəçinin məruzəsi,* 5 aprel 2016-cı il, http://www.refworld.org/docid/575fb7e14.html), 40-cı bənd.

[15] Aşağıda "*İŞİD-in əlində olan ərazilərdən İraqın digər ərazilərinə qaçan mülki şəxslərlə rəftar*" bölməsinə bax.

[16] Aşağıda "*Əvvəllər İŞİD-in nəzarəti altında olmuş ərazilərdə mülki şəxslərlə rəftar*" bölməsinə bax.

[17] "*İŞİD-dən azad edilmiş ərazilərdə terrorçuluq, məzhəblərarası və icmalararası zorakılıq və cinayətkarlıq ucbatından təhlükəsizliklə bağlı vəziyyət problemli olaraq qalmaqda davam edir*"; BMT-nin Təhlükəsizlik Şurası, BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş üçüncü məruzəsi*, 27 aprel 2016-cı il, S/2016/396, http://www.refworld.org/docid/5731a1a14.html (bundan sonra belə adlandırılacaq: *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 3-cü məruzəsi*, 27 aprel 2016-cı il, http://www.refworld.org/docid/5731a1a14.html), 20-ci bənd. Həmçinin bax: "*Middle East Monitor*" təşkilatı, *DAİŞ İraqda əraziləri geri alır*, 8 oktyabr 2016-cı il, http://bit.ly/2dDoah2; "Qardian" (*The Guardian*) qəzeti, *İraqın silahlı könüllüləri Tikrit ətrafında amansız hücuma başladılar*, 24 sentyabr 2016-cı il, http://bit.ly/2dTIlr9; "*Middle East Eye*" portalı, *"İslam Dövləti" qruplaşmasının məğlubiyyəti yeni-yeni təhlükələr yaradır*, 22 iyun 2016-cı il, https://shar.es/1EgccU; "Frans Press" Agentliyi (AFP), *İraqda İŞİD-in hücumu nəticəsində təhlükəsizlik qüvvələrinin 15 üzvü qətlə yetirildi*, 17 iyun 2016-cı il, http://ara.tv/5pxqm; "Vaşinqton Post" qəzeti, *Sıxışdırılmış halda olan "İslam Dövləti" qruplaşması savaşını Bağdad küçələrinə keçirir*", 18 may 2016-cı il, http://wpo.st/3y542; Azlıqların hüquqlarının müdafiəsi üzrə Beynəlxalq Qrup (*Minority Rights Group International – MRGI*), *İraqda didərginlik böhranı: Təhlükəsizlik və himayə*, mart 2016-cı il, http://www.refworld.org/docid/573592d24.html (bundan sonra belə adlandırılacaq: MRGI, *İraqda didərginlik böhranı*, mart 2016-cı il, http://www.refworld.org/docid/573592d24.html), səh. 22.

[18] "*"İslam Dövləti" qruplaşması ərazidən getdikdən sonra qanun pozuntularının müəyyənləşdirilməsi və ya cəza təyin edilməsi üçün hakimlərin və dövlət strukturlarının çatışmadığı bir şəraitdə əhali tayfa qanunlarına, yəni dövlət məhkəmə sistemi ilə paralel işləyən (və ya ondan üstün tutulan) davranış qaydaları sisteminə qayıdır*"; "Los-Anceles Tayms" qəzeti, *İraqda ailə üzvləri "İslam Dövləti" qruplaşması ilə əlaqəli olanların cəzalandırılması və zorakılıq qurbanlarına kompensasiya ödənilməsi*; 9 oktyabr 2016-cı il, http://fw.to/GRpniPT. "*Bu gün silahlı qruplar cəzasızlıq şəraitində hərəkət edirlər, çünki bir çox ərazilərdə qanunun aliliyi prinsipi iflasa uğrayıb. Didərginlik böhranı ucbatından vilayətlərin hakimiyyət orqanları, məsələn, vilayət şuraları, valilər, merlər və digər qurumlar ya idarəçiliyi kənardan həyata keçirirlər, ya da ümumiyyətlə idarəçilik fəaliyyətinə xitam veriblər. Əl-Ənbar, Diyala, Neynəva və Səlahəddin vilayətlərində bunun müxtəlif dərəcədə təzahürlərini görmək olar*"; MRGI, *İraqda didərginlik böhranı*, mart 2016-cı il, http://www.refworld.org/docid/573592d24.html, səh. 6. Həmçinin bax: Birləşmiş Ştatların Sülh İnstitutu (*USIP*), *İraq: Mosulun ələ keçirilməsi hələ yenicə başlayır*, 17 oktyabr 2016-cı il, http://bit.ly/2e5rcOK; "*Middle East Institute*" təşkilatı, *Növbəti problem: İŞİD-in gedişindən sonra azad edilmiş şəhərlərin idarə olunması*, 28 iyun 2016-cı il, http://bit.ly/2dJ8l9L.

aparırlar.[19] Bundan başqa, məlumatlara əsasən İŞİD-dən geri alınmış ərazilərdə çox zaman evlərin, su, kanalizasiya və elektrik sisteminin, xəstəxanaların, məktəblərin və hökumət idarələrinin xeyli hissəsi dağıdılmış və ya zədələnmiş olur.[20] Təmir işlərini aparmaq səyləri davam edir, amma məlumatlara görə davamlı qeyri-sabitlik, ərazilərin xeyli hissəsində mina və ƏPQ-lərin olması və maliyyə çatışmazlığı çox zaman bu işlərə maneçilik törədir.[21]

7. Məlumatlara görə 2014-cü ildə və 2015-ci ilin müəyyən dövründə İŞİD-in mərkəzi və şimali İraqda irəliləməsi və bunun ardınca ölkənin digər hissələrində təhlükəsizlik sahəsində boşluğun yaranması nəticəsində silahlı könüllülərin və tayfaların mövqeləri zəifləyib, cinayətkarlıq artıb və ümumən ölkədə, o cümlədən paytaxt Bağdadda və cənub vilayətlərində dövlətin nüfuzu və qanunun aliliyi zəifləyib.[22]

***İnsan hüquqlarına dair beynəlxalq normaların və beynəlxalq humanitar hüququn pozuntuları və sui-istifadə halları***

---

[19] "Vaşinqton Post" qəzeti, *"İslam Dövləti" qruplaşmasını Mosuldan çıxarmaq uğrunda savaş hərc-mərcliyə çevrilə bilər*, 12 oktyabr 2016-cı il, http://wpo.st/01f52; "Assoşieyted Press" Agentliyi (*Associated Press*), *Mosul döyüşü artıq şimali İraqın xəritəsini dəyişir*, 27 avqust 2016-cı il, http://apne.ws/2bUrUca; "Monitor" (*Al-Monitor*) elektron nəşri, *Nəyə görə Tuz-Xurmatudakı toqquşmalar sadəcə lokal səviyyəli atışmadan daha artıq olay idi*, 5 may 2016-cı il, http://almon.co/2niv; "Stratfor" mərkəzi, *İraq: "İslam Dövləti" qruplaşmasına qarşı savaşın daxilində mübarizə*, 25 aprel 2016-cı il, http://bit.ly/2ekDbDT; "Vaşinqton Post" qəzeti, *İraqda savaş alovlanır və "İslam Dövləti" qruplaşması onun bir hissəsi deyil*, 24 aprel 2016-cı il, http://wpo.st/YAsW1; BMT-nin Təhlükəsizlik Şurası, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş ikinci məruzəsi*, 26 yanvar 2016-cı il, S/2016/77, http://www.refworld.org/docid/56af0c454.html (bundan sonra belə adlandırılacaq: BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 2-ci məruzəsi*, 26 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56af0c454.html), 18-ci bənd; HRW, *İraq: Etnik savaş mülki şəxslərə təhlükə yaradır*, 13 yanvar 2016-cı il, http://www.refworld.org/docid/5696125e4.html; "Ekurd Deyli" (*Ekurd Daily*) xəbər portalı, *İraqın Sincar rayonunda yezidi döyüşçüləri ilə Kürdüstan Demokratik Partiyasının peşmərgələri arasında toqquşmalar şiddətlənib*, 26 noyabr 2015-ci il, http://bit.ly/1KZLzkL.

[20] OCHA, *Humanitar bülleten: İraq, iyul – avqust 2016-cı il*, 29 avqust 2016-cı il, http://bit.ly/2duUdAQ, səh. 2; "*ABC*" yayım şirkəti, *Dron vasitəsilə çəkilmiş görüntülər "İslam Dövləti" qruplaşmasına qarşı İraqın savaşının dağıntılarını üzə çıxarır*, 5 iyul 2016-cı il, http://ab.co/2d5QngQ; "Assoşieyted Press" Agentliyi, *İraq "İslam Dövləti" qruplaşmasını Ramadidən böyük itiklər bahasına çıxarıb*: *şəhər dağıdılıb*, 5 may 2016-cı il, http://apne.ws/1YavCPW; "Əl-Cəzirə" telekanalı, *BMT: Ramadi İraqın hər hansı digər ərazisindən daha çox dağıdılıb*, 4 mart 2016-cı il, http://aje.io/ms22; "Uol Strit Cornel" (*Wall Street Journal*) qəzeti, *İraq rəsmilərinin qarşısında Ramadinin bərpasından ibarət nəhəng vəzifə durur*, 3 yanvar 2016-cı il, http://on.wsj.com/1R5PyDE; BMT-nin Tədris və Elmi-Tədqiqat İnstitutu (UNITAR) / Peyklərin köməyi ilə öyrənmək və tədqiqatlar aparmaq üzrə BMT İnstitutu (UNOSAT), *Sincar rayonu, Neynəva vilayəti, İraq*: *Sincarın məruz qaldığı ziyanın qiymətləndirilməsi*, 24 dekabr 2015-ci il, http://bit.ly/2dh4rEv; "*International Business Times*" elektron nəşri, *Sincara daxildən baxış: dağıdılmış şəhərin fotoları onun İŞİD-dən azad edilməsinin olduqca baha başa gəldiyini üzə çıxarır*, 17 sentyabr 2015-ci il, http://bit.ly/2dRkZCi; Kürdüstan Regional Hökuməti (KRH)/Daxili İşlər Nazirliyi/Böhranlar üzrə müştərək koordinasiya mərkəzi, *Şinqal şəhərinin məruz qaldığı ziyanın operativ şəkildə qiymətləndirilməsi*, noyabr 2015-ci il, http://bit.ly/1OKtLiA.

[21] "*Musings on Iraq*" bloqu, *İraqın Fəllucə şəhərinə qayıdışlar başlayır*, 29 sentyabr 2016-cı il, http://bit.ly/2dDdm3R; "*Musings on Iraq*" bloqu, *İraqın Əl-Ənbar vilayətində köçkünlərin acınacaqlı durumu*, 11 avqust 2016-cı il, http://bit.ly/2denBL6; "*Financial Times*" qəzeti, *İraqın bərpası imkanları üç istiqamətdə təhlükə altındadır*, 3 aprel, 2016-cı il, http://on.ft.com/2dMpFtF.

[22] "*IHS Jane's 360*" informasiya qrupu, *Bəsrədə əldəqayırma partlayıcı qurğularla hücumların artması İraq hökumətinin tayfaları və bandaları tərksilah etmək iqtidarında olmaması ilə yanaşı təhlükəsizliklə bağlı durumun pisləşdiyini üzə çıxarır*, 23 avqust 2016-cı il, http://bit.ly/2fPZFk0; ABŞ Dövlət Departamenti, *2015: Ölkələr üzrə məruzələr – İraq*, 13 aprel, 2016-cı il, http://www.state.gov/documents/organization/253137.pdf, səh. 6; MRGI, *İraqda didərginlik böhranı*, mart 2016-cı il, http://www.refworld.org/docid/573592d24.html, səh. 25; "Militari Tayms" (*Military Times*) qəzeti, *İraq hökumətinin ordusunda könüllü şiə silahlılarının gücü ilə bağlı qorxular*, 21 mart 2016-cı il, http://bit.ly/2e4PrMY; "İraki Nyus" (*Iraqi News*) agentliyi, *Tayfa münaqişəsi səbəbindən Bəsrənin şimalında silahlı toqquşmalar təzələndi*, 16 fevral 2016-cı il, http://bit.ly/1QTliN7; "Röyters" (*Reuters*) Agentliyi, *İraq qüvvələri tayfa döyüşçülərini tərksilah etmək üçün cənubun neft şəhərinə daxil olur*, 15 yanvar 2016-cı il, http://reut.rs/1UUhx7p; "Assoşieyted Press" Agentliyi, *Ordu İŞİD-lə döyüşməyə getdiyinə görə İraqın Bəsrə şəhərində cinayətkarlıq artıb*, 10 yanvar 2016-cı il, http://ind.pn/1RP4Qv3.

8. Didərginlik hallarının və qurbanların sayının artmasından əlavə, insan hüquqlarına dair beynəlxalq normaların və beynəlxalq humanitar hüququn geniş yayılmış pozuntuları və sui-istifadə halları mülki əhalinin həyatına əhəmiyyətli dərəcədə təsir göstərir. BMT-nin insan hüquqları üzrə orqanları və hüquq müdafiə təşkilatları İraqda qeyri-beynəlxalq silahlı münaqişənin iştirakçısı olan bütün tərəflərin beynəlxalq humanitar hüququn pozuntularını və insan hüquqlarına dair beynəlxalq normalarının kobud pozuntularını törətdiyini və sui-istifadə hallarına yol verdiyini qeydə alıblar.[23]

9. BMT-nin və hüquq müdafiə təşkilatlarının hesabatlarında bildirilir ki, İŞİD mülki əhaliyə qarşı hücumlar edir, onları qətlə yetirir (o cümlədən məhkəməsiz edam edir), oğurlayır, işgəncələrə məruz qoyur, zorlayır və digər formalarda seksual zorakılığa məruz qoyur, seksual kölə halına salır, dinini dəyişməyə məcbur edir və uşaqları öz sıralarına cəlb edir. Bu hərəkətlər hərbi cinayət və insanlıq əleyhinə cinayət sayıla və yezidi dini icması da daxil olmaqla müəyyən icmalara münasibətdə, ola bilsin ki, soyqırım aktı hesab edilə bilər.[24] Məlumatlara görə, ənənəvi olaraq dini və etnik azlıq qruplarının məskunlaşdığı ərazilərin, o cümlədən Mosulun və Neynəva düzənliklərinin xeyli hissəsinin İŞİD tərəfindən işğalı sistematik və geniş miqyaslı zorakılıqlarla və yüz minlərlə insanın misli görünməmiş miqyasda didərgin düşməsi ilə nəticələnib.[25] Hesabatlarda göstərilir ki, İŞİD özünün geniş siyasətinin tərkib hissəsi olaraq etnik və dini azlıq icmalarını hədəfə alıb və almaqda davam edir və bu siyasət onun nəzarəti altında olan ərazilərdə bu icmaları sistematik təzyiq altında saxlamağa, ərazidən çıxarmağa və ya məhv etməyə yönəlib.[26] Məlumatlara əsasən yezidilər, xristianlar, kakailər, kürdlər, sabiyə mandeyləri, şiələr, türkmənlər və şəbəklər İŞİD tərəfindən olduqca qəddar rəftara məruz qalır, o cümlədən edam edilir, oğurlanır, dinlərini dəyişməyə məcbur edilir, zorlanır, kölə halına salınır, nikaha daxil olmağa və aborta məcbur edilir və zorla didərgin salınırlar.[27] Məlumatlara görə, İŞİD-in nəzarəti

---

[23] HRW, *İraq: Yaxınlaşan Mosul döyüşü ilə bağlı əsas narahatlıqlar*, 6 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/57f654446.html; BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 4-cü məruzəsi*, 5 iyul 2016-cı il, http://www.refworld.org/docid/5784de404.html, 34-46-cı bəndlər; ABŞ Dövlət Departamenti, *2015: Ölkələr üzrə məruzələr – İraq*, 13 aprel, 2016-cı il, http://www.state.gov/documents/organization/253137.pdf, səh. 1-2; Beynəlxalq Amnistiya Təşkilatı, *Beynəlxalq Amnistiya Təşkilatının hesabatı, 2015/2016 – İraq*, 24 fevral 2016-cı il, http://www.refworld.org/docid/56d05b4a9.html; UNAMI, *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin müdafiəsinə dair hesabat*, 11 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a09a304.html, səh. i, ii, 8, 20, 31.

[24] UNAMI, *Məsuliyyətə və himayəyə çağırış: İŞİD tərəfindən törədilmiş vəhşiliklərdən sonra sağ qalmış yezidilər*, avqust 2016-cı il, http://www.refworld.org/docid/57b848814.html, səh. 4, 5, 7, 18; BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 4-cü məruzəsi*, 5 iyul 2016-cı il, http://www.refworld.org/docid/5784de404.html, 36-cı bənd; BMT-nin İnsan Hüquqları Şurası, *"Onlar dağıtmaq üçün gəldilər": İŞİD-in yezidilərə qarşı cinayətləri*, 15 iyun 2016-cı il, A/HRC/32/CRP.2, http://www.refworld.org/docid/57679c324.html (bundan sonra belə adlandırılacaq: BMT-nin İnsan Hüquqları Şurası, *İŞİD-in yezidilərə qarşı cinayətləri*, 15 iyun 2016-cı il, http://www.refworld.org/docid/57679c324.html), 202-ci bənd; HRW, *İraq: İŞİD-in bombalı avtomobil hücumları insanlıq əleyhinə cinayətlərdir*, 11 may 2016-cı il, http://www.refworld.org/docid/573430cf4.html; UNAMI, *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin müdafiəsinə dair hesabat*, 11 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a09a304.html, səh. i, 8, 32.

[25] MRGI, *Doğma yurda qayıtmaq mümkün deyil: İraqdakı azlıqlar yoxa çıxma həddindədir*, iyul 2016-cı il, http://www.refworld.org/docid/578351d04.html, səh. 5; BMT-nin İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsi (*CERD*), *İraqın birləşdirilmiş 15-21-ci dövri məruzələrinə dair yekun qeydlər: İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitə*, 22 sentyabr 2014-cü il, CERD/C/IRQ/CO/15-21, http://www.refworld.org/docid/56e7b6824.html, D.d bölməsi.

[26] UNAMI, *Məsuliyyətə və himayəyə çağırış: İŞİD tərəfindən törədilmiş vəhşiliklərdən sonra sağ qalmış yezidilər*, avqust 2016-cı il, http://www.refworld.org/docid/57b848814.html, səh. 5; MRGI, *Doğma yurda qayıtmaq mümkün deyil: İraqdakı azlıqlar yoxa çıxma həddindədir*, iyul 2016-cı il, http://www.refworld.org/docid/578351d04.html; BMT-nin İnsan Hüquqları Şurası, *Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığının "İraq və Şam İslam Dövləti" adlandırılan qruplaşma və onunla əlaqəli qruplar tərəfindən törədilmiş zorakılıqların işığında İraqda insan hüquqlarının vəziyyətinə dair hesabatı*, 13 mart 2015-ci il, A/HRC/28/18, http://www.refworld.org/docid/550ad5814.html, 16-28-ci bəndlər.

[27] ABŞ Dövlət Departamenti, *2015: Ölkələr üzrə məruzələr – İraq*, 13 aprel, 2016-cı il, http://www.state.gov/documents/organization/253137.pdf, səh. 61; UNAMI, *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin müdafiəsinə dair hesabat*, 11 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a09a304.html, səh. i-ii,

altındakı ərazilərdə yaşayan etnik və dini azlıq qruplarının bir çox üzvləri ya öldürülüb, ya oğurlanıb, ya da didərgin salınıblar.[28] Məlumatlara əsasən, bu mətn hazırlandığı zaman çoxusu yezidilərdən ibarət olan bir neçə min qadın və uşaq hələ də İŞİD-in əsarətində qalmaqdadır.[29]

10. Məlumatlarda deyilir ki, İŞİD İraq hökuməti ilə, İTQ və onunla əlaqəli qüvvələrlə əlaqəli olduğu və ya əməkdaşlıq etdiyi hesab edilən şəxsləri sistematik olaraq hədəfə alır.[30] İŞİD-ə müxalif olan və ya müxalif olduğu hesab edilən və İŞİD-in qaydalarını pozan şəxslər, məlumatlara görə, İŞİD-in təyin etdiyi şəriət məhkəmələri tərəfindən prosessual qaydalara riayət edilmədən sərt cəzalandırılmaq riski altındadırlar.[31] Məlumatlarda bildirilir ki, İŞİD-ə qarşı hərbi təzyiq artdığına görə o, keçmiş İTQ üzvlərini və İŞİD qruplaşması üçün vuruşmaq istəməyən kişiləri və oğlanları oğurlayır və edam edir.[32] Həmçinin məlumat verilir ki, İŞİD İTQ-ni dəstəkləməkdə şübhəli bilinənlərin qohumlarını təhdid edir.[33] Məlumatlara görə məhkəməsiz cəzalandırma hallarına, digərləri ilə yanaşı, bunlar daxildir: qurbanın güllələnməsi, başının kəsilməsi, daş-qalaq edilməsi, yandırılması, suda batırılması, bədəninə elektrik cərəyanı buraxılması, hündür binadan aşağı atılması, habelə şallaqlanması, çarmıxa çəkilməsi və əteflarının amputasiyası.[34] Məlumatlara əsasən İŞİD ona məxsus olan saxlama yerlərində çoxlu

---

14-19; BMT-nin Baş Assambleyası, *İraqda insan hüquqlarının təşviqinə və müdafiəsinə kömək etmək üçün göstərilən texniki yardım: Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığının hesabatı*, 27 iyul, 2015-ci il, A/HRC/30/66, http://www.refworld.org/docid/55f7f4c74.html (bundan sonra belə adlandırılacaq: BMT-nin Baş Assambleyası, *Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığının hesabatı*, 27 iyul, 2015-ci il, http://www.refworld.org/docid/55f7f4c74.html), 48-ci bənd.

[28] UNAMI, *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin müdafiəsinə dair hesabat*, 11 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a09a304.html, səh. 19.

[29] UNAMI, *Məsuliyyətə və himayəyə çağırış: İŞİD tərəfindən törədilmiş vəhşiliklərdən sonra sağ qalmış yezidilər*, avqust 2016-cı il, http://www.refworld.org/docid/57b848814.html, səh. 7; BMT-nin İnsan Hüquqları Şurası, *İŞİD-in yezidilərə qarşı cinayətləri*, 15 iyun 2016-cı il, http://www.refworld.org/docid/57679c324.html, 205-ci bənd.

[30] BMTTŞ, *Baş katibin 2299 (2016) saylı qətnaməyə uyğun olaraq təqdim edilmiş məruzəsi*, 25 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5821ca0f4.html, 44-cü bənd; Milli İctimai Radio (*National Public Radio – NPR*), *Mosula hücum şiddətləndikcə müqavimət güclənir və İŞİD daha da qəddarlaşır*, 15 oktyabr 2015-ci il, https://n.pr/2e9ozaf; UNAMI, *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin müdafiəsinə dair hesabat*, 11 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a09a304.html, səh. 11; UNAMI, *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin müdafiəsinə dair hesabat, 11 dekabr 2014-cü il – 30 aprel 2015-ci il*, 13 iyul 2015-ci il, http://www.refworld.org/docid/56a09a304.html, səh. i, 11.

[31] BMTTŞ, *Baş katibin 2299 (2016) saylı qətnaməyə uyğun olaraq təqdim edilmiş məruzəsi*, 25 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5821ca0f4.html, 44-cü bənd; "Fridım Haus" (*Freedom House*) təşkilatı, *Dünyada azadlığın vəziyyəti, 2016-cı il – İraq*, 20 iyun 2016-cı il, http://www.refworld.org/docid/576be00ac.html; HRW, Ümumdünya hesabatı, *2016-cı il – İraq*, 27 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56bd99386.html; UNAMI, *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin müdafiəsinə dair hesabat*, 11 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a09a304.html, səh. 11.

[32] İnsan Hüquqları üzrə Ali Komissarlıq (OHCHR), *İraqda mülki şəxslərin iztirablarının "heyrətamiz" miqyasını nəzərə alaraq Zeyd qurbanların hüquqlarına diqqət yetirməyə çağırır*, 11 noyabr 2016-cı il, https://shar.es/1Iy59i; HRW, *İraq: Qorxuya düşmüş İŞİD "insan sipərlərindən", edamlardan istifadə edir*, 4 noyabr 2016-cı il, http://www.refworld.org/docid/5820826b4.html; OHCHR, *Mosul uğrunda döyüş, İŞİD minlərlə mülki şəxsi evlərindən çıxmağa məcbur etdi və yüzlərlə insanı edam etdi*, 28 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/582084b84.html; BMT-nin xəbərlər mərkəzi (*UN News Centre*), *BMT-nin qaçqınlar üzrə agentliyi mühasirəyə alınmış Fəllucədən qaçıb qurtulan ailələrə yardımları çatdırmağa başlayır*, 27 may 2016-cı il, http://www.refworld.org/docid/574bea4140b.html; *Iraqi News* agentliyi, *İŞİD döyüşlərdə iştirakdan imtina etdiklərinə görə 200 nəfəri həbs etdi, 25 İŞİD döyüşçüsü edam edildi*, 5 may 2016-cı il, http://bit.ly/1STlJTf.

[33] OHCHR, *Mətbuat üçün brifinqdən qeydlər: İraq, Suriya və Səudiyyə Ərəbistanı / Yəmən*, 1 noyabr 2016-cı il, https://shar.es/1I2Nxx.

[34] HRW, *İraq: İŞİD-in hökmranlığı edamlarla, qəddarlıqla əlamətdar oldu*, 10 iyul 2016-cı il, http://www.refworld.org/docid/57836a324.html; UNAMI, *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin müdafiəsinə dair hesabat*, 11 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a09a304.html, səh. 12; BMT-nin İnsan Hüquqları Şurası, *BMT eksperti Təhlükəsizlik Şurasına çağırış etdi: İŞİD tərəfindən insan hüquqlarının pozuntularının nəhəng miqyas almasının qarşısını almaq üçün elə indi hərəkətə keçməli*, 22 iyun 2015-ci il, http://bit.ly/1MO2x5z.

sayda insanları əsir saxlayır və deyilənlərə görə orada işgəncələrdən və qəddar rəftardan geniş şəkildə istifadə olunur.[35]

11. Məlumatlarda bildirilir ki, İŞİD Bağdadda[36] və hökumətin nəzarəti altında olan digər ərazilərdə hərbi və mülki hədəflərə qarşı çoxsaylı və mütəmadi hücumlara görə məsuliyyəti öz üzərinə götürüb və buraya həmçinin içərisinə bomba qoyulmuş avtomobillərin partladılması, intiharçı terror hücumları, yol kənarında bombaların yerləşdirilməsi, qumbara və minaatanlarla hücumlar daxildir.[37] Məlumatlara əsasən bəzi hallarda İŞİD mülki şəxslərin və silahlı qüvvələrin personalının üzərinə içərisində xlor və xardal qazı olan raketlər atıb.[38] Məlumatlarda bildirilir ki, bəzi hücumların hədəfi təhlükəsizlik qüvvələrinin personalı olsa da, digərləri açıq-aydın mülki hədəflərə, o cümlədən məscidlərə, bazarlara, restoranlara, idman meydançalarına və çox zaman

---

[35] OHCHR, *İraqda mülki şəxslərin iztirablarının "heyrətamiz" miqyasını nəzərə alaraq Zeyd qurbanların hüquqlarına diqqət yetirməyə çağırır*, 11 noyabr 2016-cı il, https://shar.es/1Iy59i; HRW, *İraq: İŞİD-in hökmranlığı edamlarla, qəddarlıqla əlamətdar oldu*, 10 iyul 2016-cı il, http://www.refworld.org/docid/57836a324.html; ABŞ Dövlət Departamenti, *2015: Ölkələr üzrə məruzələr – İraq*, 13 aprel, 2016-cı il, http://www.state.gov/documents/organization/253137.pdf, səh. 8, 25; "Nyu-York Tayms" qəzeti, *İŞD-in əsirləri söyləyirlər ki, xilas gələnə qədər edamın bir addımlığında idilər*, 27 oktyabr 2015-ci il, http://nyti.ms/1LX9yRO.

[36] İŞİD-in Bağdada girişinin qarşısını almaq üçün hökumət tərəfindən görülmüş ciddi təhlükəsizlik tədbirlərinə baxmayaraq, həm şəhər, həm də şəhərətrafı ərazilər kütləvi itkilərə səbəb olan, çox zaman sünni mülki şəxslərə və bəzən də başqalarına qarşı yönələn hücumların mərkəzi hədəfi olaraq qalır. Lakin bu hücumların təsirinə mənşəyindən asılı olmayaraq bütün mülki şəxslər məruz qalırlar, belə ki, Bağdadda bu cür zorakılıqlara şahidlik etməyən hər hansı ərazi tapmaq çətindir; ABŞ Dövlət Departamenti, *2015: Ölkələr üzrə məruzələr – İraq*, 13 aprel, 2016-cı il, http://www.state.gov/documents/organization/253137.pdf, səh. 4, 25; "*The National*" qəzeti, *İŞİD-in qiyamının dəyişkən xarakterinin deşifrə edilməsi*, 7 mart 2016-cı il, http://bit.ly/1nvvzBc; BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 2-ci məruzəsi*, 26 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56af0c454.html, 21-ci bənd; UNAMI, *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin müdafiəsinə dair hesabat*, 11 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a09a304.html, səh. 29.

[37] BMTTŞ, *Baş katibin 2299 (2016) saylı qətnaməyə uyğun olaraq təqdim edilmiş məruzəsi*, 25 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5821ca0f4.html, http://www.refworld.org/docid/5821ca0f4.html, 42, 45-ci bəndlər. 2016-cı ilin iyulundan bəri baş vermiş hücumlar barədə məlumat üçün, məsələn, bu mənbəyə bax: BBC, *İraqda intiharçı terror hücumları: bunun üçün Tikritdə və Samarrada təcili yardım maşınlarından istifadə edilib*, 6 noyabr 2016-cı il, http://bbc.in/2fQfGWY; *PBS* xəbər proqramı, *İraq Mosulu İŞİD-dən geri almaq üçün vuruşarkən Bağdadda bomba partlayışı 17 nəfəri öldürdü*, 30 oktyabr 2016-cı il, http://to.pbs.org/2e5CxgG; "Röyters" agentliyi, *İraq qüvvələri Mosula doğru irəliləyərkən "İslam Dövləti" qruplaşması Kərkükə hücum etdi*, 21 oktyabr 2016-cı il, http://reut.rs/2edN3DX; "Röyters" agentliyi, *Polisin məlumatına görə İraqda intiharçı bomba partlayışları və atışmalar 55-ə yaxın insanı öldürdü*, 15 oktyabr 2016-cı il, http://reut.rs/2ehMULm; "Assoşieyted Press" agentliyi, *İraqda hücumlar azı 16 nəfəri öldürdü*, 4 oktyabr 2016-cı il, https://shar.es/1EcBqd; "Assoşieyted Press" agentliyi, *İraq: Bağdadda İŞİD-in bombaları azı 17 mülki şəxsi öldürdü*, 27 sentyabr 2016-cı il, http://www.cbc.ca/1.3780289; "Röyters" agentliyi, *İraqın Tikrit şəhərinin şimalında "İslam Dövləti" qruplaşmasının hücumu zamanı on səkkiz nəfər öldü*, 24 sentyabr 2016-cı il, http://reut.rs/2d7YvOW; "Röyters" agentliyi, *İntiharçının həyata keçirdiyi qoşa bomba partlayışı "Baghdad Mall" ticarət mərkəzində 12 nəfəri öldürdü*, 10 sentyabr 2016-cı il, http://reut.rs/2cJtNJd; *Bombalı avtomobil partlayışının hədəfi Bağdadda alış-veriş edənlər oldu*, 6 sentyabr 2016-cı il, http://bbc.in/2cFZBmn; "Əl-Cəzirə" telekanalı, *İntiharçı bomba hücumu İraqda Kərbəla yaxınlığında 18 nəfəri öldürdü*, 29 avqust 2016-cı il, http://aje.io/swgb; BBC, *İraqın Xalis şəhərində bombalı avtomobil partlayışı 17 nəfəri öldürdü, hücuma görə məsuliyyəti "İslam Dövləti" qruplaşması öz üzərinə götürdü*, 25 iyul 2016-cı il, http://bbc.in/2aF8tDG; "Assoşieyted Press" agentliyi, *İSİD Bağdadda azı 14 nəfəri qətlə yetirmiş intiharçı bomba partlayışına görə məsuliyyəti öz üzərinə götürdü*, 24 iyul 2016-cı il, http://fxn.ws/2a9FZVm; CNN agentliyi, *İlin ən çox ölümlə nəticələnmiş partlayışından həftələr keçdikdən sonra Bağdadda intiharçı bomba partlayışı 21 nəfəri öldürdü*, 21 iyul 2016-cı il, http://cnn.it/2a27PQP; BBC, *İraqdakı müqəddəs ziyarətgaha hücum: "İslam Dövləti" qruplaşması Balad şəhərində onlarla insanı öldürdü*, 8 iyul 2016-cı il, http://bbc.in/29mdRtj; "*The Independent*" qəzeti, *Bağdadda bomba partlayışı: İŞİD-in bombalı avtomobil partlayışında ölənlərin sayı artaraq 300-ə yaxınlaşıb*, 8 iyul 2016-cı il, http://ind.pn/29u7h8o.

[38] BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 4-cü məruzəsi*, 5 iyul 2016-cı il, http://www.refworld.org/docid/5784de404.html, 38-ci bənd; BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 3-cü məruzəsi*, 27 aprel 2016-cı il, http://www.refworld.org/docid/5731a1a14.html, 46-cı bənd; "*Vice News*" onlayn kanalı, *Tazaya daxildən baxış: "İslam Dövləti" qruplaşması İraqın bu şəhərinə zəhərli qaz buraxdı*, 16 mart 2016-cı il, http://bit.ly/29BzLec.

şiələrin çoxluq təşkil etdiyi ətraf ərazilərə və ya şəhərlərə yönəlmiş olur.[39] Məlumatlara əsasən ərazi itkiləri ilə əlaqədar olaraq İŞİD hökumətin və ya KRH-nin əlində olan ərazilərdə mülki şəxslərə qarşı hücumlarını bərpa edib.[40]

12. BMT və hüquq müdafiə təşkilatları İTQ və onunla əlaqəli qüvvələr tərəfindən törədildiyi güman edilən beynəlxalq humanitar hüququn və insan hüquqlarına dair beynəlxalq normaların pozuntularını da qeydə alıblar. Müstəqil müşahidəçilər qeyd edirlər ki, bəzi hallarda hərbi əməliyyatlar, o cümlədən İŞİD-ə aid olduğu güman edilən şübhəli hədəflərə endirilən hava və artilleriya zərbələri fərqləndirmə və mütənasiblik prinsiplərini, habelə zor tətbiqinin nəticələrindən mülki şəxsləri müdafiə etmək üçün ehtiyatlı davranmaq öhdəliyini poza bilər.[41]

13. İTQ və onunla əlaqəli qüvvələrin üzvləri həmçinin sünni ərəb və sünni türkmənlərdən ibarət mülki əhaliyə, o cümlədən zorakılıqlardan qaçan mülki şəxslərə, məcburi köçkünlərə və öz yurdlarına qayıdanlara münasibətdə İŞİD-i dəstəklədiklərinə və ya onunla əməkdaşlıq etdiklərinə və ya bunda şübhəli bilindiklərinə görə hüquq pozuntularına yol veriblər. Barəsində məlumat verilən pozuntular sırasına bunlar daxildir: qurbanın özbaşına həbs edilməsi və oğurlanması, zorla yoxa çıxarılması, fiziki zorakılığa məruz qalması, məhkəməsiz qətlə yetirilməsi və zorla didərgin salınması. İŞİD-dən geri alınan ərazilərdə evlərin, dükanların və məscidlərin talan edildiyi, qəsdən yandırıldığı və dağıdıldığı barədə məlumat verilir.[42] Məlumatlara əsasən, terror fəaliyyətlərində ailə üzvlərinin iştirakı iddia olunan qadınlar İTQ tərəfindən həbsə alınırlar.[43]

---

[39] *Global Centre R2P*, "*R2P Monitor*" bülleteni, 29-cu buraxılış, 15 sentyabr 2016-cı il, http://bit.ly/2cJaAK4, səh. 5; ABŞ Dövlət Departamenti, *2015: Ölkələr üzrə məruzələr – İraq*, 13 aprel, 2016-cı il, http://www.state.gov/documents/organization/253137.pdf, səh. 4.

[40] Məsələn, məlumatlara əsasən, 21 oktyabr 2016-cı ildə İŞİD diqqəti Mosuldan yayındırmaq üçün Kərkük və Dibis şəhərlərində (Kərkük vilayəti) geniş hücum əməliyyatları həyata keçirdi. Məlumatlara görə bu hücum 100-ə yaxın insanın ölmünə və 200-dən artıq insanın yaralanmasına səbəb oldu; "*Musings on Iraq*" bloqu, *2016-cı ilin oktyabrında İraqda 5.198 nəfər ölüb və yaralanıb*, 29 sentyabr 2016-cı il, 2 noyabr 2016-cı il, http://bit.ly/2fHvA5P; "Nyu-York Tayms" qəzeti, *İŞİD-in strategiyasının açarı döyüşçülərin Kərkükdə qalmış cəsədlərində və mobil telefonlarında axtarılır*, 29 oktyabr 2016-cı il, http://nyti.ms/2dYcqU7; *ISW, Mosul uğrunda hücum kampaniyası: Kərkükdə İŞİD-in əks-hücumları, 21 oktyabr 2016-cı il,* 21 oktyabr 2016-cı il, http://bit.ly/2eDeJwN. Həmçinin bax: "Röyters" agentliyi, *Rəsmilərin məlumatına görə İraqda təcili yardım maşınlarındakı intiharçı bombalar 21 nəfəri öldürdü*, 6 noyabr 2016-cı il, http://reut.rs/2eBj0Dm; BMTTŞ, *Baş katibin 2299 (2016) saylı qətnaməyə uyğun olaraq təqdim edilmiş məruzəsi*, 25 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5821ca0f4.html, 15-ci bənd; "Assoşieyted Press" agentliyi, *Mosulda təhdidlə üzləşən "İslam Dövləti" qruplaşması alternativ taktikadan istifadə edir*, 25 oktyabr 2015-ci il, http://fxn.ws/2faRdez; AFP, *İraqın Mosul şəhərinə doğru irəliləyiş saysız-hesabsız problemlərlə üzləşir*, 23 sentyabr 2016-cı il, http://bit.ly/2dgR5FW.

[41] Amerika Birləşmiş Ştatları hökuməti, *İraq və Suriyada mülki şəxslər arasında itkilərin qiymətləndirilməsi*, 9 noyabr 2016-cı il, http://bit.ly/2fMy1A3; OHCHR, *Mətbuat üçün brifinqdən qeydlər: İraq,* 4 noyabr 2016-cı il, https://shar.es/1IcfYo; BMTTŞ, *Baş katibin 2299 (2016) saylı qətnaməyə uyğun olaraq təqdim edilmiş məruzəsi*, 25 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5821ca0f4.html, 48-ci bənd; Beynəlxalq Amnistiya Təşkilatı, *Beynəlxalq Amnistiya Təşkilatının hesabatı, 2015/2016 – İraq*, 24 fevral 2016-cı il, http://www.refworld.org/docid/56d05b4a9.html; UNAMI, *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin müdafiəsinə dair hesabat*, 11 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a09a304.html, səh. 23-26. MRGI, *2014-2015-ci illərdə İŞİD-ə qarşı bombardman kampaniyalarında mülki şəxslər arasında ölüm halları*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/57fb90e04.html. Mülki şəxslər arasında qeydə alınmış itkilərlə bağlı bax: *Aviasiya müharibəsi, mülki şəxslər arasında itkilər və "müttəfiqlərin zərbələri" nəticəsində itkilər*, 13 noyabr 2016-cı illədək olan informasiya, https://airwars.org/civilian-casualty-claims/.

[42] *"Ərazinin "İslam Dövləti" qruplaşmasından geri alınması sünni icmalara qarşı qisas hücumları ilə müşayiət olunur, çox zaman belə hesab edilir ki, onlar kollektiv şəkildə "İslam Dövləti" qruplaşmasına dəstək verir və ya onunla əməkdaşlıq edirlər, XSB-nin könüllü dəstələri və bəzi hallarda təhlükəsizlik qüvvələri "İslam Dövləti" qruplaşması tərəfindən törədilmiş dəhşətli cinayətlərə görə açıq-aydın qisas almaq üçün tamamilə cəzasız qalmaqla yüzlərlə sünni kişini zor tətbiq edərək yoxa çıxarıblar, onlara işgəncələr veriblər və sünni icmalarını yurdlarından zorla didərgin salmaq və ya münaqişədən qaçmış sünni məcburi köçkünlərin evlərinə qayıtmalarının qarşısını almaq üçün həmin cinayətlərdən bəhanə kimi istifadə ediblər"*; Beynəlxalq Amnistiya Təşkilatı, *"DAİŞ-in cinayətlərinə görə cəzalandırılanlar" – didərgin düşmüş iraqlılar könüllü dəstələr və hökumət qüvvələri tərəfindən sui-istifadə hallarına məruz qalırlar*, 18 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5806051a4.html (bundan sonra belə adlandırılacaq: Beynəlxalq Amnistiya Təşkilatı, *Didərgin düşmüş iraqlılar könüllü dəstələr və hökumət qüvvələri tərəfindən sui-istifadə hallarına məruz qalırlar,* 18 oktyabr 2016-cı il,

14. Hazırkı münaqişə ucbatından qadınların və qızların durumu kəskin şəkildə pisləşib.[44] İŞİD-in nəzarətində olan ərazilərdə dini və etnik azlıq qruplarına mənsub olan qadınların və qızların və xüsusilə yezidi qadın və qızların oğurlanması, zorlanması, nikaha daxil olmağa və aborta məcbur edilməsi və qətlə yetirilməsi halları barədə məlumat verilir.[45] BMT-nin Təhlükəsizlik Şurası İŞİD tərəfindən "*müharibə taktikası*" qismində seksual zorakılıqdan istifadəni pisləyib.[46] İŞİD-in əlində olan ərazilərdə qadınlar və qızlar ictimai həyatda iştirakdan əhəmiyyətli dərəcədə kənarlaşdırılır, kişi himayədarının müşayiəti olmadan evdən bayıra çıxmalarına icazə verilmir və ciddi geyim və mənəviyyat qaydalarına riayət etməyə məcbur edilirlər. Məlumatlara görə qaydaların pozulması sərt cəzalarla, o cümlədən qadının və ya kişi himayədarının cərimələnməsi, döyülməsi, işgəncəyə məruz qalması və edam edilməsi ilə nəticələnir.[47] Məlumatlara əsasən, qadınlar və onların arasında xüsusən təhsillilər və həkim və vəkil kimi peşə sahibi olanlar və seçkilərdə namizəd olanlar, İŞİD tərəfindən həbsə alınır, işgəncələrə məruz qalır və edam edilirlər.[48]

---

http://www.refworld.org/docid/5806051a4.html), səh. 17. Aşağıda bu bölmələrə bax: "*İŞİD-in əlində olan ərazilərdən İraqın digər ərazilərinə qaçan mülki şəxslərlə rəftar*", "*Əvvəllər İŞİD-in nəzarəti altında olmuş ərazilərdə mülki şəxslərlə rəftar*" və "*Əvvəllər İŞİD-in nəzarətində olmuş və ya hazırda nəzarət etdiyi ərazilərdən olan mülki şəxslərlə hazırda mərkəzi hökumətin və ya KRH-nin nəzarətində olan ərazilərdə rəftar*".

[43] Kişi qohumları barəsində məlumat verə bilməyən və ya vermək istəməyən qadınlar, məlumatlara əsasən, "*terror fəaliyyətlərini gizlədən*" şəxslər hesab olunurlar; BMT-nin İşgəncələrə qarşı Komitəsi, *İraqın ilkin məruzəsinə dair yekun qeydlər: İşgəncələrə qarşı Komitə,* 7 sentyabr 2015-ci il, CAT/C/IRQ/CO/1, http://www.refworld.org/docid/57a9c1a24.html (bundan sonra belə adlandırılacaq: BMT-nin İşgəncələrə qarşı Komitəsi, *İraqın ilkin məruzəsinə dair yekun qeydlər:* 7 sentyabr 2015-ci il, http://www.refworld.org/docid/57a9c1a24.html), 15-ci bənd; MRGI, *Üz tutmağa heç bir yer yoxdur: İraq münaqişəsində qadınlara qarşı zorakılıqlar*, fevral 2015-ci il, http://www.refworld.org/docid/55b610224.html (bundan sonra belə adlandırılacaq: MRGI, *İraq münaqişəsində qadınlara qarşı zorakılıqlar*, fevral 2015-ci il, http://www.refworld.org/docid/55b610224.html), səh. 23; HRW, *"Heç kim təhlükədən kənarda deyil" – İraqın cinayət ədliyyəsi sistemində qadınlara qarşı sui-istifadə halları,* 6 fevral 2014-cü il, http://www.refworld.org/docid/52f4d10a4.html, səh. 7, 19-20.

[44] *"Qadınlar münaqişə tərəflərinin hamısı tərəfindən təhdid edilirlər: silahlı qruplar onları hədələyir, qətlə yetirir və zorlayır; əksəriyyəti kişilərdən ibarət olan təhlükəsizlik və polis qüvvələri onları himayə etmir və çox zaman onlara qarşı zorakılıqların iştirakçısı olur; cinayətkar qruplar isə onların ümidsiz durumundan yararlanmağa çalışırlar"*; MRGI, *İraq münaqişəsində qadınlara qarşı zorakılıqlar*, fevral 2015-ci il, http://www.refworld.org/docid/55b610224.html, səh. 5.

[45] BMT-nin İşgəncələrə qarşı Komitəsi bildirib ki, İŞİD *"dini və etnik azlıqlara mənsub olan qadınlara və qızlara münasibətdə seksual zorakılıq, köləlik, adam oğurluğu və insan alveri ənənəsini formalaşdırıb"*; BMT-nin İşgəncələrə qarşı Komitəsi, *İraqın ilkin məruzəsinə dair yekun qeydlər: İşgəncələrə qarşı Komitə,* 7 sentyabr 2015-ci il, http://www.refworld.org/docid/57a9c1a24.html, 13-cü bənd. Həmçinin bax: BMT-nin İnsan Hüquqları Şurası, *İŞİD-in yezidilərə qarşı cinayətləri*, 15 iyun 2016-cı il, http://www.refworld.org/docid/57679c324.html, 42-75-ci bəndlər; ABŞ Dövlət Departamenti, *İnsan alverinə dair 2016-cı il hesabatı: İraq,* 30 iyun 2016-cı il, http://www.refworld.org/docid/577f95f5e.html; HRW, *İraq: Qadınlar İŞİD-in hökmranlığı altında əziyyət çəkirlər,* 5 aprel 2016-cı il, http://www.refworld.org/docid/5704bb144.html; UNAMI, *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin müdafiəsinə dair hesabat,* 11 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a09a304.html, səh. 17-18.

[46] BMT-nin xəbərlər mərkəzi, *Təhlükəsizlik Şurası İraq və Suriyada "müharibə taktikası" qismində seksual zorakılıqdan istifadəni pisləyir,* 28 avqust 2015-ci il, http://www.refworld.org/docid/55e4017840c.html.

[47] HRW, *İraq: İŞİD-in hökmranlığı edamlarla, qəddarlıqla əlamətdar oldu,* 10 iyul 2016-cı il, http://www.refworld.org/docid/57836a324.html; HRW, *İraq: Qadınlar İŞİD-in hökmranlığı altında əziyyət çəkirlər,* 5 aprel 2016-cı il, http://www.refworld.org/docid/5704bb144.html; "Fridım Haus" təşkilatı, *Dünyada azadlığın vəziyyəti, 2016-cı il – İraq,* 20 iyun 2016-cı il, http://www.refworld.org/docid/576be00ac.html; BMT-nin Baş Assambleyası, *BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının hesabatı,* 27 iyul 2015-ci il, http://www.refworld.org/docid/55f7f4c74.html, 31-ci bənd; MRGI, *İraq münaqişəsində qadınlara qarşı zorakılıqlar,* fevral 2015-ci il, http://www.refworld.org/docid/55b610224.html, səh. 16.

[48] İraq Milli Xəbər Agentliyi (*NINA*), *Neynəvadakı mənbələr: İŞİD Mosulu nəzarəti altına alandan bəri 800-dən artıq qadını edam edib,* 26 dekabr 2015-ci il, http://bit.ly/1VEjaXV; "Kvinna till Kvinna" Fondu, *İraqda qadınlara qarşı zorakılıqlar,* 21 dekabr 2015-ci il, http://bit.ly/1TFlwrw, səh. 1; UNAMI, *BMT-nin fəaliyyətdə olan səfiri Mosulda parlament üzvlüyünə namizəd olan qadınların İŞİD tərəfindən qətlə yetirilməsini qətiyyətlə pisləyir,* 22 avqust 2015-ci il, https://shar.es/1vyJLy; BMT-nin Baş Assambleyası, *BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının hesabatı,* 27 iyul 2015-ci il, http://www.refworld.org/docid/55f7f4c74.html, 32-ci bənd; MRGI, *İraq*

15. İraq dünyada uşaqlar üçün ən təhlükəli yerlərdən biri hesab olunur[49] və məlumatlara görə burada uşaqların qətlə yetirilməsi və şikəst edilməsi uşaqlara qarşı zorakılığın ən çox yayılmış formalarıdır.[50] Məlumatlara əsasən uşaqlara qarşı geniş yayılmış zorakılıq hallarına, o cümlədən onların oğurlanmasına, fiziki zorakılıqlara, seksual zorakılığa məruz qalmasına, döyüşçülər sırasına cəlb olunmasına, bədən cəzası almasına və edam edilməsinə görə İŞİD məsuliyyət daşıyır.[51] Həmçinin məlumat verilir ki, İŞİD-ə qarşı vuruşan silahlı qruplar, o cümlədən xalq səfərbərlik bölmələri (XSB-lər), sünni tayfa qrupları, Kürd Fəhlə Partiyası və digər silahlı kürd qrupları, habelə türkmənlərin və yezidilərin özünümüdafiə qrupları uşaqlardan yardımçı və ya döyüşçü funksiyalarının yerinə yetirilməsi üçün istifadə edirlər.[52] Uşaqlar həmçinin hərbi əməliyyatlar nəticəsində yaralanır və ya həlak olur və məlumatlara əsasən pisləşən humanitar şəraitin təsirinə qeyri-mütənasib dərəcədə məruz qalırlar.[53] BMT-nin Uşaq Fondunun (YUNİSEF) məlumatına görə, İraqda azı 3,6 milyon uşaq və ya hər beş uşaqdan biri ciddi surətdə ölüm, xəsarət, seksual zorakılıq, oğurlanma və silahlı qrupların sırasına cəlb olunma riski altındadır.[54] "Uşaqların Xilası" (*Save the Children*) təşkilatının məlumatına əsasən, Mosul şəhərinə hücum, əgər təhlükəsiz çıxış marşrutları müəyyənləşdirilməsə və digər qoruyucu tədbirlər görülməsə, 600.000-dən artıq uşağın atəş xətti zonasına düşməsi təhlükəsini yaratmış olacaq.[55]

16. Məlumatlara əsasən sayca çox olan və sayları getdikcə daha da artmaqda olan uşaqlar terrorizmlə əlaqədar ittihamlar əsasında özbaşına həbs olunur və müvafiq olaraq, İraq hökumətinin və KRH orqanlarının həbs yerlərində, polis bölmələrində və islah mərkəzlərində

---

*münaqişəsində qadınlara qarşı zorakılıqlar*, fevral 2015-ci il, http://www.refworld.org/docid/55b610224.html, səh. 17.

[49] BMT-nin Uşaq Fondu (YUNİSEF), *İraq böhranı: hazırda 3,6 milyon uşaq artmaqda olan zorakılıqlar ucbatından risk altındadır*, 30 iyun 2016-cı il, http://uni.cf/29bp84U.

[50] BMTTŞ, BMTTŞ, *Baş katibin 2299 (2016) saylı qətnaməyə uyğun olaraq təqdim edilmiş məruzəsi*, 25 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5821ca0f4.html, 51-ci bənd; BMT-nin Baş katibi, *Uşaqlar və silahlı münaqişə: Baş katibin məruzəsi*, 20 aprel 2016-cı il, A/70/836–S/2016/360, http://www.refworld.org/docid/575535f04.html (bundan sonra belə adlandırılacaq: BMT-nin Baş katibi, *Uşaqlar və silahlı münaqişə: Baş katibin məruzəsi*, 20 aprel 2016-cı il, http://www.refworld.org/docid/575535f04.html), 61-ci bənd.

[51] ABŞ Dövlət Departamenti, *İnsan alverinə dair 2016-cı il hesabatı: İraq*, 30 iyun 2016-cı il, http://www.refworld.org/docid/577f95f5e.html; BMT-nin İnsan Hüquqları Şurası, *İŞİD-in yezidilərə qarşı cinayətləri*, 15 iyun 2016-cı il, http://www.refworld.org/docid/57679c324.html; 90-97-ci bəndlər; YUNİSEF, *Münaqişə uşaqlara baha başa gəlir: İraqda zorakılıqlar uşaqlıq dövrünü məhv edir*, iyun 2016-cı il, http://www.refworld.org/docid/577665304.html (bundan sonra belə adlandırılacaq: YUNİSEF, *İraqda zorakılıqlar uşaqlıq dövrünü məhv edir*, iyun 2016-cı il, http://www.refworld.org/docid/577665304.html), səh. 5; BMT-nin Baş katibi, *Uşaqlar və silahlı münaqişə: Baş katibin məruzəsi*, 20 aprel 2016-cı il, http://www.refworld.org/docid/575535f04.html, 59 və 65-ci bəndlər; UNAMI, *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin müdafiəsinə dair hesabat*, 11 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a09a304.html, səh. 13, 14, 18-19.

[52] HRW, *Könüllü dəstələr uşaqları öz sıralarına cəlb edirlər*, 30 avqust 2016-cı il, http://www.refworld.org/docid/57c57bdb4.html; ABŞ Dövlət Departamenti, *İnsan alverinə dair 2016-cı il hesabatı: İraq*, 30 iyun 2016-cı il, http://www.refworld.org/docid/577f95f5e.html; BMT-nin Baş katibi, *Uşaqlar və İraqda silahlı münaqişə ilə əlaqədar Baş katibin məruzəsi*, 20 aprel 2016-cı il, http://www.refworld.org/docid/575535f04.html, 59-cu bənd; BMT-nin Təhlükəsizlik Şurası, *Baş katibin məruzəsi: İrada uşaqlar və silahlı münaqişə*, 9 noyabr 2015-ci il, S/2015/852, http://www.refworld.org/docid/565fe2094.html, 35 və 37-ci bəndlər.

[53] Hesab edilir ki, təxminən 4,7 milyon uşağın və ya İraqdakı bütün uşaqların üçdə birinin humanitar yardıma ehtiyacı var; YUNİSEF, *İraqda zorakılıqlar uşaqlıq dövrünü məhv edir*, iyun 2016-cı il, http://www.refworld.org/docid/577665304.html, səh. 5.

[54] Bu, 2015-ci ilin əvvəlindən bəri bu cür uşaqların sayında 1,3 milyon nəfər artım deməkdir; YUNİSEF, *İraqda zorakılıqlar uşaqlıq dövrünü məhv edir*, iyun 2016-cı il, http://www.refworld.org/docid/577665304.html, səh. 5.

[55] "Uşaqların Xilası" təşkilatı, *Mosula gözlənilən hücum 600.000 uşağı atəş xəttində təhlükə altında qoyacaq*, 6 oktyabr 2016-cı il, http://bit.ly/2dep4Bg.

ətraf aləmdən tam təcrid olunmuş halda saxlanılır və bəzən uzun müddət orada qalırlar.[56] Məlumatlara görə uşaqlar həmçinin terror aktlarında şübhəli bilinən qohumlarının əvəzinə həbsə alınırlar.[57]

17. İŞİD-in faktiki nəzarəti altında olan İraq ərazilərində bu qruplaşma, məlumatlara əsasən, sərt formada şərh etdiyi şəriət qanunlarını tətbiq edir, belə ki, kişilər arasında hər iki tərəfin qarşılıqlı razılığı əsasında baş verən cinsi əlaqə bu qanunlara zidd sayılır və ölümlə cəzalandırılır.[58] Məlumatlara görə zorakılıqların artması və bununla əlaqədar olaraq silahlı qeyri-dövlət subyektlərinin güclənməsi İraqın digər hissələrində seksual oriyentasiyası və (və ya) cinsi identikliyi fərqli olan şəxslərin əlverişsiz durumunu daha da mürəkkəbləşdirib və uşaqlar da daxil olmaqla bu cür şəxslər[59] çox zaman müxtəlif dövlət və qeyri-dövlət subyektlərinin, o cümlədən öz ailə üzvlərinin və digər yaxın qohumlarının, bütövlükdə cəmiyyətin, dövlət orqanlarının, habelə müxtəlif silahlı qrupların əlində çoxsaylı zorakılıq formalarına məruz qalırlar.[60]

***İŞİD-in əlində olan ərazilərdən İraqın digər ərazilərinə qaçan mülki şəxslərlə rəftar***

18. İTQ və onunla əlaqəli qruplar əraziləri geri alaraq irəlilədikcə Mosuldan və İŞİD-in əlində olan digər ərazilərdən qaçan mülki şəxslərə qarşı rəftarla əlaqədar olaraq hüquq müdafiə təşkilatları və müşahidəçilər dərin narahatlıqlarını ifadə ediblər.[61] Məlumatlara əsasən, İŞİD

[56] HRW, *Milli təhlükəsizliyi təhdid edən şəxs qismində həbsdə saxlanılan uşaqlara qarşı sui-istifadə halları*, 28 iyul 2016-cı il, http://www.refworld.org/docid/57a9af7c4.html; BMT-nin baş katibi, *Uşaqlar və silahlı münaqişə: Baş katibin məruzəsi*, 20 aprel 2016-cı il, http://www.refworld.org/docid/575535f04.html, 60-cı bənd; ABŞ Dövlət Departamenti, *2015: Ölkələr üzrə məruzələr – İraq*, 13 aprel, 2016-cı il, http://www.state.gov/documents/organization/253137.pdf, səh. 59; BMT-nin Uşaq Hüquqları Komitəsi (UHK), *İraqın birləşdirilmiş 2-4-cü dövri məruzələrinə dair yekun qeydlər*, 3 mart 2015-ci il, CRC/C/IRQ/CO/2-4, http://www.refworld.org/docid/562de4494.html, 86-cı bənd.

[57] Məlumatlara əsasən mərkəzi hakimiyyət orqanları tərəfindən uşaqlar "*terror fəaliyyətlərini gizlətməkdə*" ittiham edilirlər; HRW, *Milli təhlükəsizliyi təhdid edən şəxs qismində həbsdə saxlanılan uşaqlara qarşı sui-istifadə halları*, 28 iyul 2016-cı il, http://www.refworld.org/docid/57a9af7c4.html.

[58] Məlumatlara əsasən eyni cinsdən olan şəxslə cinsi əlaqədə olmaqda təqsirləndirilən kişilərə verilən cəzalara bunlar daxildir: təqsirləndirilən şəxslərin diri-diri yandırılması, başının kəsilməsi, daşqalaq edilməsi, güllələnməsi və ya hündür binalardan yerə atılması; "*OutRight Action International*" beynəlxalq təşkilatı, *İddia edilən uşaqbazlıq əməlinə görə "İslam Dövləti" yaraqlıları tərəfindən həyata keçirilən ictimai edamların xronologiyası*, 9 sentyabr 2016-cı il, http://bit.ly/1TkMgK7; Yaxın Şərq Siyasəti üzrə Vaşinqton İnstitutu, *"İslam Dövləti" qruplaşmasının homoseksuallıqla bağlı baxışları*, 14 iyun 2016-cı il, http://bit.ly/28PyQFJ; BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 2-ci məruzəsi*, 26 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56af0c454.html, 49-cu bənd; UNAMI, *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin müdafiəsinə dair hesabat*, 11 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a09a304.html; Yaxın Şərq Media Tədqiqatları İnstitutu (*MEMRI*), *Ərəb kütləvi informasiya vasitələrində, o cümlədən "Əl-Cəzirə" telekanalında və "Hamas"a məxsus "Əl-Əqsa TV" kanalında nüfuzlu islam ilahiyyatçılarının və alimlərinin aparıcı şəriət qanunlarına verdikləri izaha uyğun olaraq İŞİD-in homoseksualları daşqalaq etməklə, güllələməklə, damdan atmaqla və ictimaiyyət qarşısında işgəncə verməklə edam etmək kampaniyası*, 10 mart 2015-ci il, http://bit.ly/1xcVH2O.

[59] "Haaretz" qəzeti, *İnternet saytı İraqın təqib olunan LGBT icması üçün sığınacaq təklif edir*, 28 sentyabr 2015-ci il, http://bit.ly/1jALD2L; UHK, *İraqın birləşdirilmiş 2-4-cü dövri məruzələrinə dair yekun qeydlər*, 3 mart 2015-ci il, CRC/C/IRQ/CO/2-4, http://www.refworld.org/docid/562de4494.html, 27-ci bənd.

[60] *"Lesbiyanlara, geylərə, biseksuallara, transgenderlərə və interseksuallara hücumlar silahlı qruplar tərəfindən "mənəviyyatın təmizlənməsi" forması kimi həyata keçirilir"*; BMT-nin Baş katibi, *Münaqişə ilə bağlı seksual zorakılıqlar: Baş katibin məruzəsi*, 23 mart 2015-ci il, S/2015/203, http://www.refworld.org/docid/5536100a4.html, 30-cu bənd. Həmçinin bax: "*Washington Blade*" qəzeti, *Yaraqlılar iraqlı gey kişiləri şirnikləndirmək və qətlə yetirmək üçün sosial mediadan istifadə edirlər*, 24 sentyabr 2016-cı il, http://bit.ly/2dEOMSw; "Caabu" (fəaliyyətləri Böyük Britaniya tərəfindən ərəb dünyasının daha yaxşı dərk edilməsinə yönələn qrup), *"Caabu" İraqın ilk LGBT hərəkatı olan "IraQueer"-in təsisçisi Əmir Aşurla görüş təşkil edir*, 28 iyun 206-cı il, http://bit.ly/29eT5vL.

[61] Beynəlxalq Amnistiya Təşkilatı, *İraq: Mosul uğrunda döyüş zamanı uşaqların təhlükəsizliyi ilə bağlı qorxular*, 17 oktyabr 2016-cı il, http://bit.ly/2dxlMZQ; Norveç Qaçqınlar Şurası (NQŞ), *Mosula hücum əməliyyatı başlandı: hazırda 1,2 milyon iraqlı ciddi təhlükə altındadır*, 17 oktyabr 2016-cı il, http://bit.ly/2dXP6JT; OCHA, *Baş katibin*

nəzarəti altında olan ərazilərdən qaçan mülki şəxslərə atəş açır, yaxud onları yaxalayaraq edam edir; digərləri qaçdıqları yollarda İŞİD tərəfindən quraşdırılmış ƏPQ-lərin qurbanı olurlar.[62] Məlumatlarda deyilir ki, İŞİD Mosulda və onun ətrafında minlərlə mülki şəxsi zorla strateji məkanlarda yerləşdirir və onların canlı sipər kimi istifadə edilməsi riski böyükdür.[63]

19. İTQ və onunla əlaqəli qüvvələr İŞİD-in əlində olan ərazilərdən qaçmış kişiləri və hətta yaşı 14 olan azyaşlı oğlanları mütəmadi olaraq ailələrindən ayırır və cəbhə xəttinə yaxın yerlərdə yerləşən yoxlama-baxış məntəqələrində, nəzarət-buraxılış məntəqələrində, məktəblərdə və ya fabriklərdə kustar üsulla düzəldilmiş məntəqələrdə, yaxud ixtisaslaşmış qəbul və ya tranzit məntəqələrində yerləşən təhlükəsizlik yoxlaması yerlərində ciddi təhlükəsizlik yoxlamalarından keçmələrini tələb edirlər. Məlumatlara əsasən yoxlama prosesləri üzərində çox vaxt məhkəmə nəzarəti olmur.[64] Yoxlama məkanlarında çox zaman sığınmaq və daldalanmaq üçün yerlər, qida

---

*humanitar məsələlər üzrə müavini və fövqəladə yardım üzrə koordinator Stiven O'Brayenin İraqa dair bəyanatı*, 16 oktyabr 2016-cı il, http://bit.ly/2edLSQc; HRW, *İraq: Yaxınlaşan Mosul döyüşü ilə bağlı əsas narahatlıqlar*, 6 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/57f654446.html; İraqda Sülh Naminə Maarifləndirmə Mərkəzi (*EPIC*), *Unudulmuş Havica cəbhə xətti*, 30 sentyabr 2016-cı il, http://bit.ly/2e43bIe; *Global Centre R2P*, "*R2P Monitor*" bülleteni, 29-cu buraxılış, 15 sentyabr 2016-cı il, http://bit.ly/2cJaAK4, səh. 5.

[62] "Əl-Ərəbiyyə" telekanalı, *İŞİD-in bombaları Havicadan qaçan və aralarında uşaqların da olduğu 12 iraqlı mülki şəxsi qətlə yetirdi*, 6 noyabr 2016-cı il, http://ara.tv/v8hgk; BMTTŞ, *Baş katibin 2299 (2016) saylı qətnaməyə uyğun olaraq təqdim edilmiş məruzəsi*, 25 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5821ca0f4.html, 44-cü bənd; HRW, *İraq: İŞİD Mosulda və Havicada mülki şəxsləri təhlükə altında qoyur*, 23 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/582084b84.html; "Qardian" qəzeti, *İraqın silahlı könüllüləri Tikrit ətrafinda amansız hücuma başladılar*, 24 sentyabr 2016-cı il, *İraq qüvvələri İŞİD-in dayaq məntəqəsi olan bu şəhəri geri alacaqlarını vəd etdiklərinə görə Mosuldakı mülki şəxslər hücum üçün hədəfə çevrilirlər*, 15 oktyabr 2016-cı il, http://bit.ly/2eerJOi; BMT QAK, *Mosul hücumu İraqda didərgin düşənlərin sayının artmasına rəvac verir*, 21 sentyabr 2016-cı il, http://www.refworld.org/docid/57e2b29219.html; İraq İnsan Hüquqlarının Müşahidəsi Təşkilatı, *İraq hökuməti Havicadakı humanitar böhran barəsində hələ də susur*, 19 sentyabr 2016-cı il, http://bit.ly/2d9cDs9; AFP, *Rəsmilərin bildirdiyinə görə "İslam Dövləti" qruplaşması İraqın Havica şəhərindən qaçmağa çalışan insanları qətlə yetirir*, 5 avqust 2016-cı il, http://bit.ly/2dUmP6b; Beynəlxalq Amnistiya Təşkilatı, *Fəllucədən qaçış*, 28 may 2016-cı il, http://bit.ly/2ejzLoT; UNAMI, *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin müdafiəsinə dair hesabat*, 11 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a09a304.html, səh. 9, 20.

[63] OHCHR, *İraqda mülki şəxslərin iztirablarının "heyrətamiz" miqyasını nəzərə alaraq Zeyd qurbanların hüquqlarına diqqət yetirməyə çağırır*, 11 noyabr 2016-cı il, https://shar.es/1Iy59i; HRW, *İraq: Qorxuya düşmüş İŞİD "insan sipərlərindən", edamlardan istifadə edir*, 4 noyabr 2016-cı il, http://www.refworld.org/docid/5820826b4.html; OHCHR, *Mətbuat üçün brifinqdən qeydlər: İraq*, 4 noyabr 2016-cı il, https://shar.es/1IcfYo; BMT-nin Baş katibi, *Baş katibin soyqırımın qarşısının alınması üzrə xüsusi məsləhətçisi Adama Dinqin Mosuldakı (İraq) və onun ətrafındakı vəziyyətlə bağlı bəyanatı*, 1 noyabr 2016-cı il, http://bit.ly/2fyur1q; OHCHR, *Mosul uğrunda döyüş, İŞİD minlərlə mülki şəxsi evlərindən çıxmağa məcbur etdi və yüzlərlə insanı edam etdi*, 28 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/582084b84.html.

[64] "Təhlükəsizlik yoxlaması prinsipcə əhalinin, o cümlədən məcburi köçkünlərin salamatlığını və təhlükəsizliyini təmin etməyə yönələn məntiqli və əsaslı tədbirdir, bununla belə, təhlükəsizlik yoxlamasının idarə olunması prosesi məcburi köçkünlərin himayəsi ilə bağlı bir sıra narahatlıqlar və risklər doğurur ki, onlar da bu insanların yoxa çıxması, ailə üzvlərindən ayrı düşməsi, uzun müddət həbsdə saxlanması, istismara və sui-istifadə hallarına məruz qalması ilə əlaqədardır", BMT QAK, *Mosuldan didərgin düşənlərin himayəsi ilə bağlı yenilənən həftəlik xəbərlər (29 oktyabr – 4 noyabr 2016-cı il)*, 4 noyabr 2016-cı il, http://bit.ly/2fsroVl. "İŞİD-in əlində olan ərazidən KRH-nin ərazisinə qaçan kişilər və oğlanlar İŞİD-lə mümkün əlaqələri ilə bağlı ilkin təhlükəsizlik yoxlamasından keçmiş olsalar da KRH-nin təhlükəsizlik qüvvələri tərəfindən qeyri-müəyyən müddətə həbsdə saxlanılırlar. Onların vəkillə görüşmələrinə icazə verilmir və hətta onlar cinayət törətməkdə şübhəli bilinməsələr belə bəzən həftələrlə həbsdə saxlanılırlar və eyni zamanda KRH-nin orqanları onları əlavə təhlükəsizlik yoxlamasından keçirirlər. Şəxsin həbsdə saxlanması üçün yeganə qanuni əsas onun Cinayət Məcəlləsində nəzərdə tutulmuş cinayəti törətməkdə fərdi qaydada şübhəli bilinməsidir və insanlar yalnız cinayət ədliyyəsi sisteminin normalarına əsasən həbsə alına bilərlər"; HRW, *KRH: Döyüşlərdən qaçıb qurtulan kişilər və oğlanlar özbaşına həbsə alınırlar*, 2 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/582083564.html. Həmçinin bax: IRIN xəbər agentliyi, *İraqda insanların "İslam Dövləti" qruplaşması ilə əlaqələrinin olub-olmamasının yoxlanılması*: *dəqiq meyarların olmadığı proses*, 10 noyabr 2016-cı il, http://www.refworld.org/docid/582973ed4.html; HRW, İraq: *Döyüşlərdən qaçıb qurtulmuş 37 kişi həbsə alındı*, 10 noyabr 2016-cı il, http://www.refworld.org/docid/5825fb8f4.html; Beynəlxalq Amnistiya Təşkilatı, *Didərgin düşmüş iraqlılar könüllü dəstələr və hökumət qüvvələri tərəfindən sui-istifadə hallarına məruz qalırlar*, 18 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5806051a4.html, səh. 32-36; OCHA, *Humanitar bülleten: İraq, iyul – avqust 2016-cı il*, 29 avqust 2016-cı il, http://bit.ly/2duUdAQ, səh. 2; Beynəlxalq Amnistiya Təşkilatı, *İraq:*

və su təchizatı, gigiyena, sanitariya və tibbi yardım şəraiti məhdud olur[65] və çox vaxt onlar cəbhə xəttinə yaxın yerlərdə yerləşirlər.[66] Məlumatlara əsasən bəziləri bir neçə gündən sonra sərbəst buraxıldıqları halda, digərləri sonda sərbəst buraxılana qədər və ya müvafiq təhlükəsizlik orqanlarının ixtiyarına göndərilənə qədər həftələrlə və ya aylarla həmin məkanlarda saxlanılırlar.[67]

20. BMT və hüquq müdafiə təşkilatları qaçıb qurtulan mülki şəxslərə, xüsusən çoxları tərəfindən İŞİD-i dəstəkləyən şəxslər kimi qəbul edilən sünni ərəb mənşəli kişilərə və oğlanlara qarşı onların İŞİD-lə əlaqəsinə dair sübutun olub-olmamasından asılı olmayaraq XSB-lərin üzvləri tərəfindən, bəzi hallarda isə İTQ tərəfindən törədilən geniş pozuntu hallarını qeydə alıblar. Barəsində məlumat verilən pozuntular sırasına bunlar daxildir: özbaşına həbs, adam oğurluğu, fiziki zorakılıq, zorla yoxa çıxarılma, məhkəməsiz qətllər və cəsədlərin eybəcər hala salınması,[68] məsələn, 2016-cı ilin may-iyun aylarında Fəllucə şəhərini (Əl-Ənbar vilayəti) geri almaq üçün aparılmış hərbi əməliyyatlar zamanı baş vermiş hallar buna misal ola bilər. Məlumatlara əsasən yüzlərlə kişi və oğlan XSB-lərlə əlaqəli qüvvələr tərəfindən həbsə alındıqdan sonra itkin düşüblər.[69] Həmçinin kütləvi informasiya vasitələri XSB-lərlə əlaqəli qüvvələrin Fəllucəyə daxil

---

*Əlavə olaraq yüz minlərlə insanın didərginlik riski altında olması yeni humanitar böhrana rəvac verir,* 16 avqust 2016-cı il, http://www.refworld.org/docid/57b86e874.html; OCHA, *Mosuldakı vəziyyətlə əlaqədar humanitar yardım çağırışı,* 20 iyul 2016-cı il, http://bit.ly/2d9dZTv, səh. 2, 3; NRC/IDMC, *Təhlükəsizlik axtarışında,* iyul 2016-cı il, http://www.refworld.org/docid/582098104.html, səh. 8, 11.

[65] Beynəlxalq Amnistiya Təşkilatı, *Didərgin düşmüş iraqlılar könüllü dəstələr və hökumət qüvvələri tərəfindən sui-istifadə hallarına məruz qalırlar,* 18 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5806051a4.html, səh. 8, 33, 35-36; OCHA, *Humanitar bülleten: İraq, iyul – avqust 2016-cı il,* 29 avqust 2016-cı il, http://bit.ly/2duUdAQ, səh. 2; BMT QAK, *İraq: Yenilənən xəbərlər,* 8 avqust 2016-cı il, http://bit.ly/2dN3K5K, səh. 2; Norveç Qaçqınlar Şurası / Didərginlik Hallarının Monitorinqi üzrə Beynəlxalq Mərkəz (*NRC/IDMC*), *İraqda təhlükəsizlik axtarışında,* iyul 2016-cı il, http://www.refworld.org/docid/582098104.html, səh. 11.

[66] Məsələn, məlumatlara əsasən Bayci şəhərinin şimalında yoxlama məntəqəsi kimi istifadə edilən gübrə istehsalı zavodu 18 avqust 2016-cı ildə minaatanlardan atəşə tutuldu, 20-si məcburi köçkün olmaqla 14 nəfər öldü, 35 nəfər yaralandı. İnsidentdən sonra məntəqə müvəqqəti bağlansa da, bu mətn hazırlandığı zaman istifadə olunmaqda idi; BMT QAK-ın məlumatı, noyabr 2016-cı il; BMTTŞ, *Baş katibin 2299 (2016) saylı qətnaməyə uyğun olaraq təqdim edilmiş məruzəsi,* 25 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5821ca0f4.html, 57-ci bənd. Həmçinin bax: NRC/IDMC, *İraqda təhlükəsizlik axtarışında,* iyul 2016-cı il, http://www.refworld.org/docid/582098104.html, səh. 11.

[67] HRW-nin bildirdiyinə görə, Mosuldan və Havicadan (Kərkük vilayəti) KRH-nin nəzarət etdiyi ərazilərə qaçan kişilər və oğlanlar, məlumatlara əsasən, hətta ilkin təhlükəsizlik yoxlamalarından keçdikdən sonra da kürd təhlükəsizlik qüvvələri tərəfindən bilərəkdən qeyri-müəyyən müddətə həbsdə saxlanılırlar; HRW, *KRH: Döyüşlərdən qaçıb qurtulan kişilər və oğlanlar özbaşına həbsə alınırlar,* 2 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/582083564.html. Həmçinin bax: HRW, *İraq: Döyüşlərdən qaçıb qurtulmuş 37 kişi həbsə alındı,* 10 noyabr 2016-cı il, http://www.refworld.org/docid/5825fb8f4.html; Beynəlxalq Amnistiya Təşkilatı, *Didərgin düşmüş iraqlılar könüllü dəstələr və hökumət qüvvələri tərəfindən sui-istifadə hallarına məruz qalırlar,* 18 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5806051a4.html, səh. 8, 33, 36. Terrorizm əleyhinə qanun əsasında həbsə alınanlarla rəftara dair məlumat üçün aşağıda 28-ci bəndə bax.

[68] Beynəlxalq Amnistiya Təşkilatı, *Araşdırmaların məlumatlarına əsasən, Mosul yaxınlığında kəndlilərə işgəncə veriblər və onları "soyuqqanlılıqla" qətlə yetiriblər,* 10 noyabr 2016-cı il, http://www.refworld.org/docid/5825cd834.html; HRW, İraq: *Döyüşlərdən qaçıb qurtulmuş 37 kişi həbsə alındı,* 10 noyabr 2016-cı il, http://www.refworld.org/docid/5825fb8f4.html; "Assoşieyted Press" agentliyi, *İraqlılar yaraqlılara qarşı etdiklərini ədalət mühakiməsi adlandırırlar,* 26 oktyabr 2016-cı il, http://apne.ws/2fQhjnp; Beynəlxalq Amnistiya Təşkilatı, *Didərgin düşmüş iraqlılar konüllü dəstələr və hökumət qüvvələri tərəfindən sui-istifadə hallarına məruz qalırlar,* 18 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5806051a4.html; HRW, *İraq: Pozuntulara yol vermiş könüllü dəstələrin üzvlərinin Mosul əməliyyatında iştirakı qadağan olunur,* 30 iyul 2016-cı il, http://www.refworld.org/docid/57a05c064.html; Beynəlxalq Amnistiya Təşkilatı, *İraq: Hakimiyyət orqanları həbsxanalarda baş verdiyi iddia edilən işgəncə və ölüm hallarını dayandırmalıdırlar,* 8 iyun 2016-cı il, http://www.refworld.org/docid/57590c6c4.html; BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 2-ci məruzəsi,* 26 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56af0c454.html, 51-ci bənd.

[69] Məlumatlara əsasən itkin düşmüş və (və ya) qətlə yetirilmiş kişilərin və oğlanların sayı dəqiq bilinmir və HRW xəbərdarlıq edir ki, *"“Human Rayts Votç” təşkilatının çoxsaylı sorğularına baxmayaraq, Fəllucə əməliyyatından bəri Əl-Əbadi hökuməti əməliyyat zamanı və ondan sonra qətlə yetirilən və həbsdə saxlanılan insanların sayı*

olmasından sonra yanğınlar törədilməsi və soyğunçuluq halları barədə məlumat veriblər.[70] Mülki şəxslərə qarşı zorakılıqlarda iştirak edənlərin məsuliyyətə cəlb olunacağı barədə İraqın hakimiyyət orqanlarının bəyanatlarına baxmayaraq, araşdırmaların aparılıb-aparılmadığı və ya məhkəmə təqibinin həyata keçirilib-keçirilmədiyi çox zaman naməlum olaraq qalır.[71]

21. 2014-cü ildən bəri insanların münaqişə zonalarından ölkənin nisbətən təhlükəsiz ərazilərinə iri miqyaslı köçləri ilə və bu ərazilərin çoxunda humanitar yardım tələbatlarının səviyyəsinin yüksək olması ilə üzləşən yerli hakimiyyət orqanları həmin ərazilərə daxil olmaq və orada yaşamaqla bağlı getdikcə daha çox məhdudiyyətlər tətbiq edir, o cümlədən gələnlərin maddi himayədarının olmasını tələb edirlər.[72] Əraziyə giriş və yaşayışla bağlı tələblər vilayətlərdən və

---

*barədə hər hansı məlumatı açıqlamaqdan imtina edir"*; HRW, *İraq: Yaxınlaşan Mosul döyüşü ilə bağlı əsas narahatlıqlar*, 6 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/57f654446.html. Həmçinin bax: Beynəlxalq Amnistiya Təşkilatı, *Didərgin düşmüş iraqlılar könüllü dəstələr və hökumət qüvvələri tərəfindən sui-istifadə hallarına məruz qalırlar*, 18 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5806051a4.html; HRW, *İraq: Fəllucədəki zorakılıqlarla bağlı araşdırma məxfilik bataqlığına düşüb*, 7 iyul 2016-cı il, http://www.refworld.org/docid/577e2e304.html. Bununla belə, BMT və hüquq müdafiə təşkilatları həbsdə saxlanılanların sayının yüzlərlə olduğu barədə məlumat veriblər. 9 iyun 2016-cı ildə Əl-Ənbar valisi və Əl-Ənbar vilayət şurası tərəfindən təşkil edilmiş komitə bu qənaətə gəldi ki, Fəllucədəki döyüş əməliyyatlarından qaçıb qurtulduqdan və özlərini XSB-lərin ixtiyarına verdikdən sonra 49 nəfər qətlə yetirilib, 634 nəfər isə itkin düşüb. Komitə həmçinin müəyyən etdi ki, həmin məhbuslar geniş yayılmış olan işgəncələrə məruz qalıblar; BMT-nin xəbərlər mərkəzi, *İraq: BMT elçisinin sözlərinə görə, təhlükəsizlik sahəsində islahat və silahlı qruplar üzərində dövlət nəzarətinin prioritetləri "mühüm yol ayrıcındadır"*, 15 iyul 2016-cı il, http://www.refworld.org/docid/578cd2b440c.html; BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 4-cü məruzəsi*, 5 iyul 2016-cı il, http://www.refworld.org/docid/5784de404.html, 39-cu bənd; OHCHR, *Zeyd İŞİD-in İraqdakı vəhşiliklərini pislədi və Fəllucədən qaçdıqdan sonra oğurlanmış yüzlərlə insanın azadlığa buraxılması üçün çağırış etdi*, 5 iyul 2016-cı il, https://shar.es/1ZOEzW. Həmçinin bax: "Röyters" agentliyi, *Qırğınlar barədə məlumatlar göstərir ki, ABŞ İraq könüllü dəstələrini cilovlamaq iqtidarında deyil*; 23 avqust 2016-cı il, http://reut.rs/2bDkQTE; "Əl-Cəzirə" telekanalı, *Fəllucədən olan mülki şəxslər: "Könüllü dəstələr də öz növbələrində bizə işgəncə verirlər"*, 16 iyun 2016-cı il, http://aje.io/34ph.

[70] "Röyters" agentliyi, *İraqın şiə könüllü dəstələri sünni şəhəri Fəllucədə narahatlıq yaradırlar*, 3 iyul 2016-cı il, http://reut.rs/29gTmAp; "Assoşieyted Press" agentliyi, *İraqın bu şəhərində yaraqlılar məğlub edildikdən sonra evlər yandırılıb və qarət edilib*, 27 iyun 2016-cı il, http://apne.ws/2e7UcoF.

[71] BMTTŞ, *Baş katibin 2299 (2016) saylı qətnaməyə uyğun olaraq təqdim edilmiş məruzəsi*, 25 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5821ca0f4.html, 46-cı bənd; Beynəlxalq Amnistiya Təşkilatı, *Didərgin düşmüş iraqlılar könüllü dəstələr və hökumət qüvvələri tərəfindən sui-istifadə hallarına məruz qalırlar*, 18 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5806051a4.html, səh. 7-8, 24-25, 27; HRW, *İraq: Yaxınlaşan Mosul döyüşü ilə bağlı əsas narahatlıqlar*, 6 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/57f654446.html; HRW, *İraq: Fəllucədəki zorakılıqlarla bağlı araşdırma məxfilik bataqlığına düşüb*, 7 iyul 2016-cı il, http://www.refworld.org/docid/577e2e304.html; Beynəlxalq Amnistiya Təşkilatı, *İraq: Hakimiyyət orqanları həbsxanalarda baş verdiyi iddia edilən işgəncə və ölüm hallarını dayandırmalıdırlar*, 8 iyun 2016-cı il, http://www.refworld.org/docid/57590c6c4.html.

[72] *"Xüsusi məruzəçi məcburi köçkünlərin etnik və ya dini mənsubiyyəti və ya doğulduğu yerlə əlaqədar olaraq hərəkət sərbəstliyinin məhdudlaşdırıldığı və təhlükəsiz yerlərə buraxılmasının qadağan edildiyi barədə narahatedici məlumatlar alıb. (...) Bəzi vilayətlər məcburi köçkünləri öz ərazilərinə buraxmaqdan imtina edir, yaxud onların həmin ərazidən yalnız tranzit məntəqəsi kimi istifadə etmələrinə icazə verirlər"*; BMT-nin İnsan Hüquqları Şurası, *Məcburi köçkünlərin insan hüquqları üzrə xüsusi məruzəçinin məruzəsi*, 5 aprel 2016-cı il, http://www.refworld.org/docid/575fb7e14.html, 40-cı bənd. *"Əraziyə giriş prosedurları vilayət səviyyəsində müəyyənləşdirilir, buna görə də öz doğma vilayətlərində deyil, başqa vilayətdə sığınacaq axtaran məcburi köçkünlər nəzarət buraxılış məntəqələrində saxlanılmaq riski ilə üzləşirlər, yaxud vilayətin siyasətinin dəyişməsi səbəbindən əraziyə buraxılmalarından imtina edilir. Məcburi köçkünləri qəbul etmiş bütün vilayətlər ötən 18 ay ərzində insanların onların ərazisindən keçməsinə çox az hallarda lazımi reaksiya göstəriblər"*; MRGI, *İraqda didərginlik böhranı*, mart 2016-cı il, http://www.refworld.org/docid/573592d24.html, səh. 19. *"Təhlükəsiz yerlərə gedib çıxmaq İraq ərazisində problem olaraq qalır. İraq vilayətlərinin çoxuna daxil olmaq maddi himayədarın mövcudluğundan asılı olaraq qalır və bir çox ailələr nəzarət-buraxılış məntəqələrindən keçə bilmir və vilayət sərhədlərində dayanıb qalmalı olurlar"*; BMT QAK, *İraq: Məcburi köçkünlərlə bağlı yenilənən operativ məlumatlar, 1-30 noyabr, 2015-ci il*, 30 noyabr, 2015-ci il, http://bit.ly/1kIlhMB, səh. 2. Həmçinin bax: NRC/IDMC, *İraqda təhlükəsizlik axtarışında*, iyul 2016-cı il, http://www.refworld.org/docid/582098104.html; UNAMI, *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin müdafiəsinə dair hesabat*, 11 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a09a304.html, səh. 20.

bəzən eyni vilayət daxilindəki rayonlardan (və daha kiçik ərazi vahidlərindən) asılı olaraq fərqlənir. Məlumatlara əsasən bu mətn hazırlandığı zaman müxtəlif ərazilərdə yerli hakimiyyət orqanları münaqişə zonalarından, o cümlədən Bağdad, Babil və Kərbəla vilayətlərindən qaçıb gələn şəxslərin əraziyə girişinə, demək olar ki, tam qadağa qoymuşdular. Digər vilayətlərin çoxu məcburi köçkünlərin getdikcə sərtləşən şərtlər altında əraziyə daxil olmasına və orada yaşamasına icazə verirlər və bu tələblər ayrı-ayrı ərazilərdə fərqlidir, amma çox vaxt maddi himayədarlıq, yerli hakimiyyət orqanlarında qeydiyyata alınma və müxtəlif təhlükəsizlik orqanlarında təhlükəsizlik yoxlamasından keçmə kimi şərtləri özündə ehtiva edir.[73] Bu qaydaların təsirinə daha çox İŞİD-in əlində olan ərazilərdən qaçıb gələn və təhlükəsizliyə qarşı təhlükə təşkil etdikləri hesab edilən sünni ərəblər və sünni türkmənlər məruz qalırlar, məlumatlara əsasən çox zaman onların nisbətən təhlükəsiz ərazilərə daxil olmasına və orada yaşamasına icazə verməkdən olduqca geniş və ayrı-seçkilik xarakterli meyarlar əsasında imtina edilir.[74] Məlumatlara görə, nəzarət-buraxılış məntəqələrində tətbiq edilən giriş məhdudiyyətləri heç də həmişə aydın şəkildə müəyyən edilmiş olmur və (və ya) onların tətbiqi qaydaları təhlükəsizliklə bağlı vəziyyətdən xeyli dərəcədə asılı olaraq fərqlənə və ya qəflətən dəyişdirilə bilər. Ümumiyyətlə, İraqda maddi himayədarlıq tələbləri nə qanuni əsasa malikdir, nə də rəsmən elan olunub. Onlar tez-tez və əsassız dəyişikliklərə məruz qalır ki, bu da məcburi köçkünlərin hərəkət azadlığına və nisbətən təhlükəsiz ərazilərə daxil olmaq imkanına mənfi təsir göstərir. Maddi himayədarlıq tələblərinin tətbiqi ayrı-ayrı nəzarət-buraxılış məntəqələrindən və bu və ya digər əməkdaşdan asılı olaraq fərqlənir. Hətta şəxs himayədarlıq tələblərinə tam cavab vermiş olsa belə, bu onun nisbətən təhlükəsiz əraziyə girişini təmin etmir və hətta ciddi sağlamlıq problemləri olan şəxslərin də əraziyə girişinə icazə verməkdən imtina edilir. Giriş icazəsinin verilib-verilməməsi məsələsinin həllinə xüsusən etnik və məzhəb mülahizələri təsir göstərə bilər. Himayədarlıq tələbləri, habelə onların əhatə dairəsinin müəyyənləşdirilməməsi və tətbiq edilməli prosedurların olmaması, yəqin ki, məcburi köçkünləri istismar və sui-istifadə hallarına, o cümlədən seksual zorakılığa və cinsi mənsubiyyətə əsaslanan zorakılığa məruz qoyur, belə ki, bəzi himayədarlar şəxsə zamin durmaq üçün ondan pul və ya müəyyən "xidmətlər" tələb edə bilərlər.[75] Hesabatlar göstərir ki, nəzarət-buraxılış məntəqələri bağlı olduğuna və ya müəyyən

---

[73] BMT QAK-ın məlumatları, noyabr 2016-cı il. Bağdada buraxılmaları və orada yaşamaları üçün əvvəllər İŞİD-in əlində olmuş və ya hazırda onun əlində olan ərazilərdən olan sünni ərəblərin qarşısında qoyulan tələblər barəsində məlumat üçün bax: BMT QAK, *İŞİD-in əlində olan ərazilərdən olan sünni ərəblər üçün Bağdadda ölkədaxili köçürülmə və ya yerdəyişmə alternativinin mümkünlüyünün qiymətləndirilməsi üçün mənşə ölkəsi barədə müvafiq məlumatlar,* may 2016-cı il, http://www.refworld.org/docid/575537dd4.html, 11-12-ci bəndlər. Mənşə ölkəsi barədə məlumatlarda İraqın müxtəlif ərazilərinə daxil olma və orada yaşama tələblərinə aid əlavə informasiya *Refworld* saytında yerləşdiriləcək: www.refworld.org.

[74] *"Didərgin düşmüş insanların arasında İraqın bütün etnik və dini icmalarının üzvləri olsa da, İraq təhlükəsizlik qüvvələri və XSB-lərin könüllü dəstələri tərəfindən Mərkəzi İraqda, Kürdüstan hakimiyyət orqanları tərəfindən İraqın Kürdüstan bölgəsində, habelə ölkənin şimalındakı mübahisəli ərazilərdə tətbiq edilən hərəkət məhdudiyyətləri, demək olar ki, yalnız sünni ərəb mənşəli məcburi köçkünləri əhatə edir. (...) [Belə məhdudiyyətlər] sünni ərəblərə ümumən tətbiq edilir və belə görünür ki, onların kollektiv şəkildə "İslam Dövlət" qruplaşması ilə əlaqəli olduğu və ya onu dəstəklədiyi hesab edilir"*; Beynəlxalq Amnistiya Təşkilatı, *Didərgin düşmüş iraqlılar könüllü dəstələr və hökumət qüvvələri tərəfindən sui-istifadə hallarına məruz qalırlar*, 18 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5806051a4.html, səh. 55. Həmçinin bax: ABŞ Dövlət Departamenti, *2015: Ölkələr üzrə məruzələr – İraq*, 13 aprel, 2016-cı il, http://www.state.gov/documents/organization/253137.pdf, səh. 38; OHCHR, *BMT ekspertinin bildirdiyinə görə, böhran dərinləşdikcə İraq və beynəlxalq birlik məcburi köçkünlərin himayəsini gücləndirməlidirlər*, 19 may 2015-ci il, https://shar.es/1Y48hM.

[75] BMT QAK-ın məlumatları, noyabr 2016-cı il. *"Nəzarət-buraxılış məntəqələrindəki prosedurlar çox zaman sonradan göstərilən reaksiya xarakteri daşıyır, belə ki, onlar hər hansı insidentdən sonra yeni köçkün dalğası başladığı zaman daha çox məhdudlaşdırıcı olur. Hər hansı bir həftədə ailənin əraziyə buraxılması üçün cəmi bir ailə üzvünün sənədlərinin olması kifayət etdiyi halda, növbəti həftədə bir nəfərin şəxsiyyət sənədi olmadıqda bütün ailə üzvlərinin əraziyə buraxılmasından imtina edilə bilər. Prosesi əlavə olaraq mürəkkəbləşdirən amil ondan ibarətdir ki, eyni yoxlama prosedurları nəzarət-buraxılış məntəqələrinin müxtəlif əməkdaşları tərəfindən fərqli qaydada aparıla bilər. Müvafiq olaraq, məcburi köçkünlərin əraziyə daxil olması bəxt amilindən asılı ola bilər"*; MRGI, *İraqda didərginlik böhranı*, mart 2016-cı il, http://www.refworld.org/docid/573592d24.html, səh. 19. Həmçinin bax: BMT QAK, *Mosuldan didərgin düşənlərin himayəsi ilə bağlı yenilənən həftəlik xəbərlər (29 oktyabr*

ərazilərə daxil olmağa icazə verilmədiyinə görə təhlükəsizlik axtarışında olan şəxslər zəruri xidmətlərdən məhrum olmuş halda qala bilərlər.[76]

22. Məcburi köçkünlərin şəhər ərazilərinə daxil olmalarına getdikcə çox maneələr yaradılır və onlar bəzən məcburi qaydada düşərgələrdə yerləşdirilir və orada onların hərəkət azadlıqlarına hər hansı qanuni marağa, o cümlədən təhlükəsizlik maraqlarına uyğun olmayan qeyri-mütənasib məhdudiyyətlər tətbiq edilir.[77] Nəticədə münaqişədən qaçanlar çox vaxt münaqişə zonalarının daxilində və ya yaxınlığında qalmağa məcbur olurlar.[78] Məlumatlara əsasən kürd təhlükəsizlik qüvvələri də sünni ərəb ailələrini onların öz doğma şəhər və kəndlərindən zorla köçürür və iddia edirlər ki, bu, onların öz təhlükəsizliyi ilə əlaqədardır, çünki onlar cəbhə xəttinin çox yaxınlığında məskunlaşıblar.[79]

### *Əvvəllər İŞİD-in nəzarəti altında olmuş ərazilərdə mülki şəxslərlə rəftar*

23. Məlumatlara görə İŞİD-dən geri alınmış ərazilərdə XSB-lərlə əlaqəli olan qüvvələr, tayfa qrupları və kürd təhlükəsizlik qüvvələri ərazidə qalmış və ya oraya qayıtmış sünni ərəb və türkmən sakinlərə qarşı geniş şəkildə qisas aktları həyata keçirirlər ki, bunun da səbəbi onların İŞİD-i həqiqətən dəstəkləmələri və ya onunla əlaqəli olmaları, yaxud da bu cür qəbul edilmələridir.[80] Barəsində məlumat verilən pozuntular sırasına bunlar daxildir: qurbanın özbaşına

---

*– 4 noyabr 2016-cı il),* 4 noyabr 2016-cı il, http://bit.ly/2fsroVl; ABŞ Dövlət Departamenti, *2015: Ölkələr üzrə məruzələr – İraq*, 13 aprel, 2016-cı il, http://www.state.gov/documents/organization/253137.pdf, səh. 38.

[76] BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 3-cü məruzəsi*, 27 aprel 2016-cı il, http://www.refworld.org/docid/5731a1a14.html, 58-ci bənd; BMT-nin İnsan Hüquqları Şurası, *Məcburi köçkünlərin insan hüquqları üzrə xüsusi məruzəçinin məruzəsi,* 5 aprel 2016-cı il, http://www.refworld.org/docid/575fb7e14.html, 41 və 43-cü bəndlər.

[77] Hərəkət azadlığının məhdudlaşdırılması nəticəsində məcburi köçkünlərin zəruri xidmətlərə çıxışı və iqtisadi imkanlar əldə etməsi ciddi surətdə məhdudlaşıb. *"Konkret olaraq, sünni ərəb mənşəli məcburi köçkünlər həm mərkəzi İraqda, həm də İraqın Kürdüstan bölgəsində hərəkət azadlıqlarına əsassız və ayrı-seçkilik xarakteri daşıyan məhdudiyyətlərin qoyulması ilə üzləşirlər. Düşərgələrdən şəhərlərə köçə bilmək üçün onlar saysız-hesabsız bürokratik prosedulardan keçməlidirlər ki, bu prosedular da ayrı-ayrı vilayətlərdə fərqlidir və belə görünür ki, nəzarət-buraxılış məntəqələrində məmurların və silahlı şəxslərin əhval-ruhiyyəsindən asılı olaraq dəyişir. Çoxlarının sadəcə olaraq zəruri tibbi yardım almaqdan ötrü düşərgəni tərk etmək üçün xüsusi icazə almaları tələb olunur"*; Beynəlxalq Amnistiya Təşkilatı, *"İslam Dövləti" qruplaşmasının hökmranlığından qaçan iraqlılar acınacaqlı gələcəklə üzləşirlər,* 19 avqust 2016-cı il, http://www.refworld.org/docid/57b867294.html. Həmçinin bax: BMT QAK, *Mosuldan didərgin düşənlərin himayəsi ilə bağlı yenilənən həftəlik xəbərlər (29 oktyabr – 4 noyabr 2016-cı il),* 4 noyabr 2016-cı il, http://bit.ly/2fsroVl; Beynəlxalq Amnistiya Təşkilatı, *İraq: Çarpaz atəşlər altında qalan və "İslam Dövləti" qruplaşması tərəfindən canlı sipər kimi istifadə olunan mülki şəxslərin təhlükəsizliyi ilə bağlı qorxu*, 27 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/581c92474.html; Beynəlxalq Amnistiya Təşkilatı, *Didərgin düşmüş iraqlılar könüllü dəstələr və hökumət qüvvələri tərəfindən sui-istifadə hallarına məruz qalırlar,* 18 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5806051a4.html, səh. 8-9, 59; BMT QAK, *İraq: Son hadisələrə dair yenilənən həftəlik xəbərlər*, 2 iyun 2016-cı il, http://bit.ly/2el3ngo, səh. 2; BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 3-cü məruzəsi*, 27 aprel 2016-cı il, http://www.refworld.org/docid/5731a1a14.html, 55-ci bənd; IRIN xəbər agentliyi, *"İslam Dövləti" qruplaşmasından qaçan iraqlıların aqibəti həbsə alınmaqdan ibarət olur,* 27 aprel 2016-cı il, http://www.refworld.org/docid/5731837a4.html; BMT QAK, *BMT QAK düşərgələrdə məcburi köçkün iraqlılara qoyulan məhdudiyyətlərdən narahatdır*, 11 mart 2016-cı il, http://www.refworld.org/docid/56e66c924.html.

[78] BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 4-cü məruzəsi,* 5 iyul 2016-cı il, http://www.refworld.org/docid/5784de404.html, 49-50-ci bəndlər; BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 2-ci məruzəsi,* 26 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56af0c454.html, 64-cü bənd.

[79] Beynəlxalq Amnistiya Təşkilatı, *Didərgin düşmüş iraqlılar könüllü dəstələr və hökumət qüvvələri tərəfindən sui-istifadə hallarına məruz qalırlar,* 18 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5806051a4.html, səh. 61; BMT QAK, *İraq: Mosuldakı vəziyyətə dair yenilənən məlumatlar,* 11 oktyabr 2016-cı il, http://bit.ly/2dkj0sz; BMT QAK, *İraq: Son hadisələrə dair yenilənən həftəlik xəbərlər*, 9 iyun 2016-cı il, http://bit.ly/2eigAvO; BMT QAK, *BMT QAK düşərgələrdə məcburi köçkün iraqlılara qoyulan məhdudiyyətlərdən narahatdır*, 11 mart 2016-cı il, http://www.refworld.org/docid/56e66c924.html.

[80] Beynəlxalq Amnistiya Təşkilatının araşdırmaçıları *"yerli məmurlarla və hal şahidləri ilə, o cümlədən kəndlilərlə müsahibə apardılar və onlar səbavi tayfasının səfərbərlik dəstələrinin (Haşad əl-Əşari) üzvlərinin cəza xarakterli*

həbs edilməsi və oğurlanması, zorla yoxa çıxarılması, məhkəməsiz qətlə yetirilməsi, zorla didərgin salınması, evlərin, dükanların və məscidlərin talan edilməsi, qəsdən yandırılması və dağıdılması və bəzi hallarda qəsdən kəndlərin bütünlüklə dağıdılması.[81] Həmçinin məlumatlara əsasən Sincar rayonunda (Neynəva vilayəti) yezidi özünümüdafiə qrupları sünni ərəb mənşəli mülki şəxslərə, o cümlədən qadın və uşaqlara qarşı qisasçı hücumlarda iştirak ediblər.[82]

24. Məlumatlara görə İŞİD-dən geri alınmış ərazilərdə tayfalararası və tayfadaxili zorakılıq halları müşahidə olunur, ona görə ki, bəzi sünni ərəb tayfaları və ya onların bir qismi İŞİD-in tərəfini tutduqları halda, digərləri seyrçi mövqeyində qalıblar və ya bu qruplaşmaya qarşı vuruşublar.[83] İŞİD-lə əməkdaşlıq etdiyi məlum olan və ya güman edilən ailələr və ya tayfalar,

---

*qisas hücumlarını necə həyata keçirdiklərini təsvir etdilər. "İslam Dövləti" qruplaşması ilə əlaqəsi olmaqda şübhəli bilinən sakinlər metal çubuqlarla döyülmüş və bədənlərinə elektrik cərəyanı buraxılmışdı. Bəziləri nəqliyyat vasitələrinin kapotuna bağlanmış, küçələrdə gəzdirilərək nümayiş etdirilmiş və dəmir qəfəsə salınmışdılar"*; Beynəlxalq Amnistiya Təşkilatı, *İraq: Mosul hücumu zamanı tayfaların könüllü silahlı dəstələri tutulmuş şəxslərə qisas məqsədi ilə işgəncə veriblər*, 2 noyabr 2016-cı il, http://www.refworld.org/docid/582084064.html. *"Kürdüstan regional hökumətinin (KRH) peşmərgə qüvvələri və Şimali İraqdakı könüllü kürd dəstələri "İslam Dövləti" deyilən qruplaşmaya göstərdikləri güman edilən dəstəyə görə ərəb icmalarını qisas məqsədi ilə açıq-aydın bu yerlərdən qovmaq üçün minlərlə evləri uçurdular, partlatdılar və yandırdılar"*; Beynəlxalq Amnistiya Təşkilatı, *Şimali İraq: peşmərgələrin nəzarətində olan ərəb kəndlərinin qəsdən kütləvi şəkildə məhv edildiyini sübuta yetirən peyk görüntüləri*, 20 yanvar 2016-cı il, http://bit.ly/2dUayOT. *"İTQ və XSB-lər Bayci şəhərini (Səlahəddin vilayəti) İŞİD-dən geri aldıqdan sonra 18-19 oktyabr [2015-i ildə] XSB-lər, iddia edildiyinə görə, dövlət əmlakını və özəl əmlakları dağıtdılar və yandırdılar. (...) XSB-lərin İŞİD-lə əlaqəli olduğu hesab edilən sakinlərin evlərini yandırmaqda davam etdikləri bildirilir. (...) İddia edildiyinə görə XSB-lər bu rayonun bütün sakinlərinin İŞİD-lə əlaqəsi olduğunu hesab edirlər"*; UNAMI, *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin müdafiəsinə dair hesabat*, 11 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a09a304.html, səh. 26-27. Həmçinin bax: OCHA, *Humanitar tələbatların icmalı – 2016*, noyabr 2015-ci il, http://bit.ly/1RoAqvO, səh. 7, həmçinin aşağıda bu bölməyə bax: *"Məcburi köçkünlərin qayıdışları və xaricdən qayıdışlar"*.

[81] *"1.000-dən artıq tutulmuş şəxs, o cümlədən yaşı 15-dən az olan bəzi tutulanlar heç bir ittiham irəli sürülmədən Bağdadın qərbində, Əl-Ənbar vilayətində müvəqqəti saxlama mərkəzlərində dəhşətli şəraitdə saxlanılırlar. (...) Tutulanlar İraq qüvvələri onların doğma şəhərini geri aldıqdan sonra özünü "İslam Dövləti" adlandıran silahlı qruplaşma ilə əməkdaşlıqda şübhəli bilinərək küçələrdə yaxalanıb, yaxud evlərindən götürülüblər, çox vaxt tutulmalarının səbəbi sadəcə olaraq "İslam Dövləti" qruplaşmasının hökmranlığı altında olan şəhər və kəndlərdə qalmaları olub"*; Beynəlxalq Amnistiya Təşkilatı, *İraq: 1.000-dən artıq tutulmuş şəxs Əl-Ənbar anti-terror mərkəzlərində dəhşətli şəraitdə saxlanılırlar*, 3 may 2016-cı il, http://www.refworld.org/docid/582099c54.html. *"Məlumatlar göstərir ki, sünni ərəb icmalarına məxsus əmlakın talan edilməsinə və dağıdılmasına, insanların zorla evlərindən çıxarılmasına, adam oğurluqlarına, qanunsuz həbslərə və bəzi hallarda məhkəməsiz qətllərə görə İraq təhlükəsizlik qüvvələri, kürd təhlükəsizlik qüvvələri və müvafiq olaraq onların könüllü dəstələri məsuliyyət daşıyırlar"*; OHCHR, *Mətbuat üçün ən son brifinq: İraq – Ayrı-seçkilik və zorakılıqlar*, 4 dekabr 2015-ci il, https://shar.es/1G10WJ. Həmçinin bax: HRW, *İraq: Pozuntulara yol vermiş könüllü dəstələrin üzvlərinin Mosul əməliyyatında iştirakı qadağan olunur*, 30 iyul 2016-cı il, http://www.refworld.org/docid/57a05c064.html; Beynəlxalq Amnistiya Təşkilatı, *Qovulma və əmlakdan məhrum edilmə: Şimali İraqda insanların zorla didərgin salınması və evlərinin qəsdən dağıdılması*, 20 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a0800f4.html (bundan sonra belə adlandırılacaq: Beynəlxalq Amnistiya Təşkilatı, *Şimali İraqda insanların zorla didərgin salınması və evlərinin qəsdən dağıdılması*, 20 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a0800f4.html); BMT-nin xəbərlər mərkəzi, *BMT-nin insan hüquqlarına dair hesabatında deyilir ki, İŞİD, ola bilsin ki, İraqda soyqırım və hərbi cinayətlər törədib*, 20 mart 2015-ci il, http://www.refworld.org/docid/550c12104.html; BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 2-ci məruzəsi*, 26 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56af0c454.html, 51-ci bənd; HRW, *Dağıdıcı nəticə: İraq Tikriti geri aldıqdan sonra könüllü dəstələr zorakılıqlar törədirlər*, 20 sentyabr 2015-ci il, http://www.refworld.org/docid/55ffdbd64.html; HRW, *Azad edilmənin ardınca dağıtma gəlir: İraq könüllü dəstələri və Əmirli şəhərinin alınmasının nəticələri*, 18 mart 2015-ci il, http://www.refworld.org/docid/550c33b84.html.

[82] BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 2-ci məruzəsi*, 26 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56af0c454.html, 54-cü bənd; Beynəlxalq Amnistiya Təşkilatı, *Şimali İraqda insanların zorla didərgin salınması və evlərinin qəsdən dağıdılması*, 20 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a0800f4.html, səh. 21-30; OHCHR, *Mətbuat üçün ən son brifinq: İraq – Ayrı-seçkilik və zorakılıqlar*, 4 dekabr 2015-ci il, https://shar.es/1G10WJ; *"Niqaş"* saytı, *Dağıtma, yandırma, qan tökmə: yezidi könüllü dəstələri İraqda ərəb kəndlərini qəsdən dağıtdıqlarını etiraf etdilər*, 30 iyul 2015-ci il, www.niqash.org/+qnppn.

[83] "Nyu-York Tayms" qəzeti, *İraqda qardaş müharibəsi: "Onları öz əllərimlə öldürəcəyəm"*, 18 iyun 2016-cı il, http://nyti.ms/1WUui6I; Karnegi Orta Şərq Mərkəzi, *İraqda sünnilərin çətin durumu*, 3 mart 2016-cı il,

məlumatlara əsasən, İŞİD-in əleyhdarı olan ailələr və ya tayfalar tərəfindən məhkəmədənkənar qaydada cəzalandırılırlar.[84]

25. Məlumatlara əsasən bəzi ərazilərdə yerli hakimiyyət orqanları, təhlükəsizlik qüvvələri və tayfalar ailənin və ya onun hər hansı üzvünün İŞİD-lə əlaqəli olması və ya bu cür qəbul edilməsi səbəbindən bütövlükdə ailələrin evlərindən çıxarılması və doğma yerlərindən qovulması barədə göstəriş verirlər.[85] Bundan başqa, İŞİD-lə əlaqədə şübhəli bilinən şəxslərin, ailələrin və ya tayfaların öz doğma ərazilərinə qayıtmalarının qarşısı alınır.[86] Bəzi hallarda kürd təhlükəsizlik qüvvələri və XSB-lərlə əlaqəli olan qüvvələr qisas almaq və ya ərazi üzərində nəzarətlərini

---

http://ceip.org/1njaN7R; *"Niqaş"* saytı, *Ekstremistlər Səlahəddindən geri çəkildikcə İraq tayfaları ədalət mühakiməsi tələb edirlər,* 22 oktyabr 2015-ci il, www.niqash.org/+05803; *ISW, İraqda vəziyyətə dair hesabat: 28-30 iyul,* 30 iyul 2016-cı il, http://bit.ly/1Y459Ec; *"Niqaş"* saytı, *İraq tayfaları arasında ekstremistlərə münasibətdə vahid mövqe yoxdur: güman ki, tayfaların tərəfindən qanlı ədalət mühakiməsinin həyata keçiriləcəyi durum hökm sürəcək,* 6 noyabr 2014-cü il, www.niqash.org/+j5ob0.

[84] Bir qayda olaraq, tayfalar mübahisələri tayfa adətlərinə uyğun olaraq həll edirlər. Qətl, fiziki xəsarət hallarında və əmlaka ziyan dəydikdə və ya əmlak məhv edildikdə adətən tayfalar əvvəlcə məsələni danışıqlar aparmaq və qurbanın ailəsinə maliyyə təzminatı ("fəsl" və ya "diyə") ödəmək yolu ilə həll etməyə çalışırlar. Bunun qarşılığında zərərçəkən tərəf əvəzçıxma hüququndan imtina edir. Yalnız tayfalar tərəflər arasındakı mübahisəni barışıq yolu ilə həll edə bilmədikdə belə münaqişələr qanlı düşmənçiliyə çevrilir ki, bu da silsilə xarakterli uzunmüddətli zorakılıq və qisas aktlarına çevrilir. Məlumatlara əsasən, ədalət mühakiməsinin bu ənənəvi formalarının tətbiqi İŞİD-lə əlaqəli olan şəxslər tərəfindən törədilən geniş yayılmış ciddi cinayətlər kontekstində çox ciddi şəkildə məhdudlaşmış olur. BMT-nin İraq üzrə humanitar koordinatoru Liz Qrandın bildirdiyinə görə, *"tayfa mexanizmlərinin çoxu icmalar tərəfindən sosial gərginliyi aradan qaldırmaq və barışığın hökm sürməsinə nail olmaq üçün istifadə edilir"*. Tayfa mexanizmlərinin işləməməsi nəticəsində tərəflər İŞİD-in tərəfdarı olduğunu düşündükləri insanlara qarşı zorakı qisas aktlarına əl ata bilərlər. "Los-Anceles Tayms" qəzeti, *İraqda "İslam Dövləti" qruplaşması ilə əlaqəli olan ailələrin cəzalandırılması və zorakılıq qurbanlarına kompensasiya verilməsi*", 9 oktyabr 2016-cı il, http://fw.to/GRpniPT. Mübahisələrin həlli üzrə tayfa mexanizmlərinin müxtəlif mərhələləri barədə məlumat üçün bax: Heydər Ala Hamudi, Vəsfi H. Əl-Şəraa və Aqil Əl-Dahhan, *Dövlətdə mübahisələrin həlli və İraqın cənubunda tayfa qanunları: plüralizmin kooperativ modelinə doğru,* Pittsburq Universiteti, Hüquq sahəsinə aid araşdırmalar seriyası, 2015-09 saylı işçi sənəd, 30 mart 2015-ci il, http://bit.ly/2fHBmVT; Orta Şərq İnstitutu, *Yeni İraqda tayfa qanunları və barışıq*, Yaxın Şərq rüblük elmi jurnalı, 65-ci cild, qış-2011, http://bit.ly/1Ot7eTM, səh. 14-17.

[85] Məlumatlara əsasən 2016-cı ilin sentyabrında Hit rayonunda (Əl-Ənbar vilayəti) yerli hakimiyyət orqanları İŞİD-lə əlaqədə şübhəli bilinən ailələrə 72 saat ərzində rayonu tərk etmək əmrini verdilər. Məlumatlara görə çıxıb getməyənlərin evlərinə hücumlar edildi, gedənlərin isə evləri dağıdıldı və ya kompensasiya qismində İŞİD-in qurbanlarının ailələrinə verildi. Məlumat verilir ki, evlərini tərk etmiş ailələr Əl-Ənbar vilayətində İŞİD-in nəzarəti altında qalan yerlərə, o cümlədən Əl-Qaim rayonuna köçdülər, bəziləri isə, məlumatlara görə, İraqda qalacaqları təqdirdə onlardan qisas alınacağından qorxaraq Suriya ərazisinə keçdilər; BMT QAK-ın məlumatları, noyabr 2016-cı il; BMT QAK, *İraq: Yenilənən xəbərlər,* 1 sentyabr 2016-cı il, http://bit.ly/2dG2GkQ, səh. 2. *"Məsələn, 26 iyul [2016-cı ildə] Babil vilayət şurası İŞİD üzvü olduqlarına görə məhkum edilmiş şəxslərin evlərinin dağıdılması və ailələrinin vilayət ərazisindən məcburi qaydada çıxarılması barədə qərar qəbul etdi. Avqustun 30-da Səlahəddin vilayət şurası İŞİD-lə əlaqəsi olmaqda şübhəli bilinən şəxslərin 10 il müddətinə vilayət ərazisindən çıxarılması və hazırda vilayət ərazisi xaricində olan və ailə üzvü İŞİD-lə əlaqəli olan şəxslərin vilayət ərazisinə qayıtmasının qarşısının alınması barədə qərar qəbul etdi"*; BMTTŞ, *Baş katibin 2299 (2016) saylı qətnaməyə uyğun olaraq təqdim edilmiş məruzəsi,* 25 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5821ca0f4.html, 47-ci bənd. Həmçinin bax: "Los-Anceles Tayms" qəzeti, *İraqda "İslam Dövləti" qruplaşması ilə əlaqəli olan ailələrin cəzalandırılması və zorakılıq qurbanlarına kompensasiya verilməsi*", 9 oktyabr 2016-cı il, http://fw.to/GRpniPT; İraq İnsan Hüquqlarının Müşahidəsi Təşkilatı, *Səlahəddin vilayətindəki məcburi köçkünlər zorla başqa yerə köçürülür və ya öz şəhərlərinə qayıtmalarının qarşısı alınır,* 2 oktyabr 2016-cı il, http://bit.ly/2dwtof1; "*The New Arab*" qəzeti, *İraqın könüllü dəstələri İŞİD-dən azad edilmiş şəhərdən vətəndaşları didərgin salmaqda təqsirləndirilirlər,* 13 avqust 2016-cı il, http://bit.ly/2dTEgTW; *"Niqaş"* saytı, *Ekstremistlər Səlahəddindən geri çəkildikcə İraq tayfaları ədalət mühakiməsi tələb edirlər,* 22 oktyabr 2015-ci il, www.niqash.org/+05803; *"Niqaş"* saytı, *"Oğlum gedib "İslam Dövləti" qruplaşmasına qoşuldu və indi mən cəhənnəm mühitində yaşayıram"*, 10 sentyabr 2015-ci il, www.niqash.org/+akof0.

[86] Bəzi hallarda bütöv kəndlər və şəhərlər İŞİD-lə əlaqədə şübhəli bilinir; Beynəlxalq Amnistiya Təşkilatı, *Şimali İraqda insanların zorla didərgin salınması və evlərinin qəsdən dağıdılması,* 20 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a0800f4.html, səh. 6-7. Həmçinin bax: *"Niqaş"* saytı, *Əl-Ənbarda iraqlı polislər İŞİD-in tələblərinə tabe olmaqla polisdə xidmət etmək arasında çətin seçim qarısında,* 1 noyabr 2016-cı il, http://bit.ly/2eNT6tX; ABŞ Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il hesabatı: İraq,* 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add86b59.html; "Monitor" (*Al-Monitor*) elektron nəşri, *Didərgin düşmüş iraqlılar hələ də evlərinə qayıdacaqları anı gözləyirlər,* 24 iyun 2015-ci il, http://almon.co/2ghm.

möhkəmləndirmək məqsədi ilə sünni ərəb və sünni türkmən kəndlərini qəsdən dağıtmaqda və (və ya) sakinlərin geri qayıtmalarının qarşısını almaqda təqsirləndiriliblər.[87] Məsələn, məlumatlara görə, sünni ərəb şəhəri Cürf əl-Səhrin (Babilistan vilayətində təxminən 70.000-80.000 nəfər əhalisi olan şəhər) bütün əhalisinin geri qayıtmasına İTQ və XSB-lərlə əlaqəli qüvvələr tərəfindən əngəl törədilib. Həmçinin məlumat verilir ki, şəhər 2014-cü ilin oktyabrının sonlarında İŞİD-dən geri alındıqdan sonra silahlı könüllülərin oradakı evləri yandırdıqları müşahidə edilib.[88] Məlumatlara görə yerli hakimiyyət orqanları və tayfalar həmçinin İŞİD-lə əlaqəli olduğu hesab edilən ailələrin və ya tayfaların geri qayıtmasını qadağan ediblər.[89]

***Əvvəllər İŞİD-in nəzarətində olmuş və ya hazırda nəzarət etdiyi ərazilərdən olan mülki şəxslərlə hazırda mərkəzi hökumətin və ya KRH-nin nəzarətində olan ərazilərdə rəftar***

26. Çoxlu sayda sünni ərəb mənşəli məcburi köçkünlərin didərgin düşməsi, məlumatlara görə, onları qəbul etmiş ərazilərdə icmalar arasında gərginliyin artmasına[90] və İŞİD-lə əlaqəli olmaqda və ya ona rəğbət bəsləməkdə şübhəli bilinən bu məcburi köçkünlərə qarşı şübhələrin daha da çoxalmasına gətirib çıxarıb.[91] Məlumatlara əsasən bəzi siyasətçilər və təhlükəsizlik rəsmiləri məcburi köçkünlər arasında İŞİD döyüşçülərinin olduğunu və (və ya) məcburi köçkünlərin axını ilə təhlükəsizlik sahəsində insidentlərin artması arasında əlaqə olduğunu iddia edirlər ki, bununla

---

[87] Beynəlxalq Amnistiya Təşkilatı, *Didərgin düşmüş iraqlılar könüllü dəstələr və hökumət qüvvələri tərəfindən sui-istifadə hallarına məruz qalırlar*, 18 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5806051a4.html, səh. 9, 17, 18, 58-59, 61; BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 3-cü məruzəsi*, 27 aprel 2016-cı il, http://www.refworld.org/docid/5731a1a14.html; 48-ci bənd; BMT-nin İnsan Hüquqları Şurası, *Məcburi köçkünlərin insan hüquqları üzrə xüsusi məruzəçinin məruzəsi,* 5 aprel 2016-cı il, http://www.refworld.org/docid/575fb7e14.html, 48 və 49-cu bəndlər; MRGI, *İraqda didərginlik böhranı*, mart 2016-cı il, http://www.refworld.org/docid/573592d24.html, səh. 22; Beynəlxalq Amnistiya Təşkilatı, *Şimali İraqda insanların zorla didərgin salınması və evlərinin qəsdən dağıdılması*, 20 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a0800f4.html, səh. 5; HRW, *İraq Kürdüstanı: ərəblər didərgin salınır, mühasirə vəziyyətində yaşayır və həbs edilirlər*, 26 fevral 2015-ci il, http://www.refworld.org/docid/54f046494.html. Həmçinin yuxarıda bu bəndə bax: *"Əvvəllər İŞİD-in nəzarəti altında olmuş ərazilərdə mülki şəxslərlə rəftar"*.

[88] Cürf əl-Səhr şəhəri (azad edildikdən sonra adı dəyişdirilərək Cürf əl-Nəsr qoyulub) 2014-cü ilin iyunundan oktyabrın sonlarınadək İŞİD-in nəzarəti altında olub. Bax: "*Musings on Iraq*" bloqu, *Geriyə qayıdanların çoxalması İraqda didərginlərin sayının bir qədər azalmasına gətirib çıxarır*, 20 sentyabr 2016-cı il, http://bit.ly/2e32daD; MRGI, *İraqda didərginlik böhranı*, mart 2016-cı il, http://www.refworld.org/docid/573592d24.html, səh. 12; "*Musings on Iraq*" bloqu, *İraqın Cürf əl-Səhr şəhərinin (Babil vilayəti) azad edilməsi və bunun təsirləri*, 15 yanvar 2015-ci il, http://bit.ly/2dZueUk; "Röyters" agentliyi, *Xüsusi reportaj: İraqın "ölüm zonalarına" daxildən baxış*, 17 dekabr 2014-cü il, http://reut.rs/1uS4Knd; "Nyu-York Tayms" qəzeti, *Sünnilər İraqın Cürf əl-Səhr şəhərindən həmişəlik didərgin düşəcəklərindən qorxurlar,* 5 dekabr 2014-cü il, http://nyti.ms/1G1r6ux.

[89] Məsələn, *"İŞİD-ə müqavimət göstərmiş Cubiris əl-Alam tayfası İTQ tərəfindən İŞİD-dən geri alınmış Tikrit şəhəri yaxınlığında Albu Acil tayfasından olan sünniləri İŞİD-lə əməkdaşlıqda ittiham edərək onların öz evlərinə qayıtmalarının qarşısını almağa çalışır"*; *ISW, İraqda vəziyyətə dair hesabat: 28-30 iyul,* 30 iyul 2016-cı il, http://bit.ly/1Y459Ec. Həmçinin bax: *"Niqaş"* saytı, *"Oğlum gedib "İslam Dövləti" qruplaşmasına qoşuldu və indi mən cəhənnəm mühitində yaşayıram"*, 10 sentyabr 2015-ci il, www.niqash.org/+akof0; "Monitor" (*Al-Monitor*) elektron nəşri, *Didərgin düşmüş iraqlılar hələ də evlərinə qayıdacaqları anı gözləyirlər,* 24 iyun 2015-ci il, http://almon.co/2ghm.

[90] *ACAPS* (Potensialın Qiymətləndirilməsi Layihəsi), *Tematik hesabat: İraqın Kürdüstan bölgəsində didərginlik halları*, 24 avqust 2016-cı il, http://bit.ly/2e9P52l, səh. 3, 4-5; MRGI, *İraqda didərginlik böhranı*, mart 2016-cı il, http://www.refworld.org/docid/573592d24.html, səh. 25; OCHA, *İraq üçün humanitar reaksiya planı – 2016*, dekabr 2015-ci il, http://bit.ly/1U3LFAI, səh. 29.

[91] *"(...) Əl-Ənbar vilayətindən olan məcburi köçkünlər sünni olduqlarına (və qrup halında İŞİD-lə əlaqəli olmaqda və onu dəstəkləməkdə şübhəli bilindiklərinə) görə təzyiqlərə və ayrı-seçkiliyə məruz qalırlar"*; MRGI, *İraqda didərginlik böhranı*, mart 2016-cı il, http://www.refworld.org/docid/573592d24.html, səh. 11. *"Amma Əl-Ənbardakı qanlı toqquşmalardan qaçıb Bağdada yenicə gələnlər yalnız şübhələrlə və düşmənçiliklə qarşılaşırlar. (...) Köçkünlər şikayət edirlər ki, Bağdada gəlib çıxanlar onların "İslam Dövləti" qruplaşmasındakı sünni ekstremistlərlə bağlılıqları ola biləcəyindən ehtiyatlanan təhlükəsizlik qüvvələri və güclü şiə könüllü dəstələri tərəfindən təzyiqlərə məruz qalırlar"*; "Vaşinqton Post" qəzeti, *İraq sünniləri Əl-Ənbardan qaçdıqdan sonra Bağdadda yeni təhlükələrlə üzləşirlər,* 17 may 2015-ci il, http://wpo.st/kN6Q1. Həmçinin bax: UNAMI, *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin müdafiəsinə dair hesabat, 11 dekabr 2014-cü il – 30 aprel 2015-ci il,* 13 iyul 2015-ci il, http://www.refworld.org/docid/55a4b83c4.html, səh. 8.

da məcburi köçkünlərə qarşı öncədən mövcud olan mənfi münasibətin daha da güclənməsinə şərait yaradırlar.[92] Əl-Ənbar, Bağdad, Babil, Diyala, Kərkük və digər yerlərdə sünni ərəb mənşəli məcburi köçkünlərin həm dövlət, həm də qeyri-dövlət subyektləri tərəfindən təzyiqlərə, təhdidlərə, adam oğurluqlarına, özbaşına həbslərə məruz qalmaları, yurdlarından qovulmaları və qətlə yetirilmələri barədə məlumatlar var.[93] Məlumatlara əsasən Bağdadda sünni məcburi köçkünlərə təzyiq göstərilir ki, ancaq şiələrin yaşadığı və ya sünnilərlə şiələrin qarışıq halda yaşadığı məhəllələrin qonşuluğundakı ərazilərdən çıxıb getsinlər.[94] Məcburi köçkün düşərgələri hücumların hədəfinə çevrilib.[95] Məlumatlara görə həmçinin kişilərə və yaşı 15 və daha yuxarı

---

92 "Nyu-York Tayms" qəzeti, *İraqda İŞİD döyüşçüləri diqqəti Mosuldan yayındırmaq üçün Kərkükə hücum etdilər*, 21 oktyabr 2016-cı il, http://nyti.ms/2eqkDSh; "*Newsweek*" xəbər jurnalı, *ABŞ-ın dəstəklədiyi qüvvələr Mosula doğru irəliləməkdə davam etdiklərinə görə İŞİD qruplaşması şimali İraqın Kərkük şəhərinə hücum etdi*, 21 oktyabr 2016-cı il, http://bit.ly/2fsD5Lo; *təqdim edilmiş 3-cü məruzəsi*, 27 aprel 2016-cı il, http://www.refworld.org/docid/5731a1a14.html; 48-ci bənd; BMT-nin İnsan Hüquqları Şurası, *Məcburi köçkünlərin insan hüquqları üzrə xüsusi məruzəçinin məruzəsi,* 5 aprel 2016-cı il, http://www.refworld.org/docid/575fb7e14.html, 44-cü bənd; IRIN xəbər agentliyi, *BMT müşahidəçisi İraqı məcburi köçkünlərlə rəftara görə qınadı*, 19 may 2015-ci il, http://www.refworld.org/docid/555f1a6e4.html; "Assoşieyted Press" agentliyi, *Bağdad rəsmiləri silsilə bomba hücumlarına görə sünni məcburi köçkünləri ittiham edirlər*, 2 may 2015-ci il, http://bit.ly/1UriuYk; "Monitor" (*Al-Monitor*) elektron nəşri, *Əl-Ənbardan olan sünni məcburi köçkünlər məzhəb düşmənçiliyinə görə təhlükəsiz vəziyyətdə deyillər*, 1 may 2015-ci il, http://bit.ly/1pXVxj4.

93 *"Beynəlxalq Amnistiya Təşkilatı nəzarət-buraxılış məntəqələrində və yoxlama yerlərində XSB-lərin könüllü dəstələri tərəfindən tutulmuş məcburi köçkünlərin işgəncələrə məruz qalması və qeyri-rəsmi həbs yerlərində saxlanması hallarını, eləcə də Əl-Ənbar, Bağdad, Diyala və Səlahəddin vilayətilərində Müdafiə və Daxili İşlər Nazirliklərinin nəzarətində olan saxlanma müəssisələrində törədilmiş işgəncə və digər qəddar rəftar hallarını qeydə alıb. (...) Şahid ifadələri belə düşünməyə əsas verir ki, işgəncələr şübhəli şəxsləri təqsirkar olduqlarını "etiraf etməyə" və ya İŞİD və digər silahlı qruplar barədə məlumat verməyə məcbur etmək, habelə tutulmuş şəxsləri İŞİD tərəfindən törədilmiş cinayətlərə görə alçaltmaq və cəzalandırmaq üçün tətbiq edilir"*; Beynəlxalq Amnistiya Təşkilatı, *Didərgin düşmüş iraqlılar könüllü dəstələr və hökumət qüvvələri tərəfindən sui-istifadə hallarına məruz qalırlar*, 18 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5806051a4.html, səh. 8. *Çox zaman məcburi köçkünlər qanunsuz olaraq həbs edilir və bir çox hallarda məhkəmə araşdırması aparılmadan və ədliyyə sisteminə çıxış imkanı olmadan aylarla həbsdə saxlanılırlar. (...) Ən çox narahatlıq doğuran hal fiziki zorakılıqlardan geniş istifadəsi edilməsidir ki, bu barədə tutulmuş məcburi köçkünlər və şahidlər məlumat veriblər. Tutulmuş şəxsləri bədənlərinə elektrik cərəyanı buraxmaqla, yaxud qollarından və ya ayaqlarından asmaqla və döyməklə, üzərlərinə qaynar su tökməklə və yeməkdən məhrum etməklə cəzalandırırlar. İŞİD-lə əlaqəli olmaqda təqsirləndirilənlərin çoxu aylarla, yaxud bir ildən də artıq məhkəməsiz həbsdə saxlanılırlar. Tutulanlarla görüşmələrinə icazə verilmiş ailə üzvləri işgəncələrin əlamətlərinin şahidi olublar (...)"*; MRGI, *İraqda didərginlik böhranı*, mart 2016-cı il, http://www.refworld.org/docid/573592d24.html, səh. 20. Həmçinin eyni hesabatın 11-12 və 15-ci səhifələrinə bax. Həmçinin bax: "Atlantik" (*The Atlantic*) jurnalı, *İŞİD-in özündən sonra qoyduğu cəhənnəm*, may 2016-cı il, http://theatln.tc/1NaRaLC; ABŞ Dövlət Departamenti, *2015: Ölkələr üzrə məruzələr – İraq*, 13 aprel, 2016-cı il, http://www.state.gov/documents/organization/253137.pdf, səh. 13; BMT-nin İnsan Hüquqları Şurası, *Məcburi köçkünlərin insan hüquqları üzrə xüsusi məruzəçinin məruzəsi,* 5 aprel 2016-cı il, http://www.refworld.org/docid/575fb7e14.html, 45 və 47-ci bəndlər; UNAMI, *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin müdafiəsinə dair hesabat*, 11 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a09a304.html, səh. 20, 21, 22, 28, 31; "*Refugees International*" humanitar təşkilatı, *İraqdakı köçkünlər: Yardımların və seçim imkanlarının azlığı*, 2 noyabr 2015-ci il, http://www.refworld.org/docid/563868d14.html; HRW, *İraq: Məhdudiyyətlər müharibə köçkünlərini risk altında qoyur,* 30 may 2015-ci il, http://www.refworld.org/docid/556d6a344.html.

94 *"Əl-Ənbardan olan Bağdaddakı məcburi köçkünlər sadəcə doğulduqları yerlə əlaqədar olaraq adətən İŞİD-ə rəğbət bəsləməkdə şübhəli bilinirlər və bəzilərinin söylədiyinə görə bu səbəbdən şiə ərazilərindəki yerli sakinlər tərəfindən cəzalandırılırlar. Beləliklə, indi onlar ikinci didərginliklərini yaşayırlar"*; "*Refugees International*" humanitar təşkilatı, *İraqdakı köçkünlər: Yardımların və seçim imkanlarının azlığı*, 2 noyabr 2015-ci il, http://www.refworld.org/docid/563868d14.html, səh. 7. Həmçinin bax: UNAMI, *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin müdafiəsinə dair hesabat, 11 dekabr 2014-cü il – 30 aprel 2015-ci il*, 13 iyul 2015-ci il, http://www.refworld.org/docid/55a4b83c4.html; "Vaşinqton Post" qəzeti, *İraq sünniləri Əl-Ənbardan qaçdıqdan sonra Bağdadda yeni təhlükələrlə üzləşirlər*, 17 may 2015-ci il, http://wpo.st/kN6Q1; "Atlantik" (*The Atlantic*) jurnalı, *İŞİD-in özündən sonra qoyduğu cəhənnəm*, may 2016-cı il, http://theatln.tc/1NaRaLC.

95 Məsələn, Bağdaddakı Əl-Salam məcburi köçkün düşərgəsi üç ay ərzində üç dəfə hücumlara hədəf olub ki, nəticədə məcburi köçkünlər arasında itkilər olub; BMTTŞ, *Baş katibin 2299 (2016) saylı qətnaməyə uyğun olaraq təqdim edilmiş məruzəsi*, 25 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5821ca0f4.html, 16-cı bənd; UNAMI, *Əl-Salam düşərgəsindəki məcburi köçkün ailələrinə hücum*, 27 iyul 2016-cı il, http://bit.ly/2annlbp; BMT

olan oğlanlara təzyiq göstərilir ki, İŞİD tərəfdarları kimi qəbul edilməmək üçün tayfa qruplarına qoşulub İŞİD-lə döyüşsünlər.[96]

27. İraqın Kürdüstan bölgəsində (İKB) və KRH-nin faktiki nəzarəti altında olan ərazilərdə Kürdüstan təhlükəsizlik qüvvələri İŞİD-lə əlaqəsi olmaqda şübhəli bilinən sünni ərəb mənşəli məcburi köçkünləri əsassız olaraq tutmaqda və çox zaman hakimin qarşısına çıxarmadan uzun müddət həbsdə saxlamaqda təqsirləndirilirlər. Çox vaxt tutulanların yeri barədə ailələrinə məlumat verilmir.[97] Tutulanların işgəncələrə və qəddar rəftara məruz qalması halları barədə məlumatlar var.[98] Məlumatlara görə həbsdən azad edildikdən sonra onlar bölgəni tərk etməyə məcbur edilir və bir sıra hallarda ailə üzvləri ilə birlikdə çıxıb getməli olurlar ki, bu da bu şəxslərin münaqişə zonalarına geri göndəriləcəyi ilə bağlı narahatlıqları artırır.[99] Digərləri isə, məlumatlara görə, hökumətin həbsdə saxlanma yerlərində işgəncələrdən istifadənin geniş yayılması ilə bağlı narahatlıqlara baxmayaraq mərkəzi hökumət orqanlarına təhvil verilirlər.[100]

28. Məlumatlara əsasən İraq ərazisində çoxlu sayda məcburi köçkünlərin olması və sünni ərəblərin İŞİD-lə əlaqəli olmaları və ya ona rəğbət bəsləmələri barədə təsəvvürlərin çoxlarının şüurunda geniş yayılması Bağdadda və hökumətin nəzarəti altında olan digər ərazilərdə yaşayan və məcburi köçkün olmayan sünni ərəblərin və sünni türkmənlərin Terrorizm əleyhinə 2005-ci il tarixli qanun (2005-ci il tarixli 13 saylı qanun) əsasında həbsə alınması hallarının artmasına gətirib çıxarıb.[101] Hesabatlarda belə qənaətə gəlinir ki, Terrorizm əleyhinə qanun əsasında həbsə alınanlar çox vaxt uzun müddət məhkəməyə qədər həbsdə saxlanılır və vəkillə görüşmək, tibbi

---

QAK, *Əl-Salam düşərgəsindəki məcburi köçkün ailələrinə hücumla əlaqədar BMT QAK-ın bəyanatı*, 5 iyul 2016-cı il, http://bit.ly/2aTJqNa.

[96] Məlumatlara əsasən Havicada (Kərkük vilayəti) bir çox məcbur köçkünləri 2014-cü ilin iyunundan bəri İŞİD-in nəzarəti altında olmuş rayon olan Havicanın əhalisi barədə geniş yayılmış təsəvvürlərin əksinə olaraq əslində İŞİD-in tərəfdarı olmadıqlarını sübut etmək üçün silahlı tayfa qüvvələrinə qoşulmağa məcbur olurlar. Həmin qüvvələrin sırasına yaşı 15-dən aşağı olan oğlanların da qoşulduğu barədə məlumatlar var; BMT QAK-ın məlumatları, noyabr 2016-cı il. Həmçinin bax: OCHA, *Uşaqların döyüşçülər sırasına cəlb edilməsinin qarşısını almaq və İraqda beynəlxalq humanitar hüququ müdafiə etmək üçün mümkün olan hər şey edilməlidir*, 31 avqust 2016-cı il, http://bit.ly/2ejX564.

[97] Beynəlxalq Amnistiya Təşkilatı, *Didərgin düşmüş iraqlılar könüllü dəstələr və hökumət qüvvələri tərəfindən sui-istifadə hallarına məruz qalırlar*, 18 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5806051a4.html, səh. 38-40, 42-43. Həmçinin bax: ABŞ Dövlət Departamenti, *2015: Ölkələr üzrə məruzələr – İraq*, 13 aprel, 2016-cı il, http://www.state.gov/documents/organization/253137.pdf, səh. 16, 18, 20; BMT-nin İnsan Hüquqları Şurası, *Məcburi köçkünlərin insan hüquqları üzrə xüsusi məruzəçisinin məruzəsi,* 5 aprel 2016-cı il, http://www.refworld.org/docid/575fb7e14.html, 45 və 66-cı bəndlər; HRW, *İraq Kürdüstanı: ərəblər didərgin salınır, mühasirə vəziyyətində yaşayır və həbs edilirlər*, 26 fevral 2015-ci il, http://www.refworld.org/docid/54f046494.html.

[98] Beynəlxalq Amnistiya Təşkilatı, *Didərgin düşmüş iraqlılar könüllü dəstələr və hökumət qüvvələri tərəfindən sui-istifadə hallarına məruz qalırlar*, 18 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5806051a4.html, səh. 8, 47-48; ABŞ Dövlət Departamenti, *2015: Ölkələr üzrə məruzələr – İraq*, 13 aprel, 2016-cı il, http://www.state.gov/documents/organization/253137.pdf, səh. 8, 9; HRW, *İraq Kürdüstanı: ərəblər didərgin salınır, mühasirə vəziyyətində yaşayır və həbs edilirlər*, 26 fevral 2015-ci il, http://www.refworld.org/docid/54f046494.html.

[99] BMT QAK-ın məlumatları, noyabr 2016-cı il. Həmçinin bax: NINA xəbər agentliyi, *Peşmərgələr bomba partlayışına görə 15 ərəb ailəsini deportasiya etdilər*, 6 sentyabr 2016-cı il, http://bit.ly/2ev4SwJ.

[100] Beynəlxalq Amnistiya Təşkilatı, *Didərgin düşmüş iraqlılar könüllü dəstələr və hökumət qüvvələri tərəfindən sui-istifadə hallarına məruz qalırlar*, 18 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5806051a4.html, səh. 47-48.

[101] BMT və hüquq müdafiə təşkilatları qanunvericilikdə terrorizmin anlayışının geniş çərçivəli olmasından və "terror aktları" kimi müəyyənləşdirilən bir çox müxtəlif hərəkətlərə görə ölüm cəzasının mütləq qaydada təyin edilməsindən narahatlıqlarını ifadə ediblər; BMT-nin İnsan Hüquqları Komitəsi, *İraqın 5-ci dövri məruzəsinə dair yekun qeydlər*, 6 noyabr 2015-ci il, CCPR/CO/IRQ/5, http://www.refworld.org/docid/5669387c4.html (bundan sonra belə adlandırılacaq: BMT-nin İnsan Hüquqları Komitəsi, *İraqın 5-ci dövri məruzəsinə dair yekun qeydlər*, 6 noyabr 2015-ci il, http://www.refworld.org/docid/5669387c4.html), 9 və 27-ci bəndlər; BMT-nin Baş Assambleyası, *BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının hesabatı*, 27 iyul 2015-ci il, http://www.refworld.org/docid/55f7f4c74.html, 78-ci bənd.

yardım almaq və ya ailə üzvləri ilə görüşmək imkanına malik olmurlar.[102] Məlumatlara əsasən Terrorizm əleyhinə qanun əsasında həbsə alınanların saxlanma şəraiti xüsusilə ağırdır.[103] Məlumatlara görə tutulma zamanı və Daxili İşlər Nazirliyinin və Müdafiə Nazirliyinin məhkəməyə qədər həbsdə saxlanma müəssisələrində saxlanma zamanı çox zaman etiraflar almaq üçün işgəncələrdən və digər qəddar rəftar formalarından istifadə edilməsi geniş yayılıb.[104] Məlumatlarda deyilir ki, bəzən məhbuslar, o cümlədən uşaqlar qeyr-rəsmi saxlanma yerlərində saxlanılırlar ki, bu da onları, yəqin ki, daha böyük risk altında qoyur.[105] İşgəncə nəticəsində sünni kişilərin saxlanma yerlərində öldükləri barədə məlumatlar var.[106] Saxlanma yerlərində və həbsxanalarda saxlanma şəraitinin "*ağır və həyat üçün təhlükəli*" olduğu bildirilir ki, bunun da səbəbi qida çatışmazlığı, məhbusların sayının həddən artıq çox olması, sanitariya qovşağından və tibbi yardımdan yetərincə istifadə etmək imkanının olmaması, habelə işgəncələrdən və digər qəddar rəftar formalarından geniş istifadə edilməsidir.[107] Məlumatlara əsasən məhbusların və xüsusən Terrorizm əleyhinə qanun əsasında həbsə alınanların ədalətli məhkəmə araşdırması hüququnun kobud şəkildə pozulması halları cinayət ədliyyəsi sisteminin ciddi qüsuru olaraq

---

[102] *"Tutulmuş şəxslər, **xüsusən terrorizmdə şübhəli bilinənlər** tutulduqdan sonra Daxili İşlər və Müdafiə Nazirliklərinin nəzarəti altında olan və prokurorluq və ya hər hansı monitorinq qurumu tərəfindən yoxlanması mümkünsüz olan məxfi həbsxanalarda həftələrlə və ya aylarla ətraf aləmdən təcrid olunmuş halda, çox zaman zorla yoxa çıxarılma hallarına bərabər olan şəraitdə saxlanılırlar"* (tünd kursiv əlavə olunub); Beynəlxalq Amnistiya Təşkilatı, *Beynəlxalq Amnistiya Təşkilatının hesabatı, 2015/2016 – İraq,* 24 fevral 2016-cı il, http://www.refworld.org/docid/56d05b4a9.html. Həmçinin bax: ABŞ Dövlət Departamenti, *2015: Ölkələr üzrə məruzələr – İraq,* 13 aprel, 2016-cı il, http://www.state.gov/documents/organization/253137.pdf, səh. 16-18; MRGI, *İraqda didərginlik böhranı*, mart 2016-cı il, http://www.refworld.org/docid/573592d24.html, səh. 20; BMT-nin İnsan Hüquqları Komitəsi, *İraqın 5-ci dövri məruzəsinə dair yekun qeydlər,* 6 noyabr 2015-ci il, http://www.refworld.org/docid/5669387c4.html, 33-cü bənd; BMT-nin İşgəncələrə qarşı Komitəsi, *İraqın ilkin məruzəsinə dair yekun qeydlər:* 7 sentyabr 2015-ci il, http://www.refworld.org/docid/57a9c1a24.html, 14-cü bənd; UNAMI, *İraqda ölüm cəzası ilə bağlı məruzə,* oktyabr 2014-cü il, http://www.refworld.org/docid/5445189a4.html, səh. 2, 13.

[103] ABŞ Dövlət Departamentinin bildirdiyinə görə, Terrorizm əleyhinə qanun əsasında həbsə alınanlar digər məhbuslardan ayrı saxlanılır və "*böyük ehtimalla Daxili İşlər Nazirliyinin saxlanma müəssisələrində daha ağır şəraitdə qalırlar*"; ABŞ Dövlət Departamenti, *2015: Ölkələr üzrə məruzələr – İraq,* 13 aprel, 2016-cı il, http://www.state.gov/documents/organization/253137.pdf, səh. 10.

[104] *"İnsan Hüquqları üzrə Nazirlik təsdiq edib ki, həbsxanalarda və saxlama mərkəzlərində işgəncə və sistematik zorakılıq halları geniş yayılıb. Beynəlxalq hüquq müdafiə təşkilatları Daxili İşlər Nazirliyinin müəssisələrində işgəncə və zorakılıq hallarının mötəbər sübutlarla təsdiqlənən nümunələrini qeydə alıblar, belə hallar nisbətən az sayda Ədliyyə və Daxili İşlər Nazirliklərinin saxlama müəssisələrində də qeydə alınıb"* (...); ABŞ Dövlət Departamenti, *2015: Ölkələr üzrə məruzələr – İraq,* 13 aprel, 2016-cı il, http://www.state.gov/documents/organization/253137.pdf, səh. 8. Həmçinin eyni məruzənin 3, 9, 15 və 25-ci səhifələrinə və bu mənbəyə bax: Beynəlxalq Amnistiya Təşkilatı, *Beynəlxalq Amnistiya Təşkilatının hesabatı, 2015/2016 – İraq*, 24 fevral 2016-cı il, http://www.refworld.org/docid/56d05b4a9.html; BMT-nin İşgəncələrə qarşı Komitəsi, *İraqın ilkin məruzəsinə dair yekun qeydlər:* 7 sentyabr 2015-ci il, http://www.refworld.org/docid/57a9c1a24.html, 15-ci bənd; UNAMI, *İraqda ölüm cəzası ilə bağlı məruzə,* oktyabr 2014-cü il, http://www.refworld.org/docid/5445189a4.html, səh. 13, 24-25.

[105] BMT-nin Baş katibi, *Uşaqlar və İraqda silahlı münaqişə ilə əlaqədar Baş katibin məruzəsi*, 9 noyabr 2015-ci il, S/2015/852, http://www.refworld.org/docid/565fe2094.html, 39-cu bənd; BMT-nin İnsan Hüquqları Komitəsi, *İraqın 5-ci dövri məruzəsinə dair yekun qeydlər,* 6 noyabr 2015-ci il, http://www.refworld.org/docid/5669387c4.html, 33-cü bənd; BMT-nin İşgəncələrə qarşı Komitəsi, *İraqın ilkin məruzəsinə dair yekun qeydlər:* 7 sentyabr 2015-ci il, http://www.refworld.org/docid/57a9c1a24.html, 16-cı bənd; Beynəlxalq Amnistiya Təşkilatı, *BMT-nin İnsan Hüquqları Komitəsinə təqdim edilmiş sənəd*, 9 iyun 2015-ci il, http://www.refworld.org/docid/5667dd314.htm, səh. 5, 7, 9.

[106] ABŞ Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il hesabatı: İraq,* 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add86b59.html; BMT-nin İşgəncələrə qarşı Komitəsi, *İraqın ilkin məruzəsinə dair yekun qeydlər:* 7 sentyabr 2015-ci il, http://www.refworld.org/docid/57a9c1a24.html, 19-cu bənd.

[107] ABŞ Dövlət Departamenti, *2015: Ölkələr üzrə məruzələr – İraq,* 13 aprel, 2016-cı il, http://www.state.gov/documents/organization/253137.pdf, səh. 9-10. Həmçinin bax: HRW, *"Heç kim təhlükədən kənarda deyil" – İraqın cinayət ədliyyəsi sistemində qadınlara qarşı sui-istifadə halları*, 6 fevral 2014-cü il, http://www.refworld.org/docid/52f4d10a4.html, səh. 67-71. QHT-lər məlumat verirlər ki, həbsxanalar İŞİD tərəfindən tutulduğuna görə qalan həbsxanalarda ciddi məhbus sıxlığı yaranıb; ABŞ Dövlət Departamenti, *2015: Ölkələr üzrə məruzələr – İraq,* 13 aprel, 2016-cı il, http://www.state.gov/documents/organization/253137.pdf, səh. 10.

qalmaqdadır.[108] Məlumatlarda bildirilir ki, müttəhimlər doğruluğu şübhə doğuran etiraflar əsasında məhkum olunur, o cümlədən uzun müddətə azadlıqdan məhrum edilir və ya ölüm cəzası alırlar.[109] Prosessual təminatların və ədalətli məhkəmə araşdırmasının olmaması ilə bağlı narahatlıqlar səbəbindən bütün ölüm cəzalarına və edamlara moratorium qoymaq barədə BMT və hüquq müdafiə təşkilatları tərəfindən dəfələrlə edilmiş çağırışlara baxmayaraq, məlumatlara görə ölüm cəzasından geniş istifadə edilir və ölün hökmlərinin çoxu Terrorizm əleyhinə qanun əsasında çıxarılır.[110] BMT-nin İşgəncələr əleyhinə Komitəsinin bildirdiyinə görə, "*terrorçu olduğu iddia edilən şəxslərin və yüksək dərəcədə təhlükəli sayılan digər şəxslərin, o cümlədən yetkinlik yaşına çatmayanların heç bir həbs qərarı olmadan həbsə alınması, ətraf aləmdən tam təcrid olunmuş saxlanma yerlərində və ya gizli saxlanma mərkəzlərində uzun müddətə ərzində saxlanması və bu müddətdə etirafların alınması üçün amansız işgəncələrə məruz qalması daimi hal alıb*".[111] Məsələn, 21 avqust 2016-cı ildə Ədliyyə Nazirliyi elan etdi ki, Tikrit yaxınlığında (Səlahəddin vilayəti) Şpayxer hərbi düşərgəsində təxminən 1.700 nəfər hərbi kursantın qətli ilə bağlı məhkum edilmiş 36 şəxs asılmaqla edam ediliblər. Çoxları qeyd etdilər ki, cəmi bir neçə saat davam etmiş məhkəmə araşdırması prosessual təminatların və ədalətli məhkəmə araşdırması standartlarının olmadığı bir proses idi və məlumatlara əsasən, çıxarılmış hökmlər "işgəncə" altında alınmış etiraflara əsaslanmışdı.[112] Terror aktları kimi müəyyən edilən bir çox hərəkətlərə görə ölüm hökmünün təyin olunması məcburidir və qanun əsasında ölüm cəzasına məhkum

---

[108] *"İraqda cinayət ədliyyəsi sistemi ciddi surətdə korlanmış vəziyyətdədir. Məhkəmə araşdırmalarının, xüsusən Terrorizm əleyhinə qanunda nəzərdə tutulan ittihamlarla üzləşən və ölüm cəzası ala biləcək müttəhimlərin məhkəmə proseslərinin olduqca ədalətsiz aparılması mümkündür və çox zaman məhkəmələr işgəncə altında alınmış ifadələri, hətta müttəhimlər məhkəmədə həmin "etiraflarından" imtina etdikləri hallarda da, sübut qismində qəbul edirlər"*; Beynəlxalq Amnistiya Təşkilatı, *İraq: Edamlar ölümlə nəticələnən növbəti hücumların qarşısını almayacaq*, 5 iyul 2016-cı il, http://www.refworld.org/docid/577fc3e24.html. Həmçinin bax: ABŞ Dövlət Departamenti, *2015: Ölkələr üzrə məruzələr – İraq,* 13 aprel, 2016-cı il, http://www.state.gov/documents/organization/253137.pdf, səh. 18; BMT-nin İnsan Hüquqları Komitəsi, *İraqın 5-ci dövri məruzəsinə dair yekun qeydlər*, 6 noyabr 2015-ci il, http://www.refworld.org/docid/5669387c4.html, 35-ci bənd; Beynəlxalq Amnistiya Təşkilatı, *BMT-nin İnsan Hüquqları Komitəsinə təqdim edilmiş sənəd*, 9 iyun 2015-ci il, http://www.refworld.org/docid/5667dd314.htm, səh. 10-12.

[109] Məlumatlara əsasən, hakimlər müttəhimlərin işgəncələr barəsində məhkəməyə verdikləri məlumatlarla bağlı araşdırma aparılmasına dair göstəriş verməkdən mütəmadi olaraq imtina edirlər; ABŞ Dövlət Departamenti, *2015: Ölkələr üzrə məruzələr – İraq,* 13 aprel, 2016-cı il, http://www.state.gov/documents/organization/253137.pdf, səh. 16; Beynəlxalq Amnistiya Təşkilatı, *Beynəlxalq Amnistiya Təşkilatının hesabatı, 2015/2016 – İraq,* 24 fevral 2016-cı il, http://www.refworld.org/docid/56d05b4a9.html; HRW, Ümumdünya hesabatı, *2016-cı il – İraq,* 27 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56bd99386.html; BMT-nin İnsan Hüquqları Komitəsi, *İraqın 5-ci dövri məruzəsinə dair yekun qeydlər,* 6 noyabr 2015-ci il, http://www.refworld.org/docid/5669387c4.html, 29-cu bənd; UNAMI, *İraqda ölüm cəzası ilə bağlı məruzə,* oktyabr 2014-cü il, http://www.refworld.org/docid/5445189a4.html, səh. 24 və 146-cı mətnaltı qeyd.

[110] *"Məhkəmə araşdırmalarının, xüsusən terrorizm ittihamları ilə üzləşən və ya və ölüm cəzası ala biləcək müttəhimlərin məhkəmə prosesləri sistematik olaraq ədalətsiz aparılır və çox zaman məhkəmələr işgəncə altında alınmış "etirafları" sübut qismində qəbul edirlər"*; Beynəlxalq Amnistiya Təşkilatı, *Beynəlxalq Amnistiya Təşkilatının hesabatı, 2015/2016 – İraq,* 24 fevral 2016-cı il, http://www.refworld.org/docid/56d05b4a9.html. Həmçinin bax: BMTTŞ, *Baş katibin 2299 (2016) saylı qətnaməyə uyğun olaraq təqdim edilmiş məruzəsi*, 25 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5821ca0f4.html, 49-cu bənd; BMT-nin xəbərlər mərkəzi, *BMT-nin insan hüquqları qurumunun rəhbəri İraqda edam cəzalarının tez-tez təyin edilməsi ilə bağlı narahatlığını ifadə etdi,* 1 avqust 2016-cı il, http://www.refworld.org/docid/57a0385840c.html; Beynəlxalq Amnistiya Təşkilatı, *İraq: 2016-cı ildə "terror" maddələri üzrə aparılan məhkəmə araşdırmalarında ölüm cəzaları heyrətamiz dərəcədə artaraq ən yüksək həddə – 90-a yüksəldi,* 18 fevral 2016-cı il, http://www.refworld.org/docid/56cc23b74.html.

[111] BMT-nin İşgəncələrə qarşı Komitəsi, *İraqın ilkin məruzəsinə dair yekun qeydlər:* 7 sentyabr 2015-ci il, http://www.refworld.org/docid/57a9c1a24.html, 16-cı bənd.

[112] Beynəlxalq Amnistiya Təşkilatı, *İraq: Edamlar təhlükəsizliyə qarşı təhdidləri aradan qaldırmayacaq*, 22 avqust 2016-cı il, http://www.refworld.org/docid/57bd533e4.html; BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 3-cü məruzəsi,* 27 aprel 2016-cı il, http://www.refworld.org/docid/5731a1a14.html, 51-ci bənd; ABŞ Dövlət Departamenti, *2015: Ölkələr üzrə məruzələr – İraq,* 13 aprel, 2016-cı il, http://www.state.gov/documents/organization/253137.pdf, səh. 19-20; UNAMI, *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin müdafiəsinə dair hesabat,* 11 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a09a304.html, 40-cı mətnaltı qeyd; HRW, *İraq: kursantların kütləvi qətli ilə bağlı məhkəmə hökmü ləğv olunmalıdır,* 15 iyul 2015-ci il, http://www.refworld.org/docid/55acfac74.html.

olunanlar insan hüquqlarına dair beynəlxalq normalar əsasında tələb olunan mərhəmət və ya əfv üçün müraciət etmək hüququna malik deyillər.[113]

29. Məlumatlara əsasən 2014-cü ildən bəri Bağdadda və hökumətin nəzarəti altında olan digər İraq ərazilərində sünni ərəblərə qarşı yönəlmiş zorakılıqların yeni dalğası baş qaldırıb, belə ki, sünni ərəblər ölümlə hədələnir, evləri uçurulur, yurdlarını tərk etməyə məcbur edilir,[114] oğurlanır, itkin düşür və məhkəməsiz edam olunurlar.[115] Məlumatlara görə məcburi köçkünlər də daxil olmaqla sünni mülki şəxslər İŞİD-in şiə mülki şəxslərə qarşı yönəlmiş hücumlarından sonra açıq-aydın qisas aktı olaraq İTQ tərəfindən və XSB-lərlə əlaqəli qüvvələr tərəfindən məqsədyönlü şəkildə qətlə yetirilir, evləri, dükanları və məscidləri dağıdılır.[116] 2014-cü ildən bəri Bağdadda fələstinli qaçqınlar vətəndaşlıq mənsubiyyətləri əsasında və İŞİD-lə əlaqəli şəxslər kimi qəbul edilmələri əsasında getdikcə daha çox məqsədyönlü hücumların hədəfinə çevriliblər, o cümlədən həm dövlət, həm də qeyri-dövlət subyektləri tərəfindən təzyiqlərə, təhdidlərə, əsassız həbslərə, Terrorizm əleyhinə qanun əsasında uzun müddət həbsdə saxlanılmağa, fiziki zorakılıqlara, adam oğurluğuna, pulqoparma hallarına, qətllərə, eləcə də evlərində axtarışlar aparılmasına məruz qalıblar.[117]

[113] MSHBP-nin 6-cı maddəsinin 4-cü bəndinin tələbinə əsasən, ölüm cəzasına məhkum olunmuş hər kəs cəzasının yüngülləşdirilməsi və ya əfv edilməsi üçün müraciət etmək hüququna malikdir. Bax: *İraq Respublikasının Konstitusiyası,* 15 oktyabr 2005-ci il, http://www.refworld.org/docid/454f50804.html, maddə Article 73(1).

[114] Məsələn, 21 oktyabr 2016-cı ildə İŞİD-in Kərkükə etdiyi hücuma cavab olaraq ərəblərin çoxluq təşkil etdiyi dörd kənddə (Qaratəpə, Ved Huzayran, Qutans və Quşqay) evlər dağıdıldı, nəticədə 1.100-dən artıq ailə didərgin düşdü; BMT QAK-ın məlumatları, noyabr 2016-cı il. Həmçinin bax: HRW, Çarpaz xətlə ("X") nişanlanmış evlər: *İraq kürd qüvvələri İŞİD-lə münaqişənin gedişində kəndləri, evləri dağıdırlar,* 13 noyabr 2016-cı il, http://www.refworld.org/docid/582979404.html; Beynəlxalq Amnistiya Təşkilatı, *"Biz haraya gedək?" Kərkükdə evlərin dağıdılması və insanların zorla didərgin salınması,* 7 noyabr 2016-cı il, http://www.refworld.org/docid/5820812db.html, səh. 10-13.

[115] *"Bir il əvvəl İŞİD ölkənin böyük bir hissəsini tutandan bəri İraq zorakılıqlar burulğanının girdabındadır. İŞİD-in dəhşətli cinayətlərinin qarşılığında şiə könüllü dəstələrin məzhəb zəminində hücumları baş verir, onlar sünni ərəbləri hədəfə almaqla İŞİD-in cinayətlərinin qisasını onlardan alırlar"*; *Ölüm saçan məzhəb zorakılıqları burulğanı – İŞİD-in İraqa hücumundan bir il keçdi,* 10 iyun 2015-ci il, http://www.refworld.org/docid/557a90684.html. Həmçinin bax: HRW, *KRH: kürd qüvvələri ərəbləri Kərkükdən qovurlar,* 3 noyabr 2016-cı il, http://www.refworld.org/docid/581c95834.html; Beynəlxalq Amnistiya Təşkilatı, *Didərgin düşmüş iraqlılar könüllü dəstələr və hökumət qüvvələri tərəfindən sui-istifadə hallarına məruz qalırlar,* 18 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5806051a4.html, səh. 28-31; BMT QAK, *İŞİD-in əlində olan ərazilərdən olan sünni ərəblər üçün Bağdadda ölkədaxili köçürülmə və ya yerdəyişmə alternativinin mümkünlüyünün qiymətləndirilməsi üçün mənşə ölkəsi barədə müvafiq məlumatlar,* may 2016-cı il, http://www.refworld.org/docid/575537dd4.html, 4-10-cu bəndlər; BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 3-cü məruzəsi,* 27 aprel 2016-cı il, http://www.refworld.org/docid/5731a1a14.html, 22-ci bənd.

[116] Məsələn, 2016-cı ilin yanvarında və fevralında Əl-Muqdadiyə şəhərində (Diyala vilayəti) İŞİD-in şiə hədəflərinə etdiyi hücumlar sünnilərə qarşı qisas hücumları ilə nəticələndi, o cümlədən qətllər törədildi, evlər, dükanlar və məscidlər yandırıldı; BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 3-cü məruzəsi,* 27 aprel 2016-cı il, http://www.refworld.org/docid/5731a1a14.html, 20-ci bənd; Beynəlxalq Amnistiya Təşkilatı, *İraq: Əl-Muqdadiyədə könüllü dəstələrin hərbi cinayətləri hakimiyyət orqanlarının onları məsuliyyətə cəlb etmək məsələsində davamlı uğursuzluqlarını qabartmış oldu,* 5 fevral Əl-Muqdadiyə, http://www.refworld.org/docid/580606624.html; HRW, *İraq: Şiə könüllü dəstələrinin güman edilən hərbi cinayətləri,* 31 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56b11e5d12d7.html. 26 yanvar 2015-ci ildə "Barvan qırğını" deyilən hadisə baş verdi, belə ki, məlumatlara görə İTQ və XSB-lər Barvanda (Diyala vilayəti) azı 56 sünni müsəlmanı məhkəməsiz edam etdilər və iddialara əsasən, bu, öncəki günlərdə İTQ və XSB-lərin üzvlərinin qətllərinə görə qisas aktı idi; bax: Beynəlxalq Amnistiya Təşkilatı, *İraq: Barvan qırğını ilə bağlı yarıtmaz araşdırma – ailələr ədalət mühakiməsinin həyata keçirilməsini gözləyirlər,* 10 iyun 2015-ci il, http://www.refworld.org/docid/5667dc924.html; HRW, *İraq: Könüllü dəstələrin zorakılıqları və güman edilən hərbi cinayətləri artır,* 15 fevral 2015-ci il, http://www.refworld.org/docid/54e48d334.html. Həmçinin bax: MRGI, *İraqda didərginlik böhranı,* mart 2016-cı il, http://www.refworld.org/docid/573592d24.html, səh. 11, 13, 22.

[117] BMT QAK-ın məlumatları, noyabr 2016-cı il. Həmçinin bax: ABŞ Dövlət Departamenti, *2015: Ölkələr üzrə məruzələr – İraq,* 13 aprel, 2016-cı il, http://www.state.gov/documents/organization/253137.pdf, səh. 42; Əl-Karama Fondu, *İraq: 8 iyul 2015-ci ildən bəri Bağdadda fələstinli qaçqınların zorla yoxa çıxarılması,* 27 noyabr

30. Məlumatlara əsasən ərazilər İŞİD-dən geri alındıqca yerli hakimiyyət orqanları məcburi köçkünləri, xüsusən sünni ərəbləri öz mənşə ərazilərinə qayıtmağa açıq şəkildə məcbur edir, yaxud açıq şəkildə məcbur etməsələr də bunun üçün onlara getdikcə artan təzyiqlər göstərirlər.[118] Məlumatlara görə istifadə edilən təzyiq vasitələri sırasına digərləri ilə yanaşı bunlar daxildir: ərazini tərk etmək üçün qoyulmuş müddətin bitmə tarixi barədə xəbərdarlıq etmə, narahatlıqlar yaratma, evdən məcburi çıxarma, şəxsiyyət sənədlərinin alınması, qanuni sənədlər olmadığına görə və ya Terrorizm əleyhinə qanun əsasında həbsə alma, habelə getdikcə daha çox hallarda evlərin dağıdılması və mənşə ərazilərinə zorla qaytarılma və ya zorla məcburi köçkün düşərgələrinə yerləşdirilmə.[119] Belə qayıdışlar yüksək dərəcədə təkrar didərginlik riskini özündə daşıyır.[120]

---

205-ci il, http://bit.ly/2frXpwB; "Landinfo" təşkilatı (mətn Norveç dilindədir), *İraq: Bağdaddakı fələstinlilərə qarşı yönələn cavab addımları*, iyun 2015-ci il, http://landinfo.no/asset/3158/1/3158_1.pdf, səh. 2-3.

[118] Məlumatlara görə məcburi köçkünlərə qarşı məcburedici tədbirlər əsasən Kərkükdə tətbiq edilir, lakin Babildə, Bağdadda və Kərbəlada da belə hallar var; BMT QAK-ın məlumatları, noyabr 2016-cı il. Həmçinin bax: BMT QAK, *Mosuldan didərgin düşənlərin himayəsi ilə bağlı yenilənən həftəlik xəbərlər (29 oktyabr – 4 noyabr 2016-cı il)*, 4 noyabr 2016-cı il, http://bit.ly/2fsroVl; "Monitor" (*Al-Monitor*) elektron nəşri, *İraqın Kərbəla şəhəri məcburi köçkünlərin qayıtmasına səs verdi*, 22 iyul 2016-cı il, http://bit.ly/2a0iQ50; BMT QAK, *İraqa dair məlumat vərəqəsi*, sentyabr 2016-cı il, http://bit.ly/2dNYG43; BMT QAK, *İraq: Yenilənən xəbərlər*, 15 avqust 2016-cı il, http://www.refworld.org/docid/57b70b3fa.html, səh. 2; BMT QAK, *İraq: Yenilənən xəbərlər*, 21 iyul 2016-cı il, http://www.refworld.org/docid/579217304.html, səh. 2; ABŞ Dövlət Departamenti, *2015: Ölkələr üzrə məruzələr – İraq*, 13 aprel, 2016-cı il, http://www.state.gov/documents/organization/253137.pdf, səh. 62; *Humanitar tələbatların icmalı – 2016*, noyabr 2015-ci il, http://bit.ly/1RoAqvO, səh. 16.

[119] Məsələn, məlumatlara görə Kərkükdə ərəb məcburi köçkünlərə geri qayıtmaları üçün həm şəhər yerlərində, həm də məcburi köçkün düşərgələrində təzyiq göstərilir. 2016-cı ilin sentyabrının əvvəllərində Kərkükün hakimiyyət orqanları geniş miqyaslı məcburi qayıdış kampaniyasına başladılar ki, bu da 2016-cı ilin oktyabrının sonunadək yüzlərlə məcburi köçkün ailəsinin sənədlərinin müsadirə olunması və ərazidən çıxarılması ilə nəticələndi. 2016-cı ilin sentyabrının sonlarınadək yüksək rəhbərlik səviyyəsində görülmüş müdafiə tədbirləri bəzi ərazilərdə (Fəllucədə və Səlahəddinin bir hissəsində) məcburi köçkünlərin zorla geri qaytarılmasının müvəqqəti dayandırılmasına gətirib çıxardı, amma digər ərazilərdə məcburi köçkünlərin geri qayıtmağa məcbur edilməsi halları davam etməkdədir. Məlumatlara əsasən 2016-cı il sentyabrın 1-dən oktyabrın 12-dək 2.600-dən çox məcburi köçkün ailəsi Diyala, Səlahəddin, Əl-Ənbar və Neynəva vilayətlərinə, o cümlədən yalnız bu yaxınlarda İŞİD-dən geri qalınmış Hacı Əli və Qayyara (Neynəva vilayəti) kimi ərazilərə qayıtmağa məcbur edildilər. İŞİD-in Kərkükə 21 oktyabr 2016-cı il tarixli hücumuna cavab olaraq yerli hakimiyyət orqanları Kərkükdəki düşərgələrdən kənarda yaşayan bütün məcburi köçkünlərin yaşayış yerlərini boşaltmalarını və doğma yerlərinə qayıtmalarını əmr etdilər. Bildirildi ki, əmrə tabe olmayanlar evlərindən zorla çıxarılacaq, evi isə uçurulacaq. 2016-cı il oktyabrın 22-dən 29-dək düşərgələrdə yaşamayan məcburi köçkünlərin hamısına, amma əsas etibarı kürdlərin çoxluq təşkil etdiyi ərazilərdə yaşayanlara Kərkükü tərk etmək əmri verildi, onlardan 6.400-dən artıq insan deportasiya olundu. Eynilə, Kərkükdə, Sədiyədə və Xanagində (Diyala vilayəti) təhlükəsizlik insidentləri artdıqdan sonra 24 oktyabr 2016-cı ildə Xanaginin meri belə bir sərəncam qəbul etdi ki, Xanagin şəhəri yaxınlığındakı kəndlərdə yaşayan 10.000-ə yaxın məcburi köçkün ya düşərgələrə köçsün, ya da öz doğma yerlərinə qayıtsın. 26 oktyabr 2016-cı ildə Xanaginin təhlükəsizlik şurası muxtarlara (icma rəhbərlərinə) Xanagin ətrafındakı kəndlərdə yaşayan bütün məcburi köçkünlərin siyahısını tərtib etmək göstərişi verdi və bildirdi ki, öz doğma ərazilərinə qayıtmaları üçün icazəsi olan məcburi köçkünlərin daha Xanagin rayonunda yaşamalarına icazə verilmir. Bu mətn hazırlandığı zaman göstəriş hələ icra olunmamışdı; lakin 25 ailə artıq düşərgələrə köçmüşdü; BMT QAK-ın məlumatları, noyabr 2016-cı il. Həmçinin bax: HRW, Çarpaz xətlə ("X") nişanlanmış evlər: *İraq kürd qüvvələri İŞİD-lə münaqişənin gedişində kəndləri, evləri dağıdırlar*, 13 noyabr 2016-cı il, http://www.refworld.org/docid/582979404.html; Beynəlxalq Amnistiya Təşkilatı, *"Biz haraya gedək?" Kərkükdə evlərin dağıdılması və insanların zorla didərgin salınması*, 7 noyabr 2016-cı il, http://www.refworld.org/docid/5820812db.html; HRW, *KRH: kürd qüvvələri ərəbləri Kərkükdən qovurlar*, 3 noyabr 2016-cı il, http://www.refworld.org/docid/581c95834.html; BMT QAK, *İraq: Vəziyyətə dair yenilənən məlumatlar*, 26 oktyabr 2016-cı il, http://bit.ly/2e5C8er; OHCHR, *Mətbuat üçün brifinqdən qeydlər: İraq və Cənubi Sudan*, 25 oktyabr 2016-cı il, https://shar.es/1IqtVn. 28 avqust 2016-cı ildə Eyn Əl-Tamerdə (Kərbəla) toy mərasiminə İŞİD tərəfindən həyata keçirildiyi bildirilən hücumdan sonra Əl-Ənbardan olan məcburi köçkünlər doğma yerlərinə qayıtmaları üçün təzyiqlərlə üzləşdilər. 2016-cı ilin oktyabrının ortalarınadək 265-dən çox köçkün ailəsi həbslərdən və qisasçı hücumlardan qorxaraq Eyn Əl-Tameri və Kərbəla şəhərini tərk etdi. Babilin hakimiyyət orqanları da naməlum sayda məcburi köçkünlərə doğma yerlərinə qayıtmaları barədə xəbərdarlıq etdilər; BMT QAK-ın məlumatları, noyabr 2016-cı il. Həmçinin bax: OCHA, *Humanitar bülleten: İraq, sentyabr 2016-cı il*, 15 oktyabr 2016-cı il, http://bit.ly/2e8Oyz7, səh. 4; İraq İnsan Hüquqlarının Müşahidəsi Təşkilatı, *Asayiş qüvvələri Əl-Ənbar və Səlahəddindən olan məcburi köçkün əhalinin Kərkükü tərk etməsini tələb edirlər*, 11 oktyabr 2016-cı il,

*Mülki şəxslər arasında itkilər*

31. Davam etməkdə olan münaqişənin və mülki şəxslərə qarşı digər zorakılıq aktlarının nəticələri ağır və genişdir.[121] 2003-cü ildəki müdaxilədən sonra İraqda münaqişə ilə bağlı zorakılıqlar dayanmaq bilməyib, 2006-2007-ci illərdəki məzhəblərarası münaqişə zamanı ölüm hallarının səviyyəsi ən yüksək həddə çatıb. 2010-cu ildən 2012-ci ilədək ölkədə zorakılıqların səviyyəsi nisbətən aşağı düşüb.[122] Belə məlum olur ki, mülki şəxslər arasında itkilərin sayı əvvəlki illərlə müqayisədə 2013-cü ilin ortalarından etibarən yenidən artmağa başlayıb[123] və 2014 və 2015-ci illərdə mülki şəxslər arasında itkilərin sayı 2006-2007-ci illərdəki məzhəblərarası münaqişə dövründən bəri ən yüksək həddə çatıb.[124] 2016-cı ildə itkilərin sayını göstərən rəqəmlər yüksək

---

http://bit.ly/2ej3fOB; BMT QAK, *İraq: Mosuldakı vəziyyətə dair yenilənən məlumatlar*, 4 oktyabr 2016-cı il, http://bit.ly/2dxaS5S; MRGI, *İraqda didərginlik böhranı*, mart 2016-cı il, http://www.refworld.org/docid/573592d24.html, səh. 15.

[120] Məsələn, məcburi köçkünləri Diyaladakı doğma yerlərinə qayıtmağa məcbur etmək üçün Kərkük hakimiyyət orqanlarının güclənən təzyiqləri və tədbirləri (evlərdən məcburi qaydada çıxarılma, şəxsiyyət sənədlərinin alınması) nəticəsində 322 ailə Əl-Udheymdəki (Diyala vilayəti) doğma yerlərinə qayıdıb, orada isə evləri dağıdıldığına görə onlar açıq hava altında və ya tikintisi yarımçıq qalmış binalarda qalmağa məcbur olublar. Hazırkı məkanlarında onlar zəruri xidmətlərdən, o cümlədən ərzaq və su təchizatından, adekvat sığınacaqdan, sanitariya və səhiyyə xidmətlərindən məhrumdurlar. Evlərdən çıxarılma prosesində bir çox ailələrin sənədləri müsadirə olunub ki, bu da onların köməksiz durumunu daha da mürəkkəbləşdirib. Həmçinin məlumatlara əsasən həmin ərazidə çoxlu sayda əldəqayırma partlayıcı qurğular və müharibədən qalma partlayıcı sursatlar qalıb; BMT QAK-ın məlumatları, noyabr 2016-cı il. Həmçinin bax: HRW, *KRH: kürd qüvvələri ərəbləri Kərkükdən qovurlar*, 3 noyabr 2016-cı il, http://www.refworld.org/docid/581c95834.html; BMT QAK, *İraq: Vəziyyətə dair yenilənən məlumatlar*, 31 oktyabr 2016-cı il, http://bit.ly/2e5rILw.

[121] BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 4-cü məruzəsi*, 5 iyul 2016-cı il, http://www.refworld.org/docid/5784de404.html, 34-cü bənd.

[122] Məsələn, "İraqda ölənlərin sayı" layihəsinin (*IBC*) məlumat bazasındakı rəqəmlərə bax; bu məlumat bazasında zorakılıq yolu ilə baş vermiş ölüm hallarına dair medianın yoxlanılmış məlumatları qeydə alınır və bu məlumatları xəstəxanaların, morqların, QHT-lərin məlumatları, rəsmi rəqəmlər və ya rəsmən qeydə alınmış informasiyalar tamamlayır: IBC, *Məlumat bazası*, 13 noyabr 2016-cı ilədək olan informasiya, https://www.iraqbodycount.org/database/.

[123] 2013-cü ildə IBC məlumatlarında mülki şəxslər arasında 9.851, UNAMI-nin məlumatlarında 7.818, İraq hökumətinin məlumatlarında isə 5.298 ölüm halı qeydə alınıb; IBC, *Məlumat bazası*, 7 noyabr 2016-cı ilədək olan informasiya, https://www.iraqbodycount.org/database/; UNAMI, *Dekabr ayı üçün ölüm və xəsarət hallarına dair BMT-nin rəqəmləri: 2013-cü ildə İraqda 2008-ci ildən bəri ən çox ölüm halları qeydə alınıb*, 2 yanvar 2014-cü il, http://www.refworld.org/docid/58209b0b4.html; İraq hökumətinin itkilərə dair rəqəmləri (rəqəmlərə dair informasiyalar AFP tərəfindən toplanıb), 7 noyabr 2016-cı ilədək olan informasiya, http://bit.ly/22EFvbp. Həmçinin bax: "*Musings on Iraq*" bloqu, *2013-cü il İraqda ölüm və zorakılıq hallarının artımı ilə yekunlaşdı*, 8 yanvar 2014-cü il, http://bit.ly/1o8bC3E.

[124] İraqdakı itkilərlə bağlı bir neçə məlumat bazaları var ki, müxtəlif metodologiyalar əsasında hazırlanıblar və onların hər birində qeydə alınmış ümumi rəqəmlər xeyli fərqlənir. Təhlükəsizlik sahəsində mövcud olan hazırkı vəziyyətdə mötəbər məlumatların toplanmasındakı çətinlikləri nəzərə alsaq, bu rəqəmlərin heç birini tam dəqiq hesab etmək olmaz və bütün mənbələrdə vurğulanır ki, göstərilən rəqəmlər "minimal" rəqəmlər sayılmalıdır. UNAMI 2015-ci ildə mülki şəxslər arasında 7.515 ölüm və 14.800 xəsarət hallarını "*mütləq minimum*" kimi qeydə alıb (nəzərə almaq lazımdır ki, bəzi aylar üzrə məlumatlara Əl-Ənbara aid rəqəmlər daxil edilməyib). IBC məlumat bazasında 2015-ci ildə mülki şəxslər arasında ümumilikdə 17.500 ölüm qeydə alındığı halda, "*Musings on Iraq*" bloqunun hesablamalarına əsasən 2015-ci ildə 17.300-dən artıq mülki şəxs qətlə yetirilib, 18.000-dən artıq mülki şəxs isə xəsarət alıb. İraq hökuməti 2015-ci il üçün mülki şəxslər arasında itkilərə dair rəqəmləri açıqlamayıb; IBC, *Məlumat bazası*, 13 noyabr 2015-ci ilədək olan informasiya, https://www.iraqbodycount.org/database/; UNAMI, *2015-ci ilin dekabr ayı üçün mülki şəxslər arasında itkiləri göstərən rəqəmlər*, 1 yanvar 2016-cı il, http://bit.ly/1TsK5rI; "*Musings on Iraq*" bloqu, *2015-ci ildə İraqda 51.000-dən artıq ölən və yaralanan olub*, 24 fevral 2016-cı il, http://bit.ly/1RxLAi2. İTQ-nin və polisin itkilərinə dair İraq hökuməti tərəfindən açıqlanmış rəqəmlər üçün bax: "*Musings on Iraq*" bloqu, *İraq hökumətindən itkilərə dair yeni məlumat*, 23 dekabr 2015-ci il, http://bit.ly/1pJD1L3. UNAMI 2014-cü ildə mülki şəxslər arasında 12.282 ölüm və 23.000 xəsarət hallarını "*mütləq minimum*" kimi qeydə alıb. IBC məlumat bazasında həmin il 20.200-ə yaxın mülki şəxsin ölümü qeydə alınıb ki, bu da 2013-cü ilə nisbətən ikiqat artım təşkil edir, 2013-cü ilin rəqəmləri isə 2012-ci ildə qeydə alınmış rəqəmlərdən təxminən iki dəfə çoxdur. İraq hökuməti 12.500-dən artıq mülki şəxsin öldüyünü (polislər nəzərə alınmadan), 18.000-dən artıq mülki şəxsin isə yaralandığını elan edib ki, bu da 2007-ci ildən bəri ən yüksək rəqəmlərdir.

olaraq qalıb.[125] BMT-nin İraqa Yardım Missiyası (*UNAMI*) tərəfindən təqdim edilmiş statistikaya əsasən, Bağdad vilayəti ardıcıl olaraq 2014, 2015 və 2016-cı illərdə hər ay itkilərin sayı baxımından ən pis göstəricilərə malik vilayət olub.[126] Bağdadın ardınca bu vilayətlər gəlir, hərçənd ki, onların sıralanma ardıcıllığı fərqli ola bilər: Əl-Ənbar, Diyala, Neynəva, Kərkük, Səlahəddin və Babil.[127] Mosulun geri alınması üçün hərbi hücum əməliyyatının başlanmasından əvvəl BMT-nin İraqa humanitar yardım üzrə koordinatoru xəbərdarlıq etdi ki, Mosulda İŞİD-ə qarşı hərbi kampaniya "*dağıdıcı*" humanitar nəticələrə və "*güman ki, mülki şəxslər arasında kütləvi itkilərə*" gətirib çıxaracaq.[128]

32. 2014-cü ildən bəri zorakılıqların şiddətlənməsi və onların humanitar böhranla müşayiət olunması, məlumatlara əsasən, qida, su və tibbi yardımın çatışmaması nəticəsində əlavə ölüm hallarının baş verməsinə gətirib çıxarıb.[129]

### *Ölkədaxili və ölkəxarici didərginlik*

33. Ötən iki ildə İraq ciddi didərginlik böhranı ilə üzləşib. 2014-cü ilin yanvarından bəri bir neçə kütləvi didərginlik dalğasının və nisbətən kiçik həcmli didərginlik dalğalarının nəticəsində hazırda 3,18 milyondan artıq insan və ya İraq əhalisinin təxminən 10 faizi evlərini tərk etməyə məcbur olublar,[130] onlar əsasən Əl-Ənbar, Neynəva, Səlahəddin, eləcə də Diyala, Bağdad,

---

"*Musings on Iraq*" bloqunun qeydə aldığı rəqəmlər isə bundan da artıqdır, belə ki, o, 17.098 mülki şəxsin öldüyünü və 26.590 mülki şəxsin yaralandığını qeydə alıb; IBC, *Məlumat bazası*, 13 noyabr 2016-cı ilədək olan informasiya, https://www.iraqbodycount.org/database/; UNAMI, *Dekabr ayı üçün ölüm və xəsarət hallarına dair BMT-nin rəqəmləri: 2014-cü ildə İraqda 2008-ci ildən bəri ən çox ölüm halları qeydə alınıb*, 4 yanvar 2015-ci il, http://bit.ly/14stgGA; İraq hökumətinin itkilərə dair rəqəmləri (rəqəmlərə dair informasiyalar AFP tərəfindən toplanıb), 13 noyabr 2016-cı ilədək olan informasiya, http://bit.ly/22EFvbp; "*Musings on Iraq*" bloqu, *2014-cü il İraqda vətəndaş müharibəsi başlayandan bəri ən çox ölüm hallarının qeydə alındığı il olub*, 6 yanvar 2015-ci il; "*Musings on Iraq*" bloqu, *İraqda 2014-cü ildə baş vermiş zorakılıqları əks etdirən cədvəllər, II hissə: ölənlərin və yaralananların qruplar üzrə bölgüsü*, 6 yanvar 2015-ci il, http://bit.ly/1Rz971O.

[125] UNAMI-nin məlumatlarına əsasən, 2016-cı ilin yanvarından oktyabrınadək 5.566 mülki şəxsin ölümü və 10.392 nəfərin yaralanması "*mütləq minimum*" rəqəm kimi qeydə alınıb (nəzərə almaq lazımdır ki, bəzi aylar üzrə məlumatlara Əl-Ənbara aid rəqəmlər daxil edilməyib). IBC məlumat bazasında 2016-cı ilin yanvarından oktyabrınadək 13.700-dən artıq ölüm və xəsarət halları qeydə alınıb (ilkin rəqəmlər). "*Musings on Iraq*" bloqu bu dövrdə 18.000-dən artıq mülki və qeyri-mülki şəxsin ölümünü qeydə alıb; UNAMI, *2016-cı ilin oktyabr ayı üçün ölüm və xəsarət hallarına dair BMT-nin rəqəmləri*, 1 noyabr 2016-cı il, http://www.refworld.org/docid/58209b754.html; IBC, *Məlumat bazası*, 13 noyabr 2016-cı ilədək olan informasiya, https://www.iraqbodycount.org/database/. "*Musings on Iraq*" bloqunda mülki şəxslər arasında ölüm və xəsarət hallarının aylıq rəqəmlərinə dair qeyd edilmiş məlumatlar üçün bu mənbəyə bax: *İraqda zorakılıqlara dair aylıq məlumatlar*, http://musingsoniraq.blogspot.com/.

[126] Bağdadda ölüm və xəsarət hallarını əks etdirən rəqəmlərdə 2014-cü ildə (3.702 nəfər qətlə yetirilib, 8.375 nəfər yaralanıb), 2015-ci ildə (3.727 nəfər qətlə yetirilib, 9.272 nəfər yaralanıb) və 2016-cı ilin yanvarından oktyabrınadək (2.871 nəfər qətlə yetirilib, 7.725 nəfər yaralanıb) eyni artım səviyyəsi qeydə alınıb; ölüm və xəsarət hallarına dair UNAMI-nin aylıq rəqəmləri üçün bu mənbəyə bax: UNAMI, *Mülki şəxslər arasında ölüm və xəsarət halları*, 13 noyabr 2016-cı ilədək olan informasiya, http://bit.ly/1NpHRqT.

[127] Nəzərə almaq lazımdır ki, bəzi aylar üzrə məlumatlarda Əl-Ənbar vilayətinə aid rəqəmlər yoxdur; UNAMI, *Mülki şəxslər arasında ölüm və xəsarət halları*, http://bit.ly/1NpHRqT. "*Musings on Iraq*" bloqu bu vilayətləri ən çox aylıq ölüm və xəsarət hallarının qeydə alındığı vilayətlər kimi göstərib, amma sıralama ardıcıllığı ayrı-ayrı aylarda fərqlidir. "*Musings on Iraq*" bloqunda 2015-ci və 2016-cı illərdə təhlükəsizliklə bağlı qeydə alınmış aylıq məlumatlar üçün bax: http://musingsoniraq.blogspot.com/.

[128] BMT/İraq: *Tərəfdaş humanitar təşkilatlar vaxtın bitmək üzrə olduğu barədə xəbərdarlıq edirlər: Mosulda humanitar yardım əməliyyatına hazırlıq üçün təcili olaraq 284 milyon ABŞ dolları tələb olunur*, 20 iyul 2016-cı il, http://bit.ly/2dgUAfj. Mosul hücum əməliyyatı ilə paralel olaraq ölüm və xəsarət hallarına aid rəqəmlər ən yüksək həddə çatıb, belə ki, 2016-cı ilin oktyabrında azı 2.300 mülki şəxs qətlə yetirilib ki, bu da 2015 və 2016-cı illərdə ölüm və xəsarət hallarını göstərən aylıq rəqəmlərdən çoxdur; IBC, *Məlumat bazası*, 13 noyabr 2016-cı ilədək olan informasiya, https://www.iraqbodycount.org/database/.

[129] UNAMI, *2016-cı ilin sentyabr ayı üçün ölüm və xəsarət hallarına dair BMT-nin rəqəmləri*, 1 oktyabr 2016-cı il, http://bit.ly/2dB9ZKO.

[130] Beynəlxalq Miqrasiya Təşkilatı (*IOM*), *İraqda məcburi köçkünlərin didərgin düşməsi hallarının izlənməsi (DTM) sistemi*, 13 noyabr 2016-cı ilədək olan informasiya, http://iraqdtm.iom.int/IDPsML.aspx.

Kərkük və Babil vilayətlərindəndir.[131] Bəzi hallarda icmalar bütünlüklə didərgin düşüblər.[132] Bundan əlavə, 2006-2007-ci illərdə baş vermiş əvvəlki münaqişədən sonra didərgin düşmüş 1,1 milyon insan köçkün olaraq qalmaqdadır.[133] İraqda münaqişənin mərkəzi bir ərazidən digərinə keçdiyinə görə bir çox insanlar dəfələrlə didərgin düşüblər.[134] Ümumi say baxımından İraq dünyada ən çox məcburi köçkünü olan üçüncü ölkədir.[135] Hazırda İraqda məcburi köçkünlər 106 rayondan didərgin düşüblər və 3.735 ayrı-ayrı məkana köçürülüblər, bunlardan Əl-Ənbar, Bağdad, Dohuk, Ərbil və Kərkük vilayətləri ən çox sayda məcburi köçkün qəbul ediblər.[136] Qalan ərazilərin İŞİD-dən geri alınması üçün davam edən hərbi hücum əməliyyatları geniş miqyaslı yeni didərginlik halları ilə müşayiət olunur. Məlumatlara əsasən 2016-cı ilin martından oktyabrınadək 300.000-dən artıq iraqlı didərgin düşüb, onların çoxu Əl-Ənbar, Neynəva, Səlahəddin və Kərkük vilayətlərindəndir.[137]

34. Mosulu və ətraf əraziləri geri almaq üçün aparılan hərbi hücum əməliyyatı ən pis halda bir milyondan artıq insanın didərgin düşməsinə gətirib çıxara bilər.[138] Məlumatlara görə, bu mətn hazırlandığı zaman təxminən yarısı uşaqlar olan 54.000-dən artıq insan 17 oktyabr 2016-cı ildə hücum əməliyyatı başlanandan bəri Mosul rayonundan və ətraf ərazilərdən didərgin düşüb və anti-İŞİD qüvvələri insanların sıx məskunlaşdığı şəhər ərazilərinə və şəhərətrafı ərazilərə doğru hərəkət etdikcə əlavə didərginlik hallarının baş verəcəyi gözlənilir. Yenicə didərgin düşmüş məcburi köçkünlərin böyük əksəriyyəti Neynəva vilayətindədir.[139] Hesablamalara görə, 1,5 milyona qədər insan Mosulda və onun ətrafında mühasirəyə düşmüş vəziyyətdə qalmaqdadır.[140]

35. Münaqişə və insan hüquqlarının pozuntuları təhlükəsizlik və himayə axtarışında olan iraqlıları həmçinin xaricə köçməyə məcbur edir. BMT QAK-ın regiondakı nümayəndəlikləri

[131] Ümumilikdə məcburi köçkün əhalinin 75 faizi təkcə iki vilayətdən, yəni Əl-Ənbar və Neynəvadan didərgin düşüb; *IOM, İraqda məcburi köçkünlərin didərgin düşməsi hallarının izlənməsi (DTM) sistemi, raund 56: oktyabr*, 26 oktyabr 2016-cı il, http://bit.ly/2faF3mK, səh. 4.

[132] OCHA, *Humanitar tələbatların icmalı – 2016*, noyabr 2015-ci il, http://bit.ly/1RoAqvO, səh. 15.

[133] OCHA, *İraq üçün humanitar reaksiya planı – 2016*, dekabr 2015-ci il, http://bit.ly/1U3LFAI, səh. 6. 2014-cü ilə qədərki didərginlik tendensiyalarının icmalı üçün bax: BMT-nin İnsan Hüquqları Şurası, *Məcburi köçkünlərin insan hüquqları üzrə xüsusi məruzəçinin məruzəsi,* 5 aprel 2016-cı il, http://www.refworld.org/docid/575fb7e14.html, 6-cı bənd.

[134] BMT QAK, *İraqda didərginlik böhranı – BMT QAK vəziyyətin daha da pisləşəcəyinə hazırlaşır*, 23 avqust 2016-cı il, http://bit.ly/2bgq0Rx; YUNİSEF, *İraqda zorakılıqlar uşaqlıq dövrünü məhv edir*, iyun 2016-cı il, http://www.refworld.org/docid/577665304.html, səh. 5; BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 2-ci məruzəsi*, 26 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56af0c454.html, 65-ci bənd.

[135] BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 1-ci məruzəsi*, 26 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/563719d14.html, 79-cu bənd.

[136] Beş vilayət – Əl-Ənbar, Bağdad, Dohuk, Ərbil və Kərkük iki milyondan artıq məcburi köçkünü, yaxud məcburi köçkün əhalinin üçdə ikisini qəbul edib; *IOM, İraqda məcburi köçkünlərin didərgin düşməsi hallarının izlənməsi (DTM) sistemi, raund 57 (məcburi köçkünlər)*, 27 oktyabr 2016-cı il, http://iraqdtm.iom.int/Downloads.aspx.

[137] Bayci və Şirqat (Səlahəddin vilayəti), Qayyara (Neynəva vilayəti), Fəllucə, Hit və Ramadi (Əl-Ənbar vilayəti), habelə Havica (Kərkük vilayəti) şəhərləri də daxil olmaqla; *IOM, İraqda məcburi köçkünlərin didərgin düşməsi hallarının izlənməsi (DTM) sistemi, raund 56: oktyabr*, 26 oktyabr 2016-cı il, http://bit.ly/2faF3mK, səh. 7.

[138] BMT QAK, *Mosul hücumu İraqda didərgin düşənlərin sayının artmasına rəvac verir*, 21 sentyabr 2016-cı il, http://bit.ly/2frRqre; OCHA, *Mosuldakı humanitar böhran,* 1 noyabr 2016-cı il, http://bit.ly/2fa0KCq.

[139] *IOM, İraqda məcburi köçkünlərin didərgin düşməsi hallarının izlənməsi (DTM) sistemi*, 13 noyabr 2016-cı illədək olan informasiya, http://iraqdtm.iom.int/EmergencyTracking.aspx; OCHA, *İraq: Mosulda hərbi əməliyyatlar səbəbindən hazırda didərgin düşmüş insanlar* (*12 noyabr 2016-cı ilədək olan informasiya*), 12 noyabr 2016-cı il, http://bit.ly/2fOEP1N; BMT QAK, *Mosulda didərgin düşmə halları artdıqca BMT QAK yardımları sürətləndirir*, 11 noyabr 2016-cı il, http://bit.ly/2eTOPYw; YUNİSEF, *YUNİSEF-in İraqın Mosul şəhərindəki hadisələrə reaksiyasına dair yenilənən məlumatlar, buraxılış № 1, 17-31 oktyabr 2016,* 31 oktyabr 2016-cı il, http://bit.ly/2fhZ3k8.

[140] Beynəlxalq Amnistiya Təşkilatı, *İraq: Çarpaz atəşlər altında qalan və "İslam Dövləti" qruplaşması tərəfindən canlı sipər kimi istifadə olunan mülki şəxslərin təhlükəsizliyi ilə bağlı qorxu*, 27 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/581c92474.html; BMT, *İŞİD-in əlində olan Mosul ərazisindəki 1,5 milyon əhaliyə görə qorxu,* 17 oktyabr 2016-cı il, http://bit.ly/2f527iC.

qeyd edirlər ki, 2014-cü ilin yayından bəri region ölkələrinə gələn, habelə sonradan burada qeydiyyata alınan iraqlıların sayında artım baş verib, özü də Türkiyə, İordaniya, Livan, Suriya, Misir, İran və Körfəz Ölkələrinin Əməkdaşlığı Şurasına daxil olan ölkələr 2016-cı ilin sentyabrınadək 240.000 iraqlı qaçqını qəbul ediblər.[141] Bundan əlavə, hazırda Suriyanın şimal-şərqində yerləşən Hassaki vilayətindəki Nevruz, Roy və Əl-Hol düşərgələrində, habelə şəhər ərazilərində təxminən 9.000 iraqlı yaşayır ki, onlar da digər səbəblərlə yanaşı təhlükəsizliklə bağlı giriş məhdudiyyətləri ucbatından BMT QAK tərəfindən hələ rəsmən qeydiyyata alınmayıblar.[142] Avropada sığınacaq axtaran iraqlıların sığınacaq ərizələrinin sayı əvvəlki illərlə müqayisədə 2014-cü ildən bəri artmaqdadır.[143]

***Məcburi köçkünlərin qayıdışları və xaricdən qayıdışlar***

36. Yeni, habelə uzun müddət davam edən əvvəlki didərginlik halları ilə yanaşı, İŞİD-dən geri alınmış ərazilərə spontan qayıdış halları da baş verir, baxmayaraq ki, təhlükəsiz və layiqli şəkildə geri qayıdış üçün münasib şərait yoxdur.[144] 27 oktyabr 2016-cı ilədək əsasən Səlahəddin, Əl-Ənbar, Neynəva və Diyala vilayətlərində bir milyondan artıq insanın doğma rayonundakı yurduna qayıdışı qeydə alınıb.[145]

37. Məlumatlara əsasən geri çəkildiyi ərazilərdə İŞİD adətən evlərdə, ictimai yerlərdə və yollarda minalar quraşdırır və tələlər qurur ki, bunun da nəticəsində geri qayıdanlar arasında itkilər baş verir.[146] Geri qayıdanlar çox zaman evlərinin dağıdılması, zədələnməsi və ya təkrarən

[141] 31 oktyabr 2016-cı ilədək olan məlumatlara əsasən, region ölkələrinə gəlmiş 239.077 iraqlı qeydə alınıb ki, onlardan 125.368-i Türkiyədə, 60.133-ü İordaniyada, 24.977-si Suriyada, 18.445-i Livanda, 7.199-u Misirdə, 2.322-si Körfəz Ölkələrinin Əməkdaşlığı Şurasına daxil olan ölkələrdə, 633-ü isə İrandadır; BMT QAK-ın qeydiyyat məlumatları, 31 oktyabr 2016-cı il.

[142] BMT QAK-ın məlumatları, noyabr 2016-cı il.

[143] Aİ üzvü olan ölkələrdə sığınacaq üçün müraciət etmiş iraqlıların sayı son bir neçə ildə davamlı olaraq artıb, yəni 2013-cü ildə 10.740 ərizəçi, 2014-cü ildə 21.310 ərizəçi, 2015-ci ildə isə 121.535 ərizəçi müraciət edib. 2015-ci ildə İraq Aİ-də sığınacaq axtaran ən çox vətəndaşı olan üçüncü ölkə olub. 2016-cı ilin birinci altı ayında iraqlılar sığınacaq üçün 69.300 ərizə təqdim ediblər; *Eurostat* (Avropa İttifaqının statistika xidməti "Avrostat"), *Sığınacaq üçün ilk dəfə müraciət edənlərin sayı bir qədər artaraq 2016-cı ilin ikinci rübündə təxminən 306.000 nəfərə çatıb,* 22 sentyabr 2016-cı il, http://bit.ly/2cTzOUo; Eurostat, *Sığınacaq üçün ilk dəfə müraciət edənlərin sayı azalaraq 2016-cı ilin birinci rübündə 290.000 nəfərdən az olub*, 16 iyun 2016-cı il, http://bit.ly/1rt1zIe; Eurostat, *2015-ci ildə sığınacaq üçün ilk dəfə müraciət edənlərin sayı 1,2 milyondan artıq olub ki, bu da rekord saydır,* 4 mart 2016-cı il, http://bit.ly/1oUlAGC; Eurostat, *Sığınacaq məsələsi ilə bağlı statistika: 1-ci cədvəl: Aİ-yə üzv olan 28 dövlətdə sığınacaq axtaranların mənşə ölkələri (Aİ-yə üzv olmayan ölkələr) – 2013-cü və 2014-cü illər*, səhifə sonuncu dəfə 8 may 2015-ci ildə yenilənib, http://bit.ly/1HAUHJn.

[144] BMT QAK bir çox yerlərə qayıdış üçün lazımi şəraitin olmadığını nəzərə alaraq məcburi köçkünlərin könüllü qayıdışlarını nə təşviq edir, nə də buna köməklik edir. BMT QAK bu mövqeyin tərəfdarıdır ki, məcburi köçkünlərin hər hansı spontan qayıdışları könüllü olmalı, təhlükəsiz şəraitdə baş verməli, ayrı-seçkiliyə əsaslanmamalı və davamlı olmalıdır. BMT QAK və onun icraçı tərəfdaşları humanitar yardımların çatdırılması mümkün olan yerlərdə məcburi köçkünlərin spontan qayıdışlarına dəstək verir; amma bu cür dəstəyin olması o demək deyil ki, BMT QAK mövcud vəziyyəti qayıdış üçün əlverişli vəziyyət kimi qiymətləndirib.

[145] Beynəlxalq Miqrasiya Təşkilatının (*IOM*) məcburi köçkünlərin didərgin düşməsi hallarının izlənməsi (DTM) sistemində əvvəllər didərgin düşən və hazırda öz mənşə rayonlarına qayıdan bütün şəxslər, həmin rayonda əvvəlki yaşayış yerlərinə qayıtmalarından və ya digər formada sığınacaq tapmalarından asılı olmayaraq, geri qayıdanlar hesab olunurlar; IOM, *İraqda məcburi köçkünlərin didərgin düşməsi hallarının izlənməsi (DTM) sistemi (geri qayıdanlar)*, 13 noyabr 2016-cı ilədək olan informasiya, http://iraqdtm.iom.int/ReturneeML.aspx; IOM, *Bir milyon iraqlı evinə qayıdır: Beynəlxalq Miqrasiya Təşkilatının İraqda məcburi köçkünlərin didərgin düşməsi hallarının izlənməsi (DTM) sistemi*, oktyabr 2016-cı il, http://bit.ly/2f4RYCU, səh. 4.

[146] *"Hökumətin nəzarətinə keçən ərazilərin, demək olar ki, hamısının qayıdışlar üçün təhlükəsiz olması üçün partlayıcı qurğulardan, minalardan və müharibədən qalma partlayıcı sursatlardan təmizlənməsi tələb olunur"*; OCHA, *Humanitar tələbatların icmalı*, noyabr 2015-ci il, http://bit.ly/1RoAqvO, səh. 10. Həmçinin bax: BMT QAK, *İraq: Vəziyyətə dair yenilənən məlumatlar*, 27 avqust 2016-cı il, http://bit.ly/2dUNwdp, səh. 1. *Fəllucədə ailələrin avqustun 1-dən evlərinə qayıtmasının mümkün olduğu barədə İraq hökumətinin bəyanatına BMT QAK-ın cavab bəyanatı*, 1 iyul 2016-cı il, http://www.refworld.org/docid/58209bfc4.html; "*Musings on Iraq*" bloqu, *İraqın Ramadi şəhərinin əldəqayırma partlayıcı qurğulardan təmizlənməsinin yubanması*, 13 may 2016-cı il,

zəbt olunması,[147] zəruri infrastrukturun zədələnməsi və ya ümumiyyətlə mövcud olmaması, zəruri xidmətlərin bərpasının zəif sürətlə aparılması və dolanacaq imkanlarının olmaması halları ilə üzləşirlər.[148] Məcburi köçkün düşərgələrində onlara göstərilən himayənin monitorinqi göstərir ki, su, elektrik təchizatı, məktəblər və tibb müəssisələri bərpa olunmayana qədər məcburi köçkün ailələrinin böyük bir qismi doğma ərazilərinə qayıtmamağa üstünlük verirlər. Məcburi köçkünlər həmçinin narahatlıqlarını ifadə ediblər ki, geri qayıtdıqdan sonra təhlükəsizliklərinə qarşı təhdidlərlə üzləşəcək, o cümlədən İŞİD-in,[149] yaxud İTQ və onunla əlaqəli qüvvələrin yaradacağı təhlükələrlə qarşılaşacaqlar.[150]

38. Geri qayıdanlar qayıtdıqları ərazilərdə təhlükəsizlik yoxlamalarından keçməli və müxtəlif yerli subyektlərdən, o cümlədən əraziyə nəzarət edən hərbi qüvvələrdən, yerli hakimiyyət orqanlarından və tayfalardan razılıq almalıdırlar.[151] Bəzi ərazilərdə yerli subyektlər geri qayıdanları ləngidir və iddia edirlər ki, həmin ərazilər əvvəlcə tam təhlükəsiz hala gətirilməli,

---

http://bit.ly/2dZ2zxA; BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 3-cü məruzəsi*, 27 aprel 2016-cı il, http://www.refworld.org/docid/5731a1a14.html, 62-ci bənd.

[147] IOM, *Bir milyon iraqlı evinə qayıdır: Beynəlxalq Miqrasiya Təşkilatının İraqda məcburi köçkünlərin didərgin düşməsi hallarının izlənməsi (DTM) sistemi*, oktyabr 2016-cı il, http://bit.ly/2f4RYCU, səh. 19-20; "Uol Strit Cornel" (*Wall Street Journal*) qəzeti, *İraqlı ailələr Fəllucədə dağıdılmış evlərinə qayırdırlar*, 3 yanvar 2016-cı il, 18 sentyabr 2016-cı il, http://on.wsj.com/2cUtiwT. Geri qayıdanlar arasında əvvəlki yaşayış yerinə qayıda bilməyənlər alternativ sığınacaq növlərində, o cümlədən tikintisi yarımçıq qalmış binalarda, icarəyə verilən mənzillərdə və ya qeyri-rəsmi yaşayış məskənlərində yaşamaq məcburiyyətində qala bilərlər. 2016-cı ilin oktyabrına olan məlumata görə, Beynəlxalq Miqrasiya Təşkilatı geri qayıdan 11.000-dən artıq ailənin, yaxud bütövlükdə geri qayıdanların təxminən 11 faizinin əvvəlki yaşayış yerinə qayıda bilmədiyini qeydə alıb. Bu ailələr başqa sığınacaq növlərində, o cümlədən icarəyə verilən evlərdə, otellərdə, başqa ailələrin yaşadığı evlərdə, qeyri-rəsmi yaşayış məskənlərində, dini və məktəb binalarında, tikintisi yarımçıq qalmış və ya tərk edilmiş binalarda və digər qeyri-rəsmi tikililərdə məskunlaşmalı olublar. Ərbil və Əl-Ənbar vilayətlərində geri qayıtmış ailələrin hamısı əvvəlki yaşayış yerlərinə qayıtdıqları halda, Diyala, Səlahəddin, Neynəva və Kərkük vilayətlərində geri qayıdanların çoxu əsas etibarı ilə evlərinin dağılması və ya ciddi surətdə zədələnməsi, ərazidə əldəqayırma partlayıcı qurğuların və partlamamış qalan sursatların olması, yaxud evlərində başqalarının məskunlaşması və ya ərazidə qeyri-sabitliyin davam etməsi nəticəsində adətən yaşadıqları evlərə daxil ola bilməyiblər; IOM, *Bir milyon iraqlı evinə qayıdır: Beynəlxalq Miqrasiya Təşkilatının İraqda məcburi köçkünlərin didərgin düşməsi hallarının izlənməsi (DTM) sistemi*, oktyabr 2016-cı il, http://bit.ly/2f4RYCU, səh. 17-18. Məlumatlara əsasən mövcud inzibati prosedurlar və məhkəmə prosesləri mülkiyyətin bərpa olunması və ya kompensasiya ödənilməsi barədə iddiaların həlli üçün yetərincə səmərəli deyil. OCHA, *Humanitar tələbatların icmalı*, noyabr 2015-ci il, http://bit.ly/1RoAqvO, səh. 16.

[148] "*Musings on Iraq*" bloqu, *İraqın Əl-Ənbar vilayətində köçkünlərin acınacaqlı durumu*, 11 avqust 2016-cı il, http://bit.ly/2denBL6; BMT-nin İnsan Hüquqları Şurası, *Məcburi köçkünlərin insan hüquqları üzrə xüsusi məruzəçinin məruzəsi*, 5 aprel 2016-cı il, http://www.refworld.org/docid/575fb7e14.html, 69-cu bənd; BMT/Habitat (BMT-nin yaşayış məntəqələri üzrə proqramı "Habitat"), *Yaponiya hökuməti BMT-nin İraqdakı "Habitat" layihəsinə 15 milyon ABŞ dolları verir*, 2 mart 2016-cı il, http://bit.ly/1pnzOjS; UNAMI, *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin müdafiəsinə dair hesabat*, 11 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a09a304.html, səh. 7.

[149] BMT QAK-ın məlumatları, noyabr 2016-cı il. Həmçinin bax: OCHA, *Humanitar bülleten: İraq, sentyabr 2016-cı il*, 15 oktyabr 2016-cı il, http://bit.ly/2e8Oyz7, səh. 3; BMT QAK, *İraqda vəziyyət: Mosuldakı vəziyyətə dair yenilənən məlumatlar*, 22 sentyabr 2016-cı il, http://bit.ly/2cUpjmC.

[150] BMT QAK-ın məlumatları, noyabr 2016-cı il. Həmçinin bax: Beynəlxalq Amnistiya Təşkilatı, *Didərgin düşmüş iraqlılar könüllü dəstələr və hökumət qüvvələri tərəfindən sui-istifadə hallarına məruz qalırlar*, 18 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5806051a4.html, səh. 17; MRGI, *İraqda didərginlik böhranı*, mart 2016-cı il, http://www.refworld.org/docid/573592d24.html, səh. 22-23; UNAMI, *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin müdafiəsinə dair hesabat*, 11 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a09a304.html, səh. 31; "Monitor" (*Al-Monitor*) elektron nəşri, *Didərgin düşmüş iraqlılar hələ də evlərinə qayıdacaqları anı gözləyirlər*, 24 iyun 2015-ci il, http://almon.co/2ghm.

[151] Beynəlxalq Amnistiya Təşkilatı, *Didərgin düşmüş iraqlılar könüllü dəstələr və hökumət qüvvələri tərəfindən sui-istifadə hallarına məruz qalırlar*, 18 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5806051a4.html, səh. 17-18; "Assoşieyted Press" agentliyi, *İŞİD-in gedişindən sonra İraqın Fəllucə şəhərinin sakinlərinin geriyə ağrılı qayıdışı*, 26 sentyabr 2016-cı il, http://dailym.ai/2d8Zxvm; "*Musings on Iraq*" bloqu, *İraqın davam etməkdə olan didərginlik böhranı*, 1 mart 2016-cı il, http://bit.ly/2dNBhvN; UNAMI, *İraqda silahlı münaqişə zamanı mülki şəxslərin müdafiəsinə dair hesabat*, 11 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a09a304.html, səh. 7; Beynəlxalq Qırmızı Xaş Komitəsi, *Məcburi köçkünlərin Diyalaya qayıdışı – 2015*, 15 oktyabr 2015-ci il, http://bit.ly/2en7DNY.

minalardan təmizlənməli və xidmətlər yenidən təşkil edilməlidir.[152] Lakin məlumatlara əsasən geri qayıdanlara həm də ayrı-seçkilik xarakterli meyarlar əsasında, o cümlədən məcburi köçkünün etnik və dini mənsubiyyəti və güman edilən siyasi əqidəsi əsasında maneələr yaradılır.[153]

39. Eyni zamanda, məlumatlara görə yerli hakimiyyət orqanları doğma yerlərinə qayıtmaları üçün məcburi köçkünlərə getdikcə daha çox təzyiq göstərir və ya onları buna məcbur edirlər.[154] Həmçinin məlumatlara görə məcburi köçkünlərdən olan dövlət qulluqçularına və təhlükəsizlik personalına təlimat verilir ki, geri alınmış ərazilərdəki əvvəlki idarələrində işlərini bərpa etsinlər.[155] Məlumatlara əsasən digər köçkünlər didərgin düşərək köçdükləri ərazilərdəki çətinliklər ucbatından geri qayıtmağı qərara alırlar, orada isə çoxları riskli şəraitdə və çox zaman qeyri-adekvat olan sığınacaqda yaşayırlar, tibbi yardım, qida və su təminatı minimal və qeyri-adekvat səviyyədə olur.[156] Məlumatlara görə, Əl-Ənbardan olan məcburi köçkünlər təhlükəsizliklə bağlı narahatlıqlar ucbatından və xüsusən Bağdadda ən böyük məcburi köçkün düşərgəsi olan Əl-Salama hücumlardan sonra Bağdaddan geri qayıdıblar.[157]

40. 2015-ci ilin ortalarından bəri getdikcə daha çox sayda İraq vətəndaşları Avropadan İraqa, o cümlədən, Bağdad, Ərbil, Süleymaniyə, Bəsrə və Nəcəfə qayıtmağı qərara alıblar.[158] Geri

---

[152] Beynəlxalq Amnistiya Təşkilatı, *Şimali İraqda insanların zorla didərgin salınması və evlərinin qəsdən dağıdılması*, 20 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56a0800f4.html, səh. 6; "Monitor" (*Al-Monitor*) elektron nəşri, *Didərgin düşmüş iraqlılar hələ də evlərinə qayıdacaqları anı gözləyirlər*, 24 iyun 2015-ci il, http://almon.co/2ghm.

[153] Yuxarıda bu bölməyə bax: "*Əvvəllər İŞİD-in nəzarəti altında olmuş ərazilərdə mülki şəxslərlə rəftar*".

[154] *"Həmçinin belə bir narahatlıq ifadə edilib ki, hökumət müəyyən məkanlarda əmin-amanlığı və təhlükəsizliyi tam qiymətləndirmədən oraya qayıdışları həvəsləndirir və qayıdanlarla məsləhətləşmə və razılaşma meyarlarına əməl olunmur"*; BMT-nin İnsan Hüquqları Şurası, *Məcburi köçkünlərin insan hüquqları üzrə xüsusi məruzəçinin məruzəsi*, 5 aprel 2016-cı il, http://www.refworld.org/docid/575fb7e14.html, 69-cu bənd. Məsələn, məlumatlara əsasən 2016-cı ilin oktyabrının əvvəllərində Şirqat şəhərinin (Səlahəddin vilayəti) yerli hakimiyyət orqanları məcburi köçkünləri evlərinə qayıtmağa çağırdılar. Halbuki şəhər yenicə, yəni 2016-cı ilin sentyabrının sonlarında İŞİD-dən geri alınmışdı və İTQ hələ ərazidə təhlükəsiz şərait yaratmaqla məşğul idi. Məlumatlara əsasən İŞİD 2016-cı ilin oktyabrının əvvəllərində bu rayona əks-hücuma başladı və Şirqat şəhərinin cənubundakı kəndi ələ keçirdi; "*Middle East Monitor*" təşkilatı, *DAİŞ İraqda əraziləri geri alır*, 8 oktyabr 2016-cı il, http://bit.ly/2dDoah2; BMT QAK, *İraqda vəziyyət: Mosuldakı vəziyyətə dair yenilənən məlumatlar*, 4 oktyabr 2016-cı il, http://bit.ly/2dxaS5S. Həmçinin yuxarıda 30-cu bəndə bax.

[155] OHCHR, *İraqda mülki şəxslərin iztirablarının "heyrətamiz" miqyasını nəzərə alaraq Zeyd qurbanların hüquqlarına diqqət yetirməyə çağırır*, 11 noyabr 2016-cı il, https://shar.es/1Iy59i; İraqda Sülh Naminə Maarifləndirmə Mərkəzi (*EPIC*), "İraqda təhlükəsizliyin və humanitar vəziyyətin monitorinqi" (*ISHM*) elektron nəşri, *7-13 oktyabr 2016-cı il*, 13 oktyabr 2016-cı il, http://www.epic-usa.org/ishm82/; BMT QAK, *İraq: Vəziyyətə dair yenilənən məlumatlar*, 26 iyul 2016-cı il, http://bit.ly/2dY8o1v, səh. 2.

[156] BMT QAK, *İraq: Vəziyyətə dair yenilənən məlumatlar*, 6 sentyabr 2016-cı il, http://www.refworld.org/docid/57d00f944.html, səh. 2; MRGI, *İraqda didərginlik böhranı*, mart 2016-cı il, http://www.refworld.org/docid/573592d24.html, səh. 5; OCHA, *Humanitar tələbatların icmalı*, noyabr 2015-ci il, http://bit.ly/1RoAqvO, səh. 16. Aşağıda bu bölməyə bax: "*Humanitar vəziyyət*".

[157] "Assoşieyted Press" agentliyi, *BMT İŞİD-in didərgin saldığı iraqlıların evə qayıtmaları ilə əlaqədar təhlükələr barədə xəbərdarlıq edir*, 28 iyul 2016-cı il, http://bit.ly/2eoqFCc; BMT QAK, *İraq: Vəziyyətə dair yenilənən məlumatlar*, 14 iyul 2016-cı il, http://bit.ly/2e3hIy5, səh. 1; BMT QAK, *İraq: Vəziyyətə dair yenilənən məlumatlar*, 11 iyul 2016-cı il, http://bit.ly/2dm0Cun. Həmçinin yuxarıda 95-ci mətnaltı qeydə bax.

[158] Beynəlxalq Miqrasiya Təşkilatının (*IOM*) köməyi ilə həyata keçirilən "Yardım əsasında könüllü qayıdış və reinteqrasiya" (*AVRR*) proqramı çərçivəsində 2016-cı ilin yanvarından iyununadək ümumilikdə 7.087 iraqlı İraqa qayıtmaq üçün müxtəlif Avropa ölkələrindən yardım alıb. Müqayisə üçün qeyd edək ki, 2015-ci ildə 3.607 iraqlının, 2014-cü ildə isə 1.280 iraqlının qayıdışına yardım göstərilib. IOM, *"Yardım əsasında könüllü qayıdış və reinteqrasiya" (AVRR) proqramının bülleteni, 2016/1 (yanvar-iyun)*, sentyabr 2016-cı il, http://bit.ly/2dlYSap, səh. 2; IOM, *"Yardım əsasında könüllü qayıdış və reinteqrasiya" proqramı – 2015: əsas məqamlar*, yanvar 2016-cı il, http://bit.ly/2fQvCbS, səh. 14, 68. Digərləri hökumət tərəfindən maliyyələşdirilən qayıdış proqramları əsasında və öz vəsaitləri hesabına geri qayıdıblar; "*USA Today*" qəzeti, *İraqlı qaçqınlar evlərinə qayıdırlar: "Avropa bizə qonaqpərvərlik göstərmədi"*, 9 iyun 2016-cı il, http://usat.ly/1t8Anj7; "*ABC*" yayım şirkəti, *Minlərlə iraqlı Avropa arzuları puça çıxmış halda evlərinə qayıdırlar*, 13 aprel 2016-cı il, http://ab.co/2fQxLEr; "Röyters" agentliyi,

qayıdışın səbəbi kimi İraq vətəndaşlarının göstərdikləri məsələlər sırasına bunlar daxildir: qəbul mərkəzində şəraitin çətin olması; sığınacaq verilməsi prosedurlarında ləngimələr və müvafiq olaraq etibarlı hüquqi status almaqda, xidmətlərə çıxış əldə etməkdə və ailə üzvləri ilə qovuşmaqda yubanmalar; cəmiyyətə inteqrasiya olunmaqda çətinliklər; sığındıqları ölkədə hücumlara məruz qalma qorxusu; və İraqda ailə üzvləri ilə qovuşmaq istəyi.[159]

### *Humanitar vəziyyət*

41. İraq münaqişənin davam etdiyi, humanitar yardımlara çıxış imkanının məhdudlaşdığı, problemləri aradan qaldırma mexanizmlərinin zəiflədiyi və vəsaitin çatışmadığı bir şəraitdə artmaqda olan humanitar böhran keçirir.[160] Məlumatlara əsasən münaqişə, davamlı didərginlik halları və xidmətlərin işinin pozulması nəticəsində humanitar ehtiyaclar sürətlə artır. Hesablamalara görə bütün İraq ərazisində 10 milyondan artıq insanın və ya təxminən əhalinin üçdə birinin hazırda humanitar yardıma ehtiyacı var, buraya məcburi köçkünlər, geri qayıdanlar, Suriyadan və digər yerlərdən olan qaçqınlar[161] və İŞİD-in nəzarəti altında olan ərazilərdə yaşayanlar daxildir.[162] Müqayisə üçün qeyd edək ki, hazırda humanitar təşkilatlar yalnız 7,3 milyon nəfərə humanitar yardım göstərə bilirlər.[163] Humanitar böhranın miqyasını və mürəkkəbliyini nəzərə alaraq BMT 2014-cü ilin avqustunda İraqla bağlı "3-cü səviyyəli fövqəladə vəziyyət" elan edib ki, bu da fövqəladə vəziyyətin ən yüksək səviyyəsidir və elan edilmiş bu vəziyyət o vaxtdan bəri hər il qüvvədə saxlanılır.[164]

---

*Almaniyanın sığınacaq sistemindəki süründürməçilikdən məyus olmuş bəzi iraqlılar evə qayıdırlar*, 28 yanvar 2016-cı il, http://reut.rs/23tJARj.

[159] "*USA Today*" qəzeti, *İraqlı qaçqınlar evlərinə qayıdırlar: "Avropa bizə qonaqpərvərlik göstərmədi"*, 9 iyun 2016-cı il, http://usat.ly/1t8Anj7; "Əl-Cəzirə" telekanalı, *Yezidilər Avropanı tərk edir və döyüşən İraqa qayıdırlar*, 9 may 2016-cı il, http://aje.io/pfwq; "*The National*" qəzeti, *Arzular puç olub və ciblər boşdur: iraqlı miqrantlar Avropadan evlərinə qayıdırlar*, 4 may 2016-cı il, http://bit.ly/2fdV8Ej; "*ABC*" yayım şirkəti, *Minlərlə iraqlı Avropa arzuları puça çıxmış halda evlərinə qayıdırlar*, 13 aprel 2016-cı il, http://ab.co/2fQxLEr; "Taym" (*Time*) jurnalı, *Almaniyanı tərk etməyi qərara almış iraqlı qaçqınlarla görüş*, 31 mart 2016-cı il, http://ti.me/1MEYSgD; "Nyu-York Tayms" qəzeti, *Avropanın məyus etdiyi minlərlə iraqlı miqrant evə qayıdır*, 4 fevral 2016-cı il, http://nyti.ms/1UOh5rt; "Vaşinqton Post" qəzeti, *Avropanın məyus etdiyi bəzi iraqlılar evə qayıdırlar*, 30 dekabr 2015-ci il, http://wpo.st/A3HC2. Həmçinin bax: IOM, *İraqdan Avropaya miqrasiya axınları*, fevral 2016-cı il, http://iomiraq.net/file/6110/download, səh. 18, 21.

[160] *"Vəziyyət getdikcə pisləşir və insanlar yaşamaq uğrunda mübarizə aparırlar. Azı 2 milyon insan didərginliyinin ikinci ilinə qədəm qoyur. Ailələrin yığdığı əmanətlər tükənib, dolanmaq üçün gəlir əldə etmək tələbatı artıb, sosial gərginlik insidentləri isə artmaqdadır. Yerli icmaların yaşayış şəraiti yüksələn xətt üzrə pisləşir, qapılarını didərgin düşmüş qohumlarının və qonşularının üzünə səxavətlə açmış ailələr sürətlə yoxsulluq girdabına yuvarlanırlar"*; BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 2-ci məruzəsi*, 26 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56af0c454.html, 65-ci bənd. 13 noyabr 2016-cı ilə olan məlumata əsasən, "Humanitar reaksiya planı" (HRP) əsasında İraq üçün tələb olunan maliyyə vəsaitinin yalnız 62 faizi alınıb. Maliyyə vəsaitlərinin ayrılmasının vəziyyətinə aid yenilənən məlumatlar üçün bax: Maliyyə axınlarının izlənməsi xidməti, İraq üçün HRP – 2016, 13 noyabr 2016-cı ilədək olan informasiya, https://ftsbeta.unocha.org/appeals/1117/summary. Maliyyə vəsaitlərinin çatışmazlığı 2016-cı il üçün Humanitar reaksiya planında nəzərdə tutulmuş 226 layihənin yarısından çoxunun bağlanması və ya gec başlanması ilə nəticələnib. Əlavə vəsait gəlib çıxmasa 2016-cı ilin sonunadək əlavə 60 proqram da bağlana bilər ki, bu da tərəfdaş humanitar təşkilatların ehtiyacı olan bütün iraqlılar üçün həyati əhəmiyyət kəsb edən birinci dərəcəli yardımları təmin etmək imkanlarına təsir göstərə bilər; OCHA, *Mosuldakı humanitar böhran*, 9 noyabr 2016-cı il, http://bit.ly/2fRVoNw, səh. 2.

[161] İraq 225.000-dən artıq suriyalı qaçqını qəbul edib və onlar əsasən İraqın Kürdüstan bölgəsindədirlər; BMT QAK, *Suriyadakı regional qaçqın probleminə reaksiya: İraq*, məlumatların sonuncu yeniləmə tarixi: 20 sentyabr 2016-cı il, http://data.unhcr.org/syrianrefugees/country.php?id=103. Bundan əlavə, 30 sentyabr 2016-cı ilə olan məlumata əsasən İraq 47.500 nəfərə yaxın qaçqını qəbul edib ki, onların da çoxu iranlı, fələstinli və sudanlı qaçqınlardır; BMT QAK-ın məlumatları, noyabr 2016-cı il.

[162] OCHA, *İraq: önəmli rəqəmlər*, 13 noyabr 2016-cı ilədək olan informasiya, http://www.unocha.org/iraq.

[163] Yenə orada.

[164] UNAMI, *BMT daha effektiv humanitar reaksiyanın təmin edilməsi üçün İraqla bağlı "3-cü səviyyəli fövqəladə vəziyyət" elan etdi*, 19 avqust 2014-cü il, http://www.refworld.org/docid/53f323334.html.

42. Mosulu geri almaq üçün keçiriləcək hərbi hücum əməliyyatının onsuz da böhran durumunda olan humanitar vəziyyəti daha da ağırlaşdıracağı gözlənilir və humanitar təşkilatlar böhranın genişlənməsinə[165] ciddi maliyyə çatışmazlığı şəraitində[166] hazır olmaq üçün hər cür səy göstərirlər. BMT-nin hesablamalarına görə, qarşıda gözlənilən hərbi əməliyyatın təsirinə 1,2 milyondan 1,5 milyonadək insan məruz qala bilər ki, onlardan 700.000 insan təcili humanitar yardıma, o cümlədən, sığınacağa, qidaya, suya və tibbi yardıma ehtiyac duya bilər.[167] Mosulda təşkil ediləcək humanitar yardım əməliyyatı "*2016-cı ildə dünyada ən geniş və ən mürəkkəb əməliyyat*" olacaq.[168] Hesablamalara əsasən 2016-cı ilin sonunadək İraqda 12 milyondan 13 milyonadək insan humanitar yardıma ehtiyac duya bilər.[169]

43. İŞİD-in nəzarəti altında olan ərazilərdə və münaqişə zonalarında humanitar vəziyyət xüsusi narahatlıq doğurur, belə ki, əhalinin zəruri xidmətlərə, ərzaqlara və digər istehlak mallarına çıxış imkanı yoxdur və ya çox məhduddur və həmin ərazilərin çoxu beynəlxalq təşkilatlar üçün əlçatmazdır.[170] Münaqişə tərəfləri həmçinin bilərəkdən ərzaq təchizatının və humanitar yardımların mülki şəxslərə çatmasının qarşısını almaqla mülki ərazilərdə mühasirə şəraiti yaratmaqda təqsirləndirilirlər.[171]

---

[165] "*The Independent*" qəzeti, *BMT Mosulda İŞİD-lə döyüş nəticəsində didərgin düşəcək 1,5 milyonadək insanın problemini həll etməyə "qətiyyən hazır deyil"*, 6 oktyabr 2016-cı il, http://ind.pn/2dMstEL; IRIN xəbər agentliyi, *İraqın Mosul şəhəri: yardım agentlikləri üçün həlledici məqam*, 27 sentyabr 2016-cı il, http://www.refworld.org/docid/57eb79964.html; "*Deutsche Welle*" ("Döyçe vele" – "Alman dalğası") telekanalı, *Mosul: Növbəti humanitar fəlakətin baş verəcəyi gözlənilir*, 19 avqust 2016-cı il, http://dw.com/p/1Jlzf.

[166] Mosulda fövqəladə vəziyyətə reaksiya çərçivəsində əlavə humanitar tələbatların əhəmiyyətli dərəcədə artdığını nəzərə alaraq, BMT 2016-cı ilin iyununda məqsədli vəsaitlərin cəlb olunması üçün çağırış etdi. 13 noyabr 2016-cı ilə olan məlumata əsasən, tələb olunan vəsaitlərin 64 faizi cəlb olunub. Maliyyə axınlarının izlənməsi xidməti, *Mosuldakı vəziyyətlə bağlı təcili maliyyə yardımı çağırışı*, 13 noyabr 2016-cı ilədək olan informasiya, https://ftsbeta.unocha.org/appeals/2880/summary. Məlumatlara əsasən maliyyə vəsaitlərinin məhdudluğu nəticəsində Mosulda vəziyyətə reaksiyanın mühüm komponentləri, o cümlədən təcili surətdə düşərgələrin hazırlanması üçün vəsaitlər olduqca azdır; OCHA, *Humanitar bülleten: İraq, sentyabr 2016-cı il*, 15 oktyabr 2016-cı il, http://bit.ly/2e8Oyz7, səh. 3; OCHA, *Mosuldakı vəziyyətlə əlaqədar humanitar yardım çağırışı*, 20 iyul 2016-cı il, http://bit.ly/2d9dZTv.

[167] BMT QAK, *Mosula hücum əməliyyatı yaxınlaşdıqca BMT QAK-ın planlaşdırma işi sürətlənir*, 29 sentyabr 2016-cı il, http://www.refworld.org/docid/57ee552f4.html; OCHA, *Humanitar bülleten: İraq, iyul-avqust 2016-cı il*, 29 avqust 2016-cı il, http://bit.ly/2duUdAQ, səh. 3.

[168] OCHA, *Mosuldakı vəziyyətlə əlaqədar humanitar yardım çağırışı*, 20 iyul 2016-cı il, http://bit.ly/2dNzbug, səh. 2.

[169] BMTTŞ, *Baş katibin 2299 (2016) saylı qətnaməyə uyğun olaraq təqdim edilmiş məruzəsi*, 25 oktyabr 2016-cı il, http://www.refworld.org/docid/5821ca0f4.html, 56-cı bənd.

[170] "*Əl-Ənbar və Neynəva vilayətlərinin çox hissəsinə giriş beynəlxalq humanitar təşkilatlar üçün məhdudlaşdırılmış və ya əlçatmaz olaraq qalır. Digər vilayətlərdə ərazilərə giriş imkanı münaqişədən asılı olaraq fərqlənir, belə ki, mübahisəli ərazilərdə və silahlı qrupların nəzarəti atlında olan ərazilərdə müəyyən yerlərə giriş imkanının fərqli olduğu müşahidə edilir*"; BMT QAK, *İraqa dair məlumat vərəqəsi*, oktyabr 2016-cı il, http://bit.ly/2fs6qpz. "*Əl-Ənbar, Neynəva, Səlahəddin və Kərkük vilayətləri, eləcə də Ərbilin cənubu aktiv hərbi əməliyyatların təsirinə məruz qalmaqda davam edir. Həmçinin Bağdadda və Diyalada qeyri-sabitlik hökm sürür ki, bu da humanitar yardımları çatdırmaq imkanlarını məhdudlaşdırmaqda davam edir*"; BMTTŞ, *Baş katibin 2233 (2015) saylı qətnamənin 7-ci bəndinə uyğun olaraq təqdim edilmiş 3-cü məruzəsi*, 27 aprel 2016-cı il, http://www.refworld.org/docid/5731a1a14.html, 55-ci bənd. Həmçinin bax: ABŞ Dövlət Departamenti, *2015: Ölkələr üzrə məruzələr – İraq*, 13 aprel, 2016-cı il, http://www.state.gov/documents/organization/253137.pdf, səh. 40; BMT-nin İnsan Hüquqları Şurası, *Məcburi köçkünlərin insan hüquqları üzrə xüsusi məruzəçinin məruzəsi,* 5 aprel 2016-cı il, http://www.refworld.org/docid/575fb7e14.html, 17 və 23-cü bəndlər.

[171] İŞİD-in əlində olan ərazilərdə aclıqla əlaqədar ölüm halları barədə məlumatlar var; EPIC, *Unudulmuş Havica cəbhə xətti*, 30 sentyabr 2016-cı il, http://bit.ly/2e43bIe; İraq İnsan Hüquqlarının Müşahidəsi Təşkilatı, *İraq hökuməti Havicadakı humanitar böhran barəsində hələ də susur*, 19 sentyabr 2016-cı il, http://bit.ly/2d9cDs9; BMT-nin xəbərlər mərkəzi, *İraq: BMT-nin ərzaq yardımı agentliyinin yardımları Qayyarada 2 il mühasirədə qalmış 30.000 nəfər əhaliyə çatdırıldı*, 6 sentyabr 2016-cı il, http://www.refworld.org/docid/57d0164b40e.html; HRW, *İraq: Fəllucənin mühasirəsinə görə əhali aclıq çəkir*, 7 aprel 2016-cı il, http://www.refworld.org/docid/57061b234.html; BMT QAK, *İraq: Vəziyyətə dair yenilənən məlumatlar*, 21 iyul 2016-cı il, http://bit.ly/2dYlAkL, səh. 2; BMT-nin xəbərlər mərkəzi, *BMT-nin qaçqın agentliyi mühasirəyə alınan Fəllucədən qaçmış ailələrə yardımları çatdırmağa başladı;* 27 may 2016-cı il,

44. Məlumatlara görə didərgin düşənlərin köçdükləri ərazilərdə yerli hakimiyyət orqanlarının və icmaların üzərinə həddən artıq yük düşüb və bu son dövrün münaqişəsinə qədər artıq öz işlərini lazımi səviyyədə yerinə yetirə bilməyən xidmətlərin işi daha da pisləşib, o cümlədən içməli su təchizatı, sanitariya qovşağı, bərk tullantıların atılması, təhsil və səhiyyə xidmətləri də buraya daxildir.[172] Məlumatlara əsasən, xidmət təchizatının zəif olması adətən malik olduqları gəlir mənbələrindən və ənənəvi sosial və digər dəstək şəbəkələrindən məhrum olan məcburi köçkünlərə xüsusilə mənfi təsir göstərir.[173] Ən yoxsul ailələr və ailə başçısının qadın olduğu ailələr köçüb məskunlaşdıqları yerlərdə çox zaman iş tapmaqda və ya dolanacaq üçün qazanc əldə etməkdə xüsusilə çətinlik çəkirlər və çoxları çətinliklərin öhdəsindən gəlmək üçün neqativ üsullara əl atırlar.[174]

45. Tərəfdaş humanitar təşkilatlar yeni didərgin düşmüş mülki şəxsləri sığınacaqla təmin etmək üçün hər cür səy göstərirlər, belə ki, didərginlərin sayı onlar üçün mövcud olan düşərgələrin tutumundan xeyli çoxdur, yeni sığınacaq yerlərinin təşkili isə vəsait qoyulmasını və torpaq sahəsinin ayrılmasını tələb edir.[175] Bu mətn hazırlandığı zaman didərginliyin miqyası məhdud

---

http://www.refworld.org/docid/574bea4140b.html; "Uol Strit Cornel" (*Wall Street Journal*) qəzeti, *İraqın İŞİD tərəfindən işğal edilmiş Fəllucəni mühasirəyə alması sakinləri aclığa məhkum edir*, 31 yanvar 2016-cı il, http://on.wsj.com/1SRW1Cw.

[172] *"Çoxları böyük məhrumiyyətlərlə üzləşir, tikintisi yarımçıq qalmış binalara, müvəqqəti sığınacaqlara və məscidlərə sığınırlar. Bir çoxları daimi iş tapa bilmirlər, məsrəflər ucbatından az yeyirlər, kirayə haqqını ödəmək və ya uşaqlarını məktəbə göndərmək üçün çarpışırlar"*; BMT QAK, *Mosul hücumu İraqda didərgin düşənlərin sayının artmasına rəvac verir*, 21 sentyabr 2016-cı il, http://www.refworld.org/docid/57e2b29219.html. *"Bütün etnik və dini icmalardan olan şəxslər də daxil olmaqla yüz minlərlə insan son dərəcə acınacaqlı vəziyyətdə yaşayır və çox zaman zorakılıq və növbəti didərginlik təhlükəsi altında olur, çox vaxt sığınacaq, tibbi yardım, qida və su təchizatı ən bəsit və qeyri-adekvat səviyyədə olur. Təhsil sahəsində müəyyən təşəbbüslər mövcud olsa da, məcburi köçkün uşaqların çoxu icmaları daxilində ibtidai təhsil almaqdan savayı başqa növ təhsil ala bilmirlər. Məcburi köçkünlərin çoxunun maliyyə vəsaiti yoxdur, varsa da çox azdır, həmçinin işə düzəlmək və ya gəlir gətirən fəaliyyətlərlə məşğul olmaq perspektivləri də azdır"*; BMT-nin İnsan Hüquqları Şurası, *Məcburi köçkünlərin insan hüquqları üzrə xüsusi məruzəçinin məruzəsi,* 5 aprel 2016-cı il, http://www.refworld.org/docid/575fb7e14.html, 23-cü bənd.

[173] *"Geniş əhali kütlələri üçün çox zaman iş tapılmır və məcburi köçkünlərin iş tapmaq və ya gəlir gətirən fəaliyyətlərlə məşğul olmaq perspektivi az olur (əgər ümumiyyətlə olursa). Bəzi hallarda onlar qısamüddətli və ya günəmuzd işə tap bilirlər, maddi imkanı olanlar isə gəlir gətirən kiçik həcmli işlə məşğul ola bilirlər. Lakin çoxları üçün iş tapmaq çətindir və onların vəsaitləri sürətlə tükənməkdədir"*; BMT-nin İnsan Hüquqları Şurası, *Məcburi köçkünlərin insan hüquqları üzrə xüsusi məruzəçinin məruzəsi,* 5 aprel 2016-cı il, http://www.refworld.org/docid/575fb7e14.html, 29-cu bənd. *"Didərgin durumunda olmaları uzun müddət davam edən insanların daimi iş tapmaq imkanları ciddi şəkildə məhdud olaraq qalır. (...) Ölkədəki məcburi köçkün ailələrin yalnız 36 faizi davamlı gəlir əldə edirlər və ən zəruri tələbatlarını ödəmək iqtidarındadırlar, təxminən 2 milyon insan isə daimi gəlir mənbəyindən məhrum olmuş vəziyyətdədir. Bundan əlavə, İraqda bütün məcburi köçkün ailələrin təşviş doğuracaq dərəcədə böyük bir hissəsi – 85 faizi borc içərisindədir"*; OCHA, *İraq üçün humanitar reaksiya planı – 2016*, dekabr 2015-ci il, http://bit.ly/1U3LFAI, səh. 29, 30.

[174] *"İŞİD-in hücumundan təxminən iki il sonra məcburi köçkünlərin maddi vəziyyəti acınacaqlıdır. Köməksiz durumda olan ailələr gündəlik tələbatlarını ödəyə bilmək üçün əsas əmlaklarını satırlar, çünki didərgin düşərək köçdükləri ərazilərdə dolanacaq üçün qazanc əldə etmək imkanları məhduddur. Çoxları problemlərin həllinin neqativ üsullarına əl atırlar, məsələn, yeməklərində ixtisarlar edir, borca pul götürür və ən pis halda uşaq əməyi, fahişəlik, orqan satışı və dilənçilik kimi yollara üz tuturlar"*; MRGI, *İraqda didərginlik böhranı*, mart 2016-cı il, http://www.refworld.org/docid/573592d24.html, səh. 5. Həmçinin bax: BMT-nin İnsan Hüquqları Şurası, *Məcburi köçkünlərin insan hüquqları üzrə xüsusi məruzəçinin məruzəsi,* 5 aprel 2016-cı il, http://www.refworld.org/docid/575fb7e14.html, 29-cu bənd.

[175] OCHA, *Humanitar bülleten: İraq, sentyabr 2016-cı il*, 15 oktyabr 2016-cı il, http://bit.ly/2e8Oyz7, səh. 1-2; "Röyters" agentliyi, *Vəsait çatışmazlığı ilə üzləşən BMT Mosul hücumunda böyük problemlərlə qarşılaşır*, 13 oktyabr 2016-cı il, http://reut.rs/2e0hFqt; "*The Daily Beast*" saytı, *Bir milyon qaçqının olması Mosul qələbəsini məğlubiyyətə çevirə bilər,* 10 oktyabr 2016-cı il, http://thebea.st/2d6dvIQ; "Əl-Cəzirə" telekanalı, *"Kütləvi böhran": 1,5 milyon insanın İraqın Mosul şəhərini tərk edəcəyi gözlənilir*, 29 sentyabr 2016-cı il, http://aje.io/he64; BMT QAK, *Mosul hücumu İraqda didərgin düşənlərin sayının artmasına rəvac verir*, 21 sentyabr 2016-cı il, http://www.refworld.org/docid/57e2b29219.html; "Qardian" qəzeti, *Mosul döyüşünün didərgin saldığı iraqlıların yardımları gözləməyə vaxtı azdır*, 3 avqust 2016-cı il, http://bit.ly/2dVlcEa; NRC/IDMC, *İraqda təhlükəsizlik axtarışında*, iyul 2016-cı il, http://www.refworld.org/docid/582098104.html, səh. 12.

idi, belə ki, sığınacaq axtaran yeni məcburi köçkünlərin yalnız 50 faizindən bir az çoxu düşərgələrdə yer axtarırlar, qalanları isə yerli icmalardakı özəl binalarda və ya xüsusi sığınacaqlarda yerləşdiriliblər.[176] Mosuldan kütləvi köçkün axını baş verəcəyi təqdirdə mövcud düşərgələrin tutumu sığınacağa ehtiyacı olan bütün ailələri yerləşdirməyə imkan vermir və çoxları öncədən müəyyənləşdirilmiş "fövqəladə ərazilərə" yollanmalı olacaqlar ki, orada adekvat sığınacaq və zəruri xidmətlər yoxdur.[177]

46. Münaqişə, didərginlik və sənədlərinin əllərindən alınması nəticəsində bir çox məcburi köçkünlərin zəruri sənədləri yoxdur. Bu, onların zəruri xidmətlərə çıxışını, hərəkət azadlığını və nisbətən təhlükəsiz ərazilərə getmə imkanını məhdudlaşdırır və əsassız həbs edilmə riskini artırır.[178]

***BMT QAK-ın qayıdışlarla əlaqədar mövqeyi***

47. Hazırkı vəziyyətdə BMT QAK dövlətlərə çağırış edir ki, hərbi əməliyyatların təsirinə məruz qalan, İŞİD-dən geri alındıqdan sonra həssas və qeyri-sabit vəziyyətdə olan və ya İŞİD-in nəzarəti altında qalan İraq ərazilərindən olan hər hansı iraqlını zorla geri qaytarmaqdan çəkinsinlər. Belə şəxslər, o cümlədən beynəlxalq himayə üçün müraciətləri təmin edilməyənlər nə öz doğma ərazilərinə, nə də ölkənin digər hissələrinə geri göndərilməməlidirlər. Bu ərazilərdən olan iraqlıların çoxunun durumu, yəqin ki, 1951-ci il Konvensiyasında qaçqın statusu üçün müəyyən edilmiş meyarlara cavab verir.[179] Qaçqınların statusu haqqında 1951-ci il

---

[176] OCHA, *Mosuldakı humanitar böhran,* 1 noyabr 2016-cı il, http://bit.ly/2fa0KCq, səh. 1; OCHA, *Mosuldakı vəziyyətlə əlaqədar humanitar yardım çağırışı*, 20 iyul 2016-cı il, http://bit.ly/2d9dZTv, səh. 2.

[177] Ən pis halda 700.000-dək insanın təcili sığınacağa ehtiyacı ola bilər. Bu mətn hazırlandığı zaman 20.000-dən artıq yeni məcburi köçkün düşərgələrdə yerləşdirilirdi. Yeddi düşərgədə əlavə 40.000 məcburi köçkünü yerləşdirmək üçün imkan var və həmçinin 450.000 nəfərlik yer inşa edilir və ya inşası planlaşdırılır; OCHA, *Mosuldakı humanitar böhran,* 9 noyabr 2016-cı il, http://bit.ly/2fRVoNw. Həmçinin bax: OCHA, *Humanitar bülleten: İraq, sentyabr 2016-cı il,* 15 oktyabr 2016-cı il, http://bit.ly/2e8Oyz7, səh. 3; "*The Daily Beast*" saytı, *Bir milyon qaçqının olması Mosul qələbəsini məğlubiyyətə çevirə bilər,* 10 oktyabr 2016-cı il, http://thebea.st/2d6dvIQ; "Əl-Cəzirə" telekanalı, *"Kütləvi böhran": 1,5 milyon insanın İraqın Mosul şəhərini tərk edəcəyi gözlənilir,* 29 sentyabr 2016-cı il, http://aje.io/he64.

[178] İraqda vətəndaşlıq statusunu əks etdirən sənədlər şəxsin doğulduğu yerin vətəndaşlıq vəziyyəti aktları idarəsi tərəfindən verilir və yenilənir və sənədlərin əslinə dair qeydlər də orada saxlanılır, amma hazırda bu perspektiv məcburi köçkünlərin çoxu üçün real deyil. 2014-cü ildən bəri geniş miqyaslı didərginlik hallarına reaksiya olaraq şəxsiyyət vəsiqələrini (digər növ sənədləri isə yox) yeniləmək üçün ölkənin müxtəlif hissələrində alternativ vətəndaşlıq vəziyyəti aktları idarələri açılıb; lakin onların coğrafi əhatə dairəsi məhduddur və nəticədə məcburi köçkünlərin çoxu vətəndaşlıq statusunu əks etdirən sənədləri əldə edə bilmirlər. İtirilmiş sənədlərin bərpası üzrə inzibati prosedurlar uzun sürür və onların inzibati xərcləri və daşınaraq çatdırılmasının məsrəfləri bahadır. Sənədləri əldə etmək mülki iddiaların (məsələn, nikahın və boşanmanın qeydiyyatı, ölüm haqqında şəhadətnamənin verilməsi barədə iddiaların) uğurlu həllindən asılı ola bilər. *"Qanuni sənədlərin əldə edilməsi bütün İraq ərazisində məcburi köçkünlərin ən çox nəzərə çarpan problemlərindən biridir. Müvafiq sənədlərin təqdim edilməməsi zəruri ictimai xidmətlərdən və humanitar yardımlardan məhrum olma ilə nəticələnə bilər. (...) Sənədlərinin olmadığı aşkar edilən məcburi köçkünlər çox vaxt qanunsuz sakinlər sayılır və kimlikləri yoxlanılana qədər bəzən günlərlə həbsdə saxlanılırlar. Bu hal xüsusən KRH-nin ərazisində və Kərkük vilayətində geniş yayılıb"*; MRGI, *İraqda didərginlik böhranı,* mart 2016-cı il, http://www.refworld.org/docid/573592d24.html, səh. 18-19, 20. Həmçinin bax: BMT QAK, *Mosuldan didərgin düşənlərin himayəsi ilə bağlı yenilənən həftəlik xəbərlər (29 oktyabr – 4 noyabr 2016-cı il),* 4 noyabr 2016-cı il, http://bit.ly/2fsroVl; BMT QAK, *İŞİD-in əlində olan ərazilərdən olan sünni ərəblər üçün Bağdadda ölkədaxili köçürülmə və ya yerdəyişmə alternativinin mümkünlüyünün qiymətləndirilməsi üçün mənşə ölkəsi barədə müvafiq məlumatlar,* may 2016-cı il, http://www.refworld.org/docid/575537dd4.html, 27-28-ci bəndlər; BMT-nin İnsan Hüquqları Şurası, *Məcburi köçkünlərin insan hüquqları üzrə xüsusi məruzəçinin məruzəsi,* 5 aprel 2016-cı il, http://www.refworld.org/docid/575fb7e14.html, 14-cü və 54-cü bəndlər; OCHA, *İraq üçün humanitar reaksiya planı – 2016,* dekabr 2015-ci il, http://bit.ly/1U3LFAI, səh. 7, 16; OCHA, *Humanitar tələbatların icmalı – 2016,* noyabr 2015-ci il, http://bit.ly/1RoAqvO, səh. 7; Humanitar Praktika Şəbəkəsi (*HRN*), *Şəxsiyyət sənədləri ilə bağlı böhran: İraqda məcburi köçkünlər üçün sənədlər,* oktyabr 2015-ci il, http://bit.ly/1QJpxZ9.

[179] Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyası [*Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyası* ("*1951-ci il Konvensiyası*"), 28 iyul 1951-ci il, Birləşmiş Millətlər Təşkilatı, Müqavilə seriyaları, 189-cu cild, səh.

Konvensiyasının meyarlarının tətbiqinin mümkünsüzlüyü qənaətinə gəlinərsə, qaçqın statusu üçün daha geniş meyarları nəzərdə tutan müvafiq regional sənədlərin müddəaları[180] və ya himayənin əlavə formaları,[181] yəqin ki, tətbiq edilə bilər. Hər bir ayrıca işin konkret xüsusiyyətindən asılı olaraq beynəlxalq himayəni istisna edən halların olub-olmadığını araşdırmağa ehtiyac ola bilər.[182]

48. Qərar qəbul edənlər alternativ variant qismində ölkə daxilində köçürülmə və ya yerdəyişmə məsələsini nəzərdən keçirdikdə konkret köçürülmə məkanını müəyyənləşdirmək və alternativ variant qismində həmin məkana köçürülmə təklifinin məqsədəuyğunluq və əsaslılıq tələblərinə cavab verdiyini sübut etmək vəzifəsi qərar qəbul edən şəxsin üzərinə düşür.[183] Faktiki olaraq ölkənin bütün hissələrində iri miqyaslı ölkədaxili didərginlik hallarının, ciddi humanitar böhranın mövcud olduğu, icmalararası gərginliyin artdığı, ərazilərə daxil olmağa və orada yaşamağa məhdudiyyətlərin qoyulduğu və doğma yerləri İŞİD-dən geri alındıqdan sonra həmin yerlərə vaxtından əvvəl qayıtmaları üçün məcburi köçkünlərə getdikcə daha çox təzyiq göstərildiyi hazırkı şəraitdə BMT QAK dövlətlərin alternativ variant qismində ölkə daxilində köçürülmənin və ya yerdəyişmənin tətbiqinin mümkünlüyünü əsas gətirərək İraqdan olan şəxsləri beynəlxalq himayə ilə təmin etməkdən imtina etmələrini məqsədəuyğun hesab etmir. Alternativ variant qismində ölkə daxilində köçürülmə və ya yerdəyişmə yalnız müstəsna hallarda mümkün sayıla bilər, bunun üçün şəxs köçürülmə üçün təklif olunan əraziyə qanuni yolla gedib çıxa və orada qala bilməli,[184] orada yeni ciddi təhlükələrə məruz qalmamalı,[185] təklif olunan ərazidə sıx ailə

---

137, http://www.refworld.org/docid/3be01b964.html] və ona əlavə olunmuş Qaçqınların statusu haqqında 1967-ci il Protokolu [*Qaçqınların statusu haqqında 1967-ci il Protokolu*, 31 yanvar 1967-ci il, Birləşmiş Millətlər Təşkilatı, Müqavilə seriyaları, 606-cı cild, səh. 267, http://www.refworld.org/docid/3ae6b3ae4.html]. BMT QAK-ın qayıdışlara dair mövqeyini əks etdirən sənəddə göstərilməyən İraq ərazilərindən olan iraqlıların durumu da, təbii ki, 1951-ci il Konvensiyasının meyarlarına uyğun gələ bilər.

180 İraqdan olan şəxslərin beynəlxalq himayə üçün hansı ölkəyə müraciət etməsindən asılı olaraq tətbiq edilə bilən regional qaçqın himayəsinə dair sənədlər üçün bax: *Afrikada qaçqınların problemlərinin konkret aspektlərinə dair Konvensiya,* ("*Afrika Birliyinin Konvensiyası*"), 10 sentyabr 1969-cu il, U.N.T.S. 45, http://www.unhcr.org/refworld/docid/3ae6b36018.html; *Qaçqınlar haqqında Kartagena Bəyannaməsi, Mərkəzi Amerika, Meksika və Panamada qaçqınların beynəlxalq himayəsinə dair kollokvium,* 22 noyabr 1984-cü il (Kartagena Bəyannaməsi), http://www.refworld.org/docid/3ae6b36ec.html. Kartagena Bəyannaməsi məcburi hüquqi qüvvəyə malik olmayan sənədlər sırasına daxil olsa da, Kartagena Bəyannaməsində yer alan qaçqın anlayışı xüsusən milli qanunlara daxil edilməsi və praktikada tətbiqi sayəsində regionda xüsusi əhəmiyyətə malikdir, belə ki, bu anlayış 14 dövlətin milli qanunvericiliyinə daxil edilib və həmin dövlətlərin hüquq praktikasında tətbiq edilir. Kartagena Bəyannaməsində yer alan qaçqın anlayışının şərhinə dair təlimat üçün bax: BMT QAK, *1984-cü il tarixli Kartgena Bəyannaməsində yer alan "qaçqın" termininin geniş çərçivəli anlayışının şərhinə dair yekun qənaətlər, 15 və 16 oktyabr 2013-cü il tarixli dəyirmi masa müzakirələri, Montevido, Uruqvay*, 7 iyul 2014-cü il, http://www.refworld.org/docid/53c52e7d4.html.

181 İraqın bu ərazilərindən olan və Avropa İttifaqına üzv olan dövlətlərdə sığınacaq axtaran, lakin qaçqın qismində tanınmayan şəxslərə, yəqin ki, əlavə himayəyə ehtiyacı olan şəxslər qismində Aİ-nin Uyğunluq Direktivinin 15-ci maddəsi şamil oluna bilər [Avropa İttifaqı, *Üçüncü ölkələrin vətəndaşlarının və ya vətəndaşlığı olmayan şəxslərin beynəlxalq himayənin benefisiarları qismində tanınması, qaçqınlar və əlavə himayə ilə təmin edilmək hüququ olan şəxslər üçün vahid statusun müəyyən edilməsi və təqdim edilən himayənin məzmunu ilə bağlı standartlar haqqında Avropa İttifaqı Parlamentinin və Şurasının 2011/95/EU saylı direktivi ("Uyğunluq Direktivi") (yenidən işlənmiş versiya),* 13 dekabr 2011-ci il, http://www.refworld.org/docid/4f06fa5e2.html].

182 BMT QAK, *Beynəlxalq himayəyə dair rəhbər prinsiplər № 5: İstisnaedici müddəaların tətbiqi, Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "F" bəndi*, 4 sentyabr 2003-cü il, HCR/GIP/03/05, http://www.unhcr.org/refworld/docid/3f5857684.html.

183 BMT QAK, *Beynəlxalq himayəyə dair rəhbər prinsiplər № 4: Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin A(2) bəndi və 1967-ci il Protokolu kontekstində "ölkədaxili köçürülmə və ya yerdəyişmə alternativi"*, 23 iyul 2003-cü il, HCR/GIP/03/04, http://www.unhcr.org/refworld/docid/3f2791a44.html, 33-35-ci bəndlər.

184 Tələb olunan hallarda maddi himayədarın və (və ya) sənədlərin olmaması şəxsin həbs edilməsi ilə və (və ya) əvvəllər təqib olunduğu əraziyə geri qayıtması üçün təzyiqə məruz qalması ilə nəticələnə bilər. Şəxsin əvvəllər İŞİD-in əlində olmuş əraziyə qayıtması üçün yerli hakimiyyət orqanlarının təzyiqinə məruz qala biləcəyi ərazilərə köçməsi münasib ölkədaxili köçürülmə alternativi sayıla bilməz. Yuxarıda 30-cu bəndə bax.

185 Bu bölməyə bax: "*Əvvəllər İŞİD-in nəzarətində olmuş və ya hazırda nəzarət etdiyi ərazilərdən olan mülki şəxslərlə hazırda mərkəzi hökumətin və ya KRH-nin nəzarətində olan ərazilərdə rəftar*". Həmçinin bax: BMT QAK,

bağlarına malik olmalı və ailəsi həmin şəxsə yardım göstərmək istəyində və iqtidarında olmalıdır.[186] Ölkənin bir çox hissələrində, xüsusən çoxlu sayda məcburi köçkünləri qəbul etmiş ərazilərdə humanitar vəziyyətin çətin olduğu nəzərə alınaraq, özləri məcburi köçkün vəziyyətində olan ailə üzvləri, bir qayda olaraq, bu cür yardım göstərmək iqtidarında olan şəxslər hesab edilə bilməz.[187]

---

*İŞİD-in əlində olan ərazilərdən olan sünni ərəblər üçün Bağdadda ölkədaxili köçürülmə və ya yerdəyişmə alternativinin mümkünlüyünün qiymətləndirilməsi üçün mənşə ölkəsi barədə müvafiq məlumatlar,* may 2016-cı il, http://www.refworld.org/docid/575537dd4.html, 11-15-ci bəndlər.

[186] Xüsusən məcburi köçkünlərin sayının çox olduğu ərazilərə alternativ variant qismində ölkədaxili köçürülmənin əsaslılığı qiymətləndirilərkən getdikcə artmaqda olan və İraq əhalisinin geniş təbəqələrini əhatə edən maddi sıxıntılar və yoxsulluq nəzərə alınmalıdır. Nəzərə alınmalı amillər sırasına xüsusən yaşayış vasitələri, sığınacaq və ictimai xidmətlərə çıxış əldə etmək imkanı uğrunda rəqabətin olması da daxildir. Yuxarıda "*Humanitar vəziyyət*" bölməsinə bax.

[187] Ölkədaxili köçürülmə və ya yerdəyişmə alternativinin tətbiqinə dair ətraflı təlimat üçün və bu tədbirin məqsədəuyğunluğuna və əsaslılığına dair meyarlar üçün bax: BMT QAK, *Beynəlxalq himayəyə dair rəhbər prinsiplər № 4: Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin A(2) bəndi və 1967-ci il Protokolu kontekstində "ölkədaxili köçürülmə və ya yerdəyişmə alternativi",* 23 iyul 2003-cü il, HCR/GIP/03/04, http://www.unhcr.org/refworld/docid/3f2791a44.html.